**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “XİDMƏT SFERASI MÜƏSSİSƏLƏRİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN UÇOT-ANALİTİK TƏMİNATININ İNKİŞAFI İSTİQAMƏTLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Vəliyev Şaiq Nizami oğlu**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" _______________ 20__-ci il**

# "XİDMƏT SFERASI MÜƏSSİSƏLƏRİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN UÇOT-ANALİTİK TƏMİNATININ İNKİŞAFI İSTİQAMƏTLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060402- Mühasibat Uçotu və Audit**
**İxtisaslaşma: Xidmət sferası üzrə mühasibat uçotu və audit**
**Qrup: 424**


**Magistrant:**
**Vəliyev Şaiq Nizami oğlu**
**______________________imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Cəfərli Hənifə Alhüseyn oğlu**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**


**BAKI – 2021**

## Elm andı

Mən, Vəliyev Şaiq Nizami oğlu and içirəm ki, "Xidmət sferası müəssisələrində iqtisadi təhlükəsizliyin uçot-analitik təminatının inkişafı istiqamətləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## XİDMƏT SFERASI MÜƏSSİSƏLƏRİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN UÇOT-ANALİTİK TƏMİNATININ İNKİŞAFI İSTİQAMƏTLƏRİ

### XÜLASƏ


**Tədqiqatın aktuallığı: İqtisadi təhlükəsizliyin müəssisənin daxili və xarici idarəetməsinə, uçot-analitik məlumatlarına, maliyyə hesabatlarına, sui-istifadə hallarına, vergi və idarəetmə uçotuna təsiridir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın məqsədi müəssisəyə təsir edən təhlükələrin baş vermə səbəblərinin öyrənilməsi, uçot məlumatlarının və xarakterik xüsusiyyətlərinin tədqiqi, hesabatların təhlükəsiz təşkili üçün beynəlxalq təcrübələrin araşdırılması, iqtisadi təhlükələrin qarşısının alınması tədbirlərinin müəyyən edilməsidir.**

**İstifadə olunmuş tədqiqat metodları: İstifadə edilən metodlara mikroiqtisadi təhlil, qiymətləndirmə, müqayisəli, uçot məlumatlarının ümumiləşdirilməsi, fəaliyyətin analizi, optimallaşdırma, çoxfaktorlu xətti model metodları aiddir.**

**Tədiqiqatın informasiya bazası: Tədqiqat zamanı məlumat əldə etmək məqsədilə mütəxəssislərin əsərləri araşdırılır, internet resurslarından istifadə edilir.**

**Tədqiqatın məhdudiyyətləri: Müəssisələr üzrə iqtisadi təhlükəsizlik məsələsinin araşdırmaların azlığı, yazılan əsərlərin mövzunu tam əhatə edə bilməməsi, mütəxəssisələrin mövzu barədə fikir ayrılıqları məhdudiyyət səbəbləridir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Elmi yenilik – Avtomatlaşdırılmış Uçot Məlumatları Sistemi, elektron monitorinqin aparılması, xüsusi bölmənin təşkilində yeni planlamaları, yeni təhlükəsizlik tədbirləridir. Praktiki nəticələr uçot məlumatlarının düzgün əks etdirilməsi, aparılan monitorinqlərin lazımi nəticə verməsi, idarəçilik üzrə fəaliyyətin genişlənməsi, təcrübələrin tətbiqinin optimal təşkil edilməsidir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Həmin nəticələr bank, sığorta, turizm sektoru və ya otel şəbəkələri, ticarət şirkətlərində, mühasibatlıq xidməti göstərən təşkilatların idarəçiliyi üzrə sahələrdə tətbiq edilir.**



***Açar sözlər: iqtisadi təhlükəsizlik, uçot-analitik təminat, iqtisadi sui-istifadə, idarəetmə uçotu, vergi uçotu***

# DIRECTIONS FOR THE DEVELOPMENT OF ACCOUNTING-ANALYTICAL SUPPORT OF ECONOMIC SECURITY IN SERVICE SECTOR ENTERPRISES


## SUMMARY

**The actuality of the subject: The impact of economic security on the internal and external management of the enterprise, accounting-analytical data, financial statements, abuse, tax and management accounting.**

**Purpose and tasks of the research: The purpose of the study is to study the causes of threats to the enterprise, to study the accounting data and characteristics, to study international practices for the safe organization of reports, to identify measures to prevent economic risks.**

**Used research methods: The methods used include microeconomic analysis, evaluation, comparison, generalization of accounting data, performance analysis, optimization, multifactorial linear modeling methods.**

**The information base of the research: During the research, the works of specialists are researched and internet resources are used in order to obtain information.**

**Restrictions of research: Lack of research on the issue of economic security of enterprises, the inability of the written works to fully cover the topic, the differences of opinion on the topic are the reasons for the limitations.**

**The novelty and practical results of investigation: Scientific innovation – Automated Accounting Informations System, electronic monitoring, new planning in the organization of a special unit, new security measures. The practical results are the correct reflection of accounting data, the necessary results of monitoring, the expansion of management activities and the optimal organization of the application of practices.**

**Scientific-practical significance of results: These results are applied in the areas of management in the banking, insurance, tourism sector or hotel chains, commercial companies, and organizations providing accounting services.**



***Keywords: economic security, accounting-analytical support, economic abuse, management accounting, tax accounting***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AUMS** | Avtomatlaşdırılmış Uçot Məlumatları Sistemi |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **İEÖ** | İnkişaf Etmiş Ölkələr |
| **MHBS** | Maliyyə Hesabatlarının Beynəlxalq Standartları |
| **MICROSOFT DGP** | Microsoft Dynamics Great Plains |
| **U.S. GAAP** | Birləşmiş Ştatların Ümumi Qəbul Edilən Mühasibat Uçotu Prinsipləri |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| | **GİRİŞ..........................................................................................** | **8** |
| **I FƏSİL.** | **XİDMƏT SFERASINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN UÇOT-ANALİTİK TƏMİNATININ NƏZƏRİ ASPEKTLƏRİ........................................................................** | **12** |
| 1.1. | İqtisadi təhlükəsizliyin mahiyyəti və xarakterik xüsusiyyətləri....... | 12 |
| 1.2. | İqtisadi təhlükəsizliyin təmin edilməsi sistemində uçot-analitik məlumatların rolu........................................................................... | 21 |
| 1.3. | İqtisadi təhlükəsizliyin təmin edilməsində maliyyə hesabat göstəricilərindən istifadənin beynəlxalq təcrübəsi........................... | 29 |
| **II FƏSİL.** | **İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ KONTEKSİNDƏ UÇOT-ANALİTİK MƏLUMATLARIN FORMALAŞDIRILMASI METODİKASI................................** | **37** |
| 2.1. | Müasir şəraitdə sui-istifadə məlumatları və onların qarşısının alınması metodu.......................................................................... | 37 |
| 2.2. | İqtisadi təhlükəsizliyin təmin olunması şərtlərindən asılı olaraq uçot məlumatlarının ümumiləşdirilməsi metodu........................... | 45 |
| 2.3. | Xidmət sferasında iqtisadi təhlükəsizliyin idarə edilməsi üçün xüsusi bölmənin təşkili................................................................. | 53 |
| **III FƏSİL.** | **İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNDƏ İDARƏETMƏ QƏRARLARININ QƏBUL OLUNMASI ÜZRƏ UÇOT-ANALİTİK MƏLUMATLARIN FORMALAŞDIRILMASI METODİKASININ İNKİŞAFI.......** | **60** |
| 3.1. | İqtisadi təhlükəsizliyin təmin edilməsinin tədbirlər sistemində idarəetmə uçotu........................................................................... | 60 |
| 3.2. | İqtisadi təhlükəsizliyin təmin edilməsinin tədbirlər sistemində vergi uçotu................................................................................. | 69 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................................** | **78** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.......................** | **81** |
| | Cədvəllərin siyahısı.................................................................... | 85 |
| | Sxemlərin siyahısı....................................................................... | 85 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Xidmət sferası üzrə müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mühüm məsələlərdən biridir. Çünki xidmət sferasında fəaliyyətini davam etdirən hər bir müəssisə arasında rəqabətqabiliyyətlilik və antiböhran şəraitində dayanıqlılıq mütləq xarakter daşıyan məsələdir. Müasir dövrümüzdə də iqtisadi təhlükəsizlik məsələsinin bu qədər aktual olmasının səbəbi onun iqtisadiyyat üçün çox vacib amillər hesab edilən iqtisadi inkişaf və dayanıqlılıq anlayışını özündə birləşdirməsidir. Daxili strukturun fəaliyyətinin təşkilində təmin edilməsi qarşıya qoyulan əsas məsələlərdən biri hesab edilməsi iqtisadi təhlükəsizliyin önəmini artırır. Müəssisənin iqtisadi təhlükəsizliyi onun idarəetməsinin bir hissəsi olduğuna görə uçot-analitik təminat baxımından öyrənilir. Müəssisələr səviyyəsində uçot-analitik təminatın inkişafı iqtisadi təhlükəsizliyin təşkilində yüksək formada qiymətləndirilir. İqtisadi təhlükəsizliyin təşkili bilavasitə onunla sıx əlaqədar olması ilə seçilən uçot-analitik məlumatların düzgünlüyünə və etibarlılığına əsaslanır. İqtisadi təhlükəsizliyin vacib amillərindən biri də maliyyə hesabatlarında iqtisadi təhlükələrə yol verməmək üçün beynəlxalq təcrübədən yararlanmaqdır. İqtisadi təhlükə yaratmaq ehtimalı yüksək olan sui-istifadə məlumatları da müəssisə üçün lazımi bir xaraker daşıyır. Uçot-məlumatlarının müəssisə üzrə önəmini bildiyimizdən onların ümumiləşdirilməsi prosesi də aktual məsələlərdən hesab edilməkdədir. Son dönəmlərdə müəssisədə iqtisadi təhlükəsizliyin sistemli idarəsi üçün xüsusi bölməni təşkili vacib nüanslardandır. Mövzunun digər aktual məsələlərindən biri də vergi və idarəetmə uçotu üzrə baş verən hər hansısa təhlükəni önləmək üçün tədbirlər planının aparılmasıdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** İqtisadi təhlükəsizlik və onun uçot-analitik təminatı ilə bağlı olan problemlər: iqtisadi təhlükələrin yanlış analiz edilməsi; idarəetmə sisteminin qeyri-səmərəliliyi, beynəlxalq təcrüblərdən düzgün istifadə edilməməsi, müasir texnologiyaların tətbiqinin reallaşdırılmaması, uçot məlumatlarının ümumiləşdirilməsi üzrə yanlış metodlardan istifadə, hesabatların qeyri-dürüstlüyü, daxili audit və nəzarət sisteminin zəifliyi, sui-istifadə və təhlükələr

önləmək məqsədilə lazımi tədbirlərin görülməməsi, gizli məlumatların qorunmaması və ya sui-istifadə halları; xüsusi şöbənin vəzifələrini düzgün icra edə bilməməsi və s. Problemlərin öyrənilmə səviyyəsi aparılan tədqiqatlar və araşdırmalar, yeni təcrübələr, yerli və xarici müəlliflərin və mütəxəssislərin mövzu haqqında kitabları və fikirləri, internet resursları və bir sıra proqramlar vasitəsilə həyata keçirilir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi- müasir dövrdə müəssisənin iqtisadi təhlükəsizlik sisteminin gücləndirilməsi istiqamətləri ilə bağlı təklif və tövsiyələrin hazırlanmasından ibarətdir. Bundan əlavə iqtisadi təhlükəsizlik prosesinin inkişafı və səmərəli şəkildə təkmilləşdirilməsi, yenilikçi iqtisadiyyatın tərəqqisinin nəzəri şəkildə əsaslandırılmasını, nəzəri əsasların metodoloji xüsusiyyətlərinin öyrənilməsini də bura aid edə bilərik. İqtisadi təhlükələrin müəssisəyə təsirləri və ya hansı şəraitdə əmələ gəlməsini araşdırmaq, müəssisələrdə iqtisadi təhlükəsizliyin uçot-analitik təminatının nəzəri əsaslarının və metodoloji xüsusiyyətlərinin öyrənilməsi, xidmət müəssisələrində nəzərdə tutulmuş maliyyə hesabatları üzrə yarana biləcək problemləri və ya gələcəkdə daha təkmil hesabatların qurulması üçün xarici sınaqların və ya təcrübələrin tətbiqi onun vəziflərinə aiddir. Böyük təhlükə yaradan sui-istifadə halları, Bundan başqa maliyyə hesabatlarında beynəlxalq standartların tətbiq edilməsinin sadələşdirilməsi, xidmət sferasında baş verən hadisə və proseslərin maliyyə, idarəetmə və vergi uçotunda əks etdirən, xidmət subyektlərinin sabit vəziyyətinə təsir edən sui-istifadə halları üçün iqtisadi təhlükəsizlik təhdidlərinin baş verdiyini bildirən nəzarət və tədbirlərin müəyyən edilməsi, müəssisənin iqtisadi baxımdan təhlükəsizliyi üçün idarəetmənin və onun təşkili məsələlərini daha dərindən öyrənmək onun əsas vəzifələri siyahısına daxildir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işinin obyektini müasir mərhələdə xidmət müəssisəsində iqtisadi təhlükəsizlik problemi, predmetini isə müəssisədə iqtisadi təhlükəsizliyinin təmin olunmasının nəzəri, metodoloji və əməli məsələlərinin, habelə onun hüquqi təminatı məsələlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqat metodları:** İqtisadi təhlükəsizliyin araşdırılması və ya məlumat əldə edilməsi məqsədilə ilk öncə müşahidə, sorğu formalı metodları önə çəkirik. Bu tip

mövzuların tədqiqatı üçün təhlil məqsədli metodları dəyərləndirmək daha yaxşı hesab edilir. Haqqında danışdığımız mövzunun tədqiqatı müəssisələr səviyyəsində aparıldığı üçün təhlil metodlarının mikro iqtisadi formasından istifadə edilir. İqtisadi təhlükəsizlik geniş anlayış olduğundan bu sahədə ümumiləşdirmə və kateqoriyaların ayrı-ayrılıqda sadələşdirmək üçün analiz və sintez metodlarından istifadə edilir. İqtisadi təhlükəsizliklə bağlı məsələləri analiz metodu ilə tərəflərə, hissələrə ayırıb araşdırılmasını, sintez metodu ilə vahid bir sistemdə birləşdirilməsini təmin edirik. Mürəkkəb məsələlərin asan təsviri üçün və qarşı tərəfə düzgün çatdırılması məqsədilə sistemli və qruplaşdırma əsaslı metodlardan, tədbirlərdən əvvəl və sonranı öyrənmək üçün müqayisəli təhlil metodundan istifadə edilir.

**Tədqiqatın informasiya bazası:** Həmin mənbələrə ilk növbədə istər yerli, istərsə də xarici müəlliflərin araşdırdığımız mövzu üzrə izaharını, qeydlərini, əsərlərini, məqalələrini nümunə göstərə bilərik. Yalnız müəlliflərin əsərlərindən yox, iqtisadi ekspertlərin internet saytlarında yerləşdirilən fikirləri, müzakirələri də əsas informasiya mənbəyidir. Beynəlxalq təcrübələrin əhatəli formada araşdırılması sayəsində əldə edilən informasiyalar, qeyd edilən təşkiledici işləri həyata keçirmək üçün dövlət və rəsmi orqanların qanunvericilik və normativ aktlara söykənən qərarları da bura aiddir.

**Tədqiqatın məhdudiyyətləri:** Müəssisələr üzrə uçot məlumatlarının praktiki iqtisadi həyat üçün əhəmiyyəti və iqtisadi siyasətin məqsədləri üçün faydası barədə hakim olan bir anlayışın olmaması, nəzəri təhlil və konkret şərtlərə tətbiqi ilə bağlı bir çox həll olunmamış problemlərin olduğunu göstərir. Tədqiqatın məhdudiyyətləri onun daha geniş praktiki informasiya tələb etməsidir. Bəzən mütəxəssislər xüsusi bölmə üzrə doğru yanaşma haqqında konkret bir təklif verə bilmir və fərqli fikirlər yaranır. Bundan başqa bu barədə qeyd edilən nəzəriyyələrin müzakirələri uzun çəkdiyindən mövzu ilə bağlı məhdudiyyətlərə gətirib çıxara bilər.

**Tədqiqatın elmi yeniliyi:** Apardığımız tədqiqatın dissertasiya işi üzrə elmi yeniliyi iqtisadi təhlükələrin azaldılması üçün uçot ümumiləşdirilməsi metodu və onun yenilənməsi, avtomatlaşdırılmış metodlardan, bir sıra komputer proqramlarından - AUMS, Dynamics GP-dən istifadə, gələcək dövr üzrə analitik

uçot kodlarından istifadə, təhdidlərin qarşısını kəsmək və ya vurduğu ziyanı azaltmaq üçün elektron monitorinqin daxil olduğu yeni tədbirlər planı, avtomatik izlənilən nəzarət proqramları, MHBS-nin yeni təcrübələri, idarəetmə və vergi uçotu üzrə təşkil edilən tədbirlər planında yeni elmi naliyyətlərin tətbiqi nəzərdə tutulur.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Bu cür nəticələr əsas xidmət sahələrindən hesab edilən bank sektoru üzrə idarəçilik şöbələrində tətbiq etmək mümkündür. Konsoltinq və ya ticarət fəaliyyəti ilə məşğul olan şirkətlərdə istər vergi məsələləri, istərsə də idarəetmə uçotu üzrə işlər zamanı nəticələrin tətbiqinə şərait yaradılır. Bank, sığorta, turizm, qida, mühasibatlıqla bağlı olan xidmət müəssisələrində də əldə etdiyimiz son nəticələri, yəni tədbirlər və ya nəzarət planlarının təşkili məsələlərinə müsbət yanaşılır. Müəssisənin iqtisadi mənafelərinin qorunması, müəssisə səviyyəsində proqramların tətbiq edilməsi nəticəsində uçot-analitik məlumatlardan geniş istifadəyə şərait yaradılması, xarici təcrübələrin yerli idarəetmədə tətbiqi sayəsində müəssisələrin verdiyi hesabatların daha təkmilləşməsi və optimal olması, müəssisənin əsas fəaliyyətinin səmərəli təşkili üçün metodlardan istifadə edərək uçot məlumatlarının sistemləşdirilməsi, tədbirlər hesabına xarici və daxili təhdidlərin aşkar edilməsi və problemlərin həllinə gətirib çıxarılması onun praktiki əhəmiyyətləridir.

# FƏSİL I. XİDMƏT SFERASINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN UÇOT-ANALİTİK TƏMİNATININ NƏZƏRİ ASPEKTLƏRİ

## 1.1. İqtisadi təhlükəsizliyin mahiyyəti və xarakterik xüsusiyyətləri

İqtisadi təhlükəsizlik anlayışı dünya miqyasında götürüldüyündən geniş və ciddi məsələ hesab edilir. Amma qəbul etməliyik ki, iqtisadi təhlükəsizlik anlayışı bazar iqtisadiyyatının müasir tənzimlənmiş dövrünə qədər az işlənmişdi. İqtisadi təhlükəsizlik məsələsi bizə illərdir məlum olan iqtisad elminin müəyyən hissəsini təşkil edir. İqtisadi təhlükəsizlik həm müəssisədaxili, həm də müəssisəxarici iqtisadi münasibətləri özündə birləşdirir. Təbii hamıya aydındır ki, bazar iqtisadiyyatında yaşadığımız dövrdə əsas məqsəd mənfəət qazanmaqdır. Müəssisə bu fəaliyyəti təmin etmək üçün özünü xaricdən gələ biləcək təhlükələrə və təhdidlərə qarşı qoruyur. İqtisadi təhlükəsizlik müəssisənin həm maraqlarını, həm də təhlükəsizliyinin təşkil edilməsində böyük rol oynayır.

Birinci qrup müəlliflərindən Abalkin Y.J. iqtisadi təhlükəsizliyi müəssisəni xarici və daxildən baş verə biləcək təhlükələrdən qoruyan şərtlərin məcmusu kimi qeyd edir. İkinci qrup müəlliflərindən Sençaqov U., Quraan Q. iqtisadi təhlükəsizliyi müəssisənin ən mühüm və vacib mənafelərini müdafiə etməsi ilə bağlayırlar. Üçüncü qrup müəllifləindən Qoçodeski A. və Arxipov A. isə iqtisadi təhlükəsizliyi bilavasitə tələbatların optimal şəkildə ödənilməsini təşkil edən fəaliyyət kimi nəzərdə tuturlar.

Müəssisənin iqtisadi təhlükəsizliyi müəssisənin effektiv işləməsi, mənfəət əldə etməsi, iqtisadi vəziyyətin optimal formada qiymətləndirilməsi kimi məsələləri özündə ehtiva edə bilər. Son dövrlərdə qlobal böhranların, sanksiyaların çoxluğu müəssisələrdə iqtisadi təhlükəsizlik anlayışını daha da dərinləşdirir. Müəssisənin iqtisadi təhlükəsizliyinin mahiyyəti və ya xarakterik xüsusiyyətlərinin hər biri onun indiki və ya gələcək üzrə hədəfləri və vəzifələri ilə əlaqəlidir. Çünki xarakterik xüsusiyyətlərin tərkibi istər onların kəmiyyəti baxımından, istər dəyişiklikləri və ya həssaslıqları baxımından, istərsə də göstəricilərin funksionallığı baxımından olan

məsələləri özündə birləşdirir. (Киселева И.А., Симонович Н.Е. və Косенко И.С., 2018: с. 415-416)

Müəssisə iqtisadiyyatının daxili və xarici proseslərə qarşı dayanıqlı olması birbaşa onun iqtisadi təhlükəsizliyi ilə əlaqədardır. Dayanıqlılıq və inkişaf amilləri iqtisadi təhlükəsizliyin dinamik bir prosesidir və zamanla əlaqəli olduğundan müəyyən müddət ərzində dəyişikliyə məruz qala bilərlər. İqtisadi təhlükəsizliyin mahiyyəti müəssisənin maraqlarını zəmanətli şəkildə müdafiəsi, iqtisadi, daxili və xarici bazarların vəziyyəti, onların inkişafı şəklində təyin edilir. İqtisadi təhlükəsizliyə statistik cəhətdən baxılır. Amma biz onun hərəkətsiz bir proses olduğu anlayışına gələ bilmərik. İqtisadi təhlükəsizlikdə hərəkətin mütləq anlayış olduğunu onunla əlaqələndirə bilərik ki, o hər zaman dəyişilməz olaraq göstərilir. Müəssisə üzrə iqtisadi təhlükəsizliyin mahiyyəti müəssisə iqtisadiyyatının qurulması və inkişafına kömək etmək və nəticədə vətəndaşların sosial və iqtisadi ehtiyaclarını yüksək səviyyədə ödəmək, göstərilən fəaliyyət üzrə səmərəliliyi artırmaq, ölkənin təbii sərvətlərindən düzgün və qənaətlə istifadə etməklə həm müəssisə, həm də iqtisadiyyatı formalaşdırmaq və problemin gərginləşməsinin qarşısını almaqdır.

Aşağıda da qeyd edildiyi kimi iqtisadi təhlükəsizliyə bir çox yanaşmalar olur. Bu yanaşmalar onun strukturu və iqtisadi idarəçiliyi əsasında təşkil edilir. Mahiyyətləri də müəssisə səviyyəsində izah edilir və onun təhlükəsizliyi üzrə vəzifələrini göstərir.

**Cədvəl 1: Müəssisənin iqtisadi təhlükəsizliyinə yanaşmalar**

| Yanaşma adı | Yanaşmanın mahiyyəti |
|---|---|
| Sistemli | Müəssisənin fəaliyyəti hesabına nəticələrin təmin edilməsi üçün tədbirlər sistemi, faktlar hesabına idarəetmə qərarlarının sistemi |
| Mənbə | Resurslardan optimal istifadə hesabına tarazlığın təşkili |
| Məlumat və qanuni | Məlumatlar hesabına iqtisadi təhlükəsizliyin düzgün təşkili və hüquqi nəticələri |
| Təşkilati | Müəssisənin səmərəliliyinin təmini üçün metodlardan istifadə |
| Risk | Riskin şərtlərini və təsirlərini dəyərləndirmək |

**Mənbə**: Ширко Л.М., *"К вопросу о сущности экономической безопасности предприятия"*, 2020: с.1558

Son illərdə xidmət sferası müəssisələri hesab edilən bank, sığorta, turizm, ticarətin bir sıra sahələri ilə məşğul olan sektorlar, mühasibatlıq xidməti ilə məşğul olan müəssisələrdə qloballaşma prosesi nəticəsində baş verən struktur dəyişiklikləri hesabına iqtisadi təhlükəsizlik anlayışına milli iqtisadiyyatı və onun digər aparıcı sahələrinin rəqabət qabiliyyətliliyinin təşkili kimi mühüm əlamət də daxil etmişlər. İqtisadi təhlükəsizlik çox vacib daxili struktura malikdir və bu strukturda üç xüsusi bəndi qeyd etmək olar: bütün kateqoriyalarda iqtisadi təhlükəsizliyinin əsas araşdırılan və tədqiq edilən obyekti; əmtəə və xidmətlərdən yaranan gəlir və xərclər; başqa mikroiqtisadi göstəricilər;

Müəssisədə iqtisadi təhlükəsizliyin mahiyyəti birbaşa baş verən təhdid və ya təhlükələrlə, edilən risklərlə, qeyri-müəyyənliklə, iqtisadi maneələrlə, yanlış düşünülən və ya hazırlanan planlarla, ehtimallarla, məhdudiyyətlərlə və s. bağlıdır. Əlbəttə ki, buraya idarəetmə ilə əlaqədar baş verən təhlükələri, mənfəətlə bağlı itkiləri də aid edə bilərik. Bu cür xarakterik xüsusiyyətlərin arxasında həmişə iqtisadi fəaliyyətlər, iqtisadi təhlükəyə səbəb olan proseslər, bir sıra iqtisadi maraqlar və s. durur. (Моденов А. К., Белякова Е. И. və Власов М. П., 2019: c. 57-59)

Deməli, iqtisadi təhlükəsizliyin mahiyyəti sistemin kriteriya və göstəricilər sistemində reallaşdırılır. İqtisadi təhlükəsizliyin kriteriyaları arasına indikator, parametr, indeks, son hədd anlayışları daxil edilir.

İndikator iqtisadi sistem üzrə proqnozlaşdırılma anlayışını özündə birləşdirir. Bu anlayışdan tələb və təklif üzrə baş verə biləcək dəyişikliklər nəticəsində hadisələrin öyrənilməsində istifadə edilir. Müəssisənin iqtisadi təhlükəsizliyini təşkil etmək üçün onun indikatorunu araşdırıb tapılması vacibdir. Bunun üçün bir sıra üsullardan istifadə edilir:

- müəssisənin zərərə getməsinin müəyyən edilməsi;
- inkişafına şərait yaradan parametrlərin öyrənilməsi;
- onun vətəndaşlara göstərdiyi xidmət qabiliyyətinin aşağı düşməsindən sonra vəziyyətin pisləşməsinin qarşısını almaq üçün bərpa edilmə fəaliyyətinin təşkili;

- göstərilən xidmət qabiliyyətinin aşağı düşməsinə şərait yaradan qeyri bərabər sabitiyin aradan qaldırılması;
- müəssisənin aktivinin pula çevrilmə qabiliyyəti;

Parametr müəssisədə iqtisadi təhlükəsizliklə bağlı hadisələrin mühüm xassələrinin kəmiyyətini aydınlaşdıran anlayışdır. İndeks isə istənilən bir iqtisadi təhlükəylə bağlı hadisənin ardıcıl şəkildə baş verə biləcək dəyişikliklərini faizlə ifadə edən göstəricidir. Bu kateqoriyada öncəki dövrün göstəricisi vacib götürülərək baza kimi qəbul edilir və indiki göstəricini onunla müqayisəsi aparılır. Son hədd kateqoriyası da iqtisadi təhlükəsizliyin əsas hissələrindən birini təşkil edir. Əslində son hədd anlayışı iqtisadiyyatın və başqa sahələrin təhlükəyə nə qədər yaxınlaşdığını göstərir. İqtisadi təhlükəsizliyə aid edilən anlayışlardan biri də amildir. Bu anlayış iqtisadi təhlükəsizlik zamanı müəssisə üzrə mənfi və müsbət təsirlərin nəyə görə baş verdiyini izah edir.

Kriteriya ilk növbədə, hər hansı hadisəyə qiymət vermək məqsədilə vacib hesab edilən əlamətdir.

**Sxem 1: Müəssisənin iqtisadi təhlükəsizliyinin kriterial qiymətinin prinsipi**




**Mənbə:** Məmmədov N.M., Bərxudarov M.İ., (2006), "İqtisadi Təhlükəsizlik", s.178 istifadə edilərək müəllif tərəfindən hazırlanmışdır.

Saydığımız və araşdırdığımız kriteriyalara baxdıqda o nəticəyə gəlirik ki, iqtisadi təhlükəsizliyin yaradılması zamanı ən vacib və mühüm şərt davamlı, dözümlü iqtisadi inkişafa söykənməkdir. Bu kateqoriyadan, yararlandığımız zaman iqtisadi təhlükəsizliyin alternativi seçilir. Hadisələr və obyektlər təhlil edilir və ən səmərəlisi qəbul olunur. Əlamət tədqiq edilən prosesin xüsusiyyətlərini

səciyyələndirən anlayışdır. Əlamət iqtisadi təhlükə yarada biləcək hadisələrin kəmiyyət və keyfiyyət baxımından özünü göstərə bilməsidir. Bank və sığorta kimi xidmət müəssisələrində baş verən iqtisadi təhlükə əksər hallarda idarəetmə ilə bağlı olur. Belə ki, yanlış formada idarəetmə zamanı müəssisədə gələcəkdə baş verə biləcək iqtisadi təhlükəyə zəmin yaranır.

İqtisadi təhlükəni yaradan əsas proseslərdən biri kimi də, müəssisələr üzrə tətbiq edilən risklərdir. Bu risklər bəzən böyük iqtisadi çətinliklər yaradır. Belə risklər xidmət fəaliyyəti göstərən müəssisələrdə daha çox investisiya layihələrini həyata keçirən zaman baş verə bilər. İnvestisiya layihələri üzrə riskləri təsnifatlaşdırılan zaman rəhbər tərəfindən əsas məqsəd gəlir əldə etməkdir. Ancaq bəzən elə olur ki, hazırlıq mərhələsi zamanı təşkil etdiyimiz layihədə gözlənilən mənfəətə qarşı mənfi təsirlər formalaşır. Həmin mənfi təsirlər və ya müdaxilələr elmi adla desək iqtisadi təhlükə sistemi altında birləşir. Beləliklə, proqnozlaşdırılan mənfəət baş verə bilən iqtisadi təhlükədən dolayı əldə edilə bilmir. Təbii ki, burada problem yaradacaq əsas məsələ müəssisə üzrə rəhbərlik edən şəxsin dövrün sonunda əvvəlcədən proqnozlaşdırdığı mənfəəti ala bilməməsindən yaranır. (Məmmədov N.M., Bərxudarov M.İ., 2006, s.327)

Bu günə qədər öyrəndiyimiz iqtisadi biliklər zamanı istər təşkilat, istərsə də müəssisədə onun bazardakı mövqeyini, kombinasiyalı idaredilməsini, bazar imkanlarının təşkilində yaranan çətinliklərdən və bu çətinkilər zamanı necə davranılmasını müxtəlif metodlar vasitəsilə öyrənmişik. Belə ki, aparılan təhlil hesabına müəssisənin idarəsi zamanı müsbət və mənfi cəhətlərin, gələcək üzrə proqnozlaşdırılan potensial iqtisadi təhlükələrin və onların baş vermə səbəblərindən biri də rəqabətqabiliyyətlilik məsələsi hesab edilə bilər. Rəqabətqabiliyyətlilik zamanı normativ parametr hesab edilən beynəlxalq standartlarda təhlükəsizlik üzrə göstəricilər də daxil olur.

Yuxarıda qeyd etdiyimiz xidmət sferası müəssisələrində iqtisadi təhlükəsizliyin mahiyyətini iki spektr baxımından aydınlaşdırmağımız daha məqsədəuyğun hesab edilir.

1) Birinci baxımdan iqtisadi təhlükələrə hər hansısa bir hipotetik təsir yox, təhdid kimi yanaşılmasıdır.

2) İkinci spektr isə artıq müəssisənin iqtisadi təhlükələrdən necə müdafiə olunmasını özündə əks etdirir.

Çünki ikinci yanaşma artıq bazar mühitini, rəqabəti, iqtisadi şərtləri, müəssisəyə daxildən və xaricdən gələn təsirləri müəyyən edir, onların qarşısını almağa çalışır. Müəssisə üzrə baş verən iqtisadi təhlükələr gözlənilməyən bir anda, qısa müddətdə yaranmır, ilk növbədə onun üçün müəyyən dövrdə obyektiv zəmin yaranır və onun qarşısı tez alınmazsa, böyük təhlükə mənbəyinə çevrilir.

Müəssisə özəlliklə xidmət sektoru üzrə fəaliyyət göstərirsə, iqtisadiyyatının davamlı və dayanıqlı tərəqqisini təmin etmək məqsədilə inkişaf prosesində qarşıya çıxan problemlərin həllini vaxtında tapmalıdır. Əgər problemlər üzrə həll tapılmazsa bu müəssisənin iqtisadi inkişafına zərər vurar və onun üçün iqtisadi təhlükəyə çevrilər. Bu məsələlər birdən birə yox, növbəli şəkildə həll edilməli və yüksəliş mexanizmi ilə izah edilməlidir. Yuxarıda iqtisadi təhlükəsizliyin bir neçə kateqoriyasını gördük. Bu kateqoriyaların bizdən tələb etdiyi əsas məsələ ondan ibarətdir ki, müəssisə üzrə aparılan kəmiyyət və keyfiyyət səviyyələri ya digər müəssisələr üzrə, ya da dünya səviyyəsində müqayisə edilsin və müəssisənin iqtisadi təhlükəsizliyini yaradan bir iqtisadi sistem formalaşdırsın.

İqtisadi təhlükəsizliyin keyfiyyət əlamətlərinə görə göstəriciləri**:**

- İqtisadi obyektin inkişaf səviyyəsi;
- Göstəricinin əhəmiyyətlik dərəcəsi;
- Təhlükənin təsir dövrü və proqnozlaşdırılması;
- Təhlükənin təsir istiqaməti;
- Təhlükənin xarakteri və miqyası;

Əlbəttə iqtisadi təhlükəsizliyin göstəriciləri içərisində son hədd göstəricisini şişirtməyin səbəbi onunla bağlıdır ki, o iqtisadi təhlükəsizliyə qarşı olan mənfi təsirləri ön plana çıxardır və proqnozlaşdırma zamanı iqtisadi inkişafa nəzarət edə bilir.

Müəssisənin iqtisadi təhlükəsizliyinin məqsədlərinə iqtisadi mənbələrin təşkili, strateji və taktiki məsələlər, onların formalaşması, planların qurulması, müəssisəyə məxsus göstəricilərin təhlükəsizliyi, analizi kimi prinsiplər daxil edilir. O da müəssisənin təhlükəsizlik sistemi üçün hədəf rolunu oynayır. Vəzifələr hissəsinə isə qanuni mənafelərin qorunması, məlumatların toplanması, qiymətləndirilməsi, müəssisəyə kənardan edilə biləcək mənfi təsirləri müəyyən olunub, aradan qaldırılması, məxfi informasiyaların qorunması, təkmilləşmiş idarəetmənin qurulması və s. məsələlər aiddir. (Касперович С.А., Дербинская Е.А., 2016: с. 278-280)

İqtisadi təhlükəsizliyi müəssisə səviyyəsində təmin edərkən yeddi istiqamət ön plana çəkilir. Müəssisə rəhbərliyi iqtisadi təhlükəsizlik sisteminin qurarakən həmin istiqamətlərin müəssisə üzərində təsirinə mütləq fikir verir.

**Sxem 2: Müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin istiqamətləri**




**Mənbə:** Məmmədov N.M., Bərxudarov M.İ., (2006), s. 246 istifadə edilərək müəllif tərəfindən hazırlanmışdır.

Onlar bir-birilə sıx əlaqədə olmasına baxmayaraq yerinə yetirilən funksiyalarına görə bir-birindən əhəmiyyətli formada fərqlənirlər. İqtisadi təhlükəsizliyin təmini zamanı bu istiqamətlər hər biri bir nöqtədə birləşir. İqtisadi təhlükəsizliyin ən mühüm hissəsini maliyyə təhlükəsizliyi təşkil edir: Maliyyə

təhlükəsizliyinin tərkibi: alıcılıq qabiliyyəti göstəriciləri; maliyyə sabitliyi göstəriciləri; işgüzar fəallıq göstəriciləri; rentabellik göstəriciləri;

Alıcılıq qabiliyyəti yüksək olan müəssisə həm maliyyə, həm də iqtisadi şəkildə inkişaf edən müəssisələrə aid edilir. Biz buraya istər aldığı krediti vaxtında ödəmə, istərsə də maliyyə təhlükəsizliyi üçün xarakterik olan kapitalı qorumaq dərəcəsini xarakterizə edə bilərik. Ümumilikdə təhlükəsizlik göstəricilər zamanı istismar halında təhlükəsizliklə bağlı olan dərəcələr qiymətləndirilir. Bu tip təhlükəsizlik göstəriciləri birbaşa maliyyə sabitliyi ilə əlaqədar olur. Digər göstərici olan işgüzar fəallıq isə əsas və dövriyyə kapitalının dövriyyə surəti ilə ölçülür. Müəssisədə fondların tərkibində öhdəlik hissəsinin nisbətən yüksək qeyd edilməsi iqtisadi tərəfdən yanaşıldıqda qeyri sabitliyə, son prosesdə isə alıcılıq qabiliyyətinin səviyyəsinin enməsinə səbəb olur. Müəssisənin nizamnamə kapitalı, yığım fondu və digər maliyyə mənbələri mövcuddur. Bu mənbələrdən hər hansı biri hesabına maliyyə vəsaitini artırması onun iqtisadi və maliyyə şəkildə sabitliyinə zəmin yaradır. Bunun nəticəsində də müəssisənin kredit borclarının səviyyəsi aşağı düşür. Müəssisənin aktivi isə nisbətən fərqlidir, yəni dövriyyə surəti ilə əlaqədar olduğundan, dövriyyə surəti yüksəldikcə daha səmərəli bir vəziyyətə gətirib çıxarır. Müəssisənin maliyyə təhlükəsizliyi üzrə xüsusiyyətlərindən olan rentabelik göstəricisi onun mülki vəsaiti, xidmətlə əlaqəli fondların xarekteristikası, qısa və uzun müddətə qoyulan investisiyaların həcmi, mənfəət norması ilə hesablanır. (Məmmədov N., Bərxudarov M., 2006, s.242)

Müəssisənin iqtisadi təhlükəsizliyi cari vəziyyətdən ən səmərəli şəkildə istifadə edilmə vəziyyətidir. Belə olduğu halda müəssisə üçün təhlükə aradan qalxır və o davamlı şəkildə, sabit olaraq fəaliyyət göstərir. Müəssisə üzrə təhlükəsizliyin hər bir istiqaməti onun funksional vəziyyətini göstərir. Ümumilikdə desək, iqtisadi təlükəsizliyin bir neçə istiqaməti mövcuddur ki, onlar öz funksiyalarına görə fərqlənirlər. Məsələn, bura aid edilən maliyyə, texnoloji, siyasi, ekoloji və digər istiqamətlər iqtisadi təhlükəsizliyin təşkilində müxtəlif funksiyaları görür.

Müəssisənin iqtisadi təhlükəsizliyinə təsir obyektiv və subyektiv mənbələrdən yarana bilər. Obyektiv mənbədən yaranan mənfi təsir zamanı müəssisənin iştirakı

olmur və o müəssisədə işləyən fəhlələrin və digər şəxslərin fikirlərindən asılı olmur.Subyektiv mənbədən yaranan mənfi təsir əsasən müəssisənin qeyri stabil, yəni səmərəsiz şəkildə işləməsi və ya ediləsi lazım olan xidmətlərin düzgün aparılmamasından yaranır. Müəssisənin iqtisadi təhlükəsizliyinin təşkil edilməsinin vacib məqsədi cari dövrdə və gələcəkdə müəssisənin inkişafını və iqtisadi potensialını yüksəltməkdir.

Müəssisənin iqtisadi təhlükəsizliyini səmərəli şəkildə təşkili üçün aşağıdakılara diqqət edilməlidir:

- müəssisənin dayanıqlı maliyyəsinin və onun heç bir müəssisədən asılı olmamasının təşkili;
- müəssisədə müasir dövrün texnoloji asılılığının qarşısını almaq, öz texnoloji potensialını yüksəltmək;
- idarəetmənin yüksək optimallığı;
- müəssisə üzrə fəaliyyət göstərən işçilərin və ya rəhbər heyəti təşkil edən şəxslərin ixtisaslarının artırılması;
- informasiya qorunmasını təmin etmək;
- işçilərin təhlükəsizliyinin təmin edilməsi;

Dünya müəssisələri bizdən fərqli olaraq iqtisadi təhlükəsizlik haqqında hələ XX əsrin əvvəllərində tanış olublar. Ona görə də həmin müəssisələrdə iqtisadi təhlükəsizlik sisteminin daha təkmil formalarının öyrənilməsi və tətbiq edilməsi məntiqəuyğundur. Azərbaycan uzun müddət ərzində inzibati amirlik dövründə olduğundan müasir zamanda müəssisələrdə iqtisadi təhlükələr haqqında geniş məlumata malik deyillər. Amma buna baxmayaraq müstəqilliyimizdən sonra artıq hər bir xidmət sferası müəssisələrində iqtisadi təhlükəsizliyə geniş yer verildi. Artıq xidmət sferası müəssisələrinin hər biri iqtisadi təhlükəsizliyin onlar üçün nə demək olduğunu yaxşı anlayırlar. Yerli banklar, sığorta və turizm şirkətlərinin idarəçiliyində iqtisadi təhlükəsizlik sistemi iqtisadi inkişaf, fasiləsizliyin təmini və müəssisə həcminin genişlənməsi məsələsi baxımından böyük anlama gəlir. Bu da müəssisələrin iqtisadi təhlükəsizliyinin quruluşu və gələcək inkişafına şərait yarada bilər.

## 1.2. İqtisadi təhlükəsizliyin təmin edilməsi sistemində uçot-analitik məlumatların rolu

Uçot-analitik məlumatlar bir sistem kimi birinci mühasibat məlumatlarının, ikinci idarəetmə sisteminin, üçüncü qəbul ediləcək qərarların müəyyənləşdirilməsinə kömək edir. Belə ki, uçot-analitik məlumatlar əməliyyat, statistik, texniki göstəricilərlə bağlı məlumatları özündə birləşdirir. Bu da iqtisadi təhlil üçün kömək rolunu oynayır. O idarəetmə sisteminin dəyişilməz tərkib hissəsidir. Hətta mikroanaliz zamanı tövsiyələr verilməsində kömək edir. Planlaşdırma, qərar qəbuletmə zamanı da ön plana çıxır. Uçot-analitik məlumatlar müəssisənin iqtisadi əməliyyatlarını apardığı şöbəsində formalaşır.

Əldə olunan uçot-analitik məlumatlar hesabına müəssisənin daxili hesabatlarında aparılan fəaliyyətlərin qiymətləndirilməsi, qərarların verilməsi kimi məsələlərə zəmin yaranır. Uçot-analitik məlumatlar müəssisədə uçot və analitik modellərdən istifadə hesabına inteqrasiya olunmuş informasiya kimi göstərilir. Bundan əlavə uçot-analitik məlumatlardan düzgün formada istifadə, bizə aşağıdakı üstünlükləri qazandıra bilər: sistemlə əlaqəli səhvlərin azalması və ya aradan qaldırılması; aparılan hər bir iqtisadi fəaliyyət zamanı nəticələrin dəqiq olması; müəssisədəki bütün iqtisadi əməliyyatların hər bir aspektinin göstərilməsi; hər bir göstəricinin uçot metodikasına uyğun aparılması; (Иванов Е.А., 2014: с.162-165 )

Qeyd edək ki, uçot-analitik məlumatlar və ya onlar hesabına təşkil edilən sistem müəssisəyə edilə biləcək təsirlərin, təhdidlərin, təhlükələrin qarşısını kəsmək üçün müəssisənin idarəedici prinsipləri nəticəsində qəbul edilən və uçotla birbaşa əlaqə təşkil edən analitik, uçot və audit kimi məlumatları özündə birləşdirən məcmudur. Uçot-analitik məlumatlar müəssisədə hər hansısa bir uçot üzrə göstərilən hesablarda saldonun və ya dövriyyənin sonunu, daha dəqiq yekun üzrə son nəticələri özündə əks etdirə bilər. Bu cür məlumatlar, müəssisənin fəaliyyətinin analitik əsaslarla dəyərləndirilməsi üçün də nəzərdə tutulmuşdur. Deməli, buradan da aydınlaşdırmaq olar ki, uçot-analitik hesabların əks etdirilməsi kəmiyyət, yəni pul baxımından aparılır.

İdarəetmə ilə bağlı olan hər bir mərhələ vahid sistem üzrə əlaqələndirilir. Bunun hesabına da müəssisədə uçot-analtik məlumatların kompleks istifadəsi yaranır. Nəticədə müəssisənin idarəetmə sistemində fəaliyyətin optimallığı təşkil edilir.. Müəssisə üçün vacib rol oynayan daxili idarəetmə strateji qiymətləndirmə, həqiqi nəticələrin əks etdirilməsi, iqtisadi təhlükəsizliyin müəssisə səviyyəsində dəyərləndirilməsi, şirkətdə stabilliyi poza biləcək hər hansısa təsirləri müəyyən etməkdə və onun effektiv formada təhlilinin və planının aparılması kimi faktlarda özünü bir iqtisadi model kimi biruzə verir. (Зaремба E.M., 2015: c.46–52)

Uçot-analitik məlumatlar müəssisənin hesabatları üzrə mürəkkəb bir sistem təşkil etdiyindən mütəxəssislər onu iki kateqoriya üzrə bölməyi məsləhət görürlər.

**Sxem 3: İqtisadi təhlükəsizliyin uçot analitik hesablarının növləri**




**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Yuxarıdakı hər iki uçot-analitik hesabların qurulmasına təsir edən amillər: kredit borclarını sistemli və kompleks formada idarə etmək üçün idarəetmə uçotu və təhlili; məlumatın həqiqətə uyğunluğuna zəmanət verə bilən mühasibat uçotu tələbləri; vergi uçotu üzrə əsaslı tələblər; əməliyyatlar üçün statistik göstəricilərin tərtib edilməsi;

Uçot-analitik məlumatların əhəmiyyətli olmasının səbəblərindən biri də onun xidmət sferası müəssisələrindən bank, turizm təşkilatlarının idarəedilməsi üçün vacib ola biləcək dörd aspektə əməl etməsi və özündə birləşdirməsidir. Birinci aspekt hədəf - bu aspekt hesabına uçot-analitik məlumatlar müəssisənin idarəsi, qərarların icrası kimi etibarlı məlumatların, ikinci aspekt eyniləşdirmə - artıq birbaşa müəssisənin analitik fəaliyyəti ilə bağlı olan məlumatların istifadəsidir. Üçüncü

aspekt komponent - həmin uçot-analitik məlumatları ideal informasiyalar əsasında təşkil edir. Dördüncü aspekt amil - adekvat sistem yaradılması hesabına məlumatların dəyər konsepsiyasına uyğunluğunun təmin edilməsidir. Bank sektoru və yaxud mühasibatlıq məqsədilə xidmət göstərən bir sıra müəssisələrdə uçot-analitik təminatın nə qədər önəmli olmasını aşağıdakı prinsiplərdə demək mümkündür: istər xidmətdə, istərsə də biznesdə analitik mühasibatlıq və ya analitik uçot müəssisənin menecmentinin maliyyə strukturuna aid edilir; müəssisə üzrə bir işə necə, nə zaman və nə üçün pul xərclənməsi və ya pulların alınması məsələləri hesabatlarda və uçotda qeyd edilir; uçot-analitik məlumatlar, xidmət müəssisələrinin büdcə və maliyyə hesabatlarının təşkilini yaxından izlədiyindən izah etdikləri oxşar maliyyə ölçülərindən bir çoxunu istifadə edir; uçot-analitik məlumatların vəzifəsi hesabları sistemləşdirmək yox, maliyyə göstəriciləri üzrə məlumatları bir analitikin sorğu-sualları əsasında bir neçə həll yolu ilə göstərməsidir;

İqtisadi təhlükələri azaltmaq üçün uçot-analitik məlumatlardan istifadə səbəbləri - müəssisələr bir sıra məsələlərə görə uçot-analitik sistemindən istifadə edirlər. Bunların hər biri qərar qəbul edilməsi proseslərinə yardım etmək üçün verilən əlavə məlumatlara əsaslanır. Əsas vəzifə müəyyən zaman kəsiyində yaranan xərcləri azaltmaq üçün müəyyənləşdirilir. Bu yol həm müvəqqəti, həm də qeyd edilən gəlir artımını hesablamaq məqsədilə faydalı bir yoldur. Hətta, ideal ssenaridə bir müəssisə ondan layihə xərclərini azaltmaq, layihə gəlirlərini dəqiqləşdirmək və rəqabət üstünlüyü əldə etmək üçün istifadə edilir. Müəssisə sahibləri bunu nəzərə alaraq məlumatlardan strateji qərarlar qəbul etmək üçün istifadə etməlidirlər. (Hartman D., 2018, p.5)

Müəssisədə iqtisadi təhlükəsizlik üzrə rəhbər heyət tərəfindən istifadə edilən ən vacib nüanslardan biri uçot-analitik məlumatlardır. Həmin şəxslər bu informasiyalar hesabına müəssisə üçün önəmli rol oynayan iqtisadi təhlükəsizliyi müəyənləşdirərkən müəssisənin büdcəsi, kapitalı, digər müəssisələrə və yaxud öz personalına xidməti öhdəlikləri haqqında məlumatları verə bilərlər. Bu məlumatlardan istifadə edərək təşkilatın ayrı-ayrı sahələrində iqtisadi təhlükələrin həm göstəricilərini, həm də səviyyələrini qiymətləndirmək mümkün hesab edilir.

Əlavə olaraq digər müəssisələrlə iş əlaqələrinin qurulması, daxili xidmətlərin fəaliyyəti, maliyyə sabitliyinin təşkili zamanı o məlumatlardan istifadə edilir.

Bu məlumatların əsas üstünlüklərindən biri də iqtisadi təhlükəsizliklə bağlı olan müşahidə xüsusiyyətindəki tələbi uğurla yerinə yetirməsidir. Məhz onun hesabına uçot – analitik məlumatlar həqiqətə uyğun olması ilə seçilir və iqtisadi təhlükələrin faktiki durumunu izah edir. Belə şəffaflığa söykənən, etibarlı bir məlumatlar toplusu istənilən bank və sığorta şirkətləri üçün arzuolunan, əhəmiyyətli bir göstəricidir. Uçot-analitik informasiyalar hesabına iqtisadi təhlükəsizliklə əlaqədar hər bir göstəricinin və prosesin arasındakı fərqləri, onun aradan qaldırılması üçün irəli sürülən məqsədləri, iyerarxik sistem üçün məlumatları aydın formada öyrənmək mümkündür. Uçot-analitik məlumatlar iqtisadi təhlükəsizlik üçün kəmiyyət, keyfiyyət məlumatlarının, sistemin təkmiləşdirilməsi üçün istifadə edilən metodlar barədə məlumatları, müəssisədə təhlükəsizliyin iqtisadi baxımdan gücləndirilməsinin önəmi ilə əlaqədar məlumatları, tövsiyələri, onun təşkili üçün məqsədləri və təhlükələrin strukturunu araşdırıb tapmaqla əldə etdiyi məlumatları müəssisənin gələcəkdəki sağlam fəaliyyəti üçün önəmli bir hal hesab etmək mümkündür. O iqtisadi cəhətdən yüksək formada inkişaf edən müəssisələrin daxili idarəetməsində daha çox istifadə edilir.

**Sxem 4: İqtisadi təhlükəsizliyin inkişafının uçot-analitik məlumatlarda rolu**




**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Məsələn zəif inkişaf etmiş və ya uçot-analitik məlumatları düzgün şəkildə əks etdirilməyən bankların mühasibatlıq hesablarında və göstəricilərində bir sıra problemlər olacaq. Bu problemlər müəssisə üçün haqqında danışdığımız iqtisadi

təhlükələrə gətirib çıxarır. Uçot-analitik məlumatların iqtisadi təhlükə yaradacaq aspektləri nəğd pul və analitik hesablarla əlaqəli göstəricilərdir. Bu məsələni iki aspektdə verməyimizin səbəbi də birbaşa iqtisadi təhlükəsizliklə bağlı olmağına görədir. Çünki hər bir müəssisədə uçot-analitik məlumatların olmasına və bir sistem halına salınmasına şübhə yoxdur. Sadəcə əsas məsələ məlumatların düzgün formada əks etdirilib, etdirilməməsi ilə bağlıdır. Əlbəttə bu məlumatlar ilk öncələr kağız üzərində aparılırdı. Hələ də bu üsuldan istifadə edən ölkələr mövcuddur. Ancaq Qərbi Avropada, Amerika Birləşmiş Ştatlarında (ABŞ) artıq bu prosesi proqram üzərində tətbiq edirlər. Zəif inkişaf etmiş ölkələr və onların müəssisələrinin iqtisadi təhlükəsizliklə bağlı çox problem yaşadığını bilirik. Bu problemlərdən biri də, onların uçot-analitik məlumatlarla bağlı olduğunu da öyrənirik.

İqtisadi təhlükələrin yaranmasının qarşısını almaq üçün mühasibat uçotunda bir çox hallarda uçot-analitik vasitələr hesabına hər hansı göstərici üzrə məlumatların düzgünlüyünü müəyyən etmək və məlumatların hazır edilməsi vaxtı, ona sərf edilən zamanı azaltmaq məqsədilə bir neçə texniki metodlar hesab edilən proqram vasitələrindən istifadə edilir. Vurğulamalıyıq ki, hər hansı proqram istehsalçısının yaratdığı proqramlar vasitəsilə istifadəçilərə hesablanması lazım olan xərc və gəlir növlərini müəyyən edən modellar və ya planlar qurmağa şərait yaradır. Əlbəttə ki, bəzən iri müəssisələr xüsusi hesablamalar, gəlir və xərcləri müəyyən etmək məqsədilə özləri tərəfindən proqram yarada bilərlər. Uçot-analitik məlumatlar üzrə hazırlanan proqramlar bir sıra mühasibatlıq proqramına bənzəyə bilər, amma eyni olması ehtimalı yoxdur.

Deməliyik ki, inkişaf etməkdə olan ölkələrin (İEOÖ) çox az hissəsinin, inkişaf etmiş ölkələrin (İEÖ) isə hamısının bank, ticarət, turizm kimi xidmət göstərən müəssisələrində bu sistem xüsusi proqramlar əsasında aparılır və məlumatların dəqiqiliyi birbaşa komputerlə və ya digər texniki vəsaitlərlə bağlıdır. Bu da öz növbəsində səhvlərin az olmasına, uçot-analitik məlumat və göstəricilərin dəqiqliyinə şərait yaradır. İşin hansı dəqiqlikdə getməsini bilmək üçün nümunəyə baxaq. Bu nümunə yüksək şəkildə qeyd edilən və tanınmış Microsoft şirkətinin

proqramı əsasında uçot-analitiklə bağlı olan məlumatların necə sabit və stabil şəkildə göstərilməsini izahıdır.

Microsoft Dynamics Great Plains Proqramı (Microsoft Dynamics GP) Microsoft-un müəssisələrə məhsuldarlığı artırmağa kömək etmək öhdəliyinin başqa bir nümunəsidir. Sizə maliyyə məlumatlarını tələb olunan xüsusi meyarlarla təhlil etmək üçün güclü bir işləmə qabiliyyəti verir. Daha böyük hesabat çevikliyi, əməliyyatları daha səmərəli şəkildə təhlil etməyə imkan verir. Dynamics GP ilə analitik mühasibat əməliyyatlarınızı daha yaxşı görmə imkanı verir. Düzgün zamanda lazımi məlumatları əldə edə bildiyiniz zaman əməliyyatlarınızı daha dərindən izləməklə qərar vermək səlahiyyətinə sahibsiniz. Analitik mühasibat qeyri-kommersiya təşkilatları üçün xüsusilə faydalıdır və qrant idarəetmə modulunu genişləndirir. Dynamics GP analitik uçotunun 5 faydası:

- Ətraflı əməliyyat ölçüləri əldə edir: xərc mərkəzi, mənfəət mərkəzi, məkan və zaman da daxil olmaqla limitsiz sayda istifadəçi tərəfindən təyin edilmiş əməliyyat ölçüləri ilə müəyyən bir iş ehtiyaclarımıza əsasən maliyyə əməliyyatlarını təsnif edir, hesabat verir və təhlil edir.

- Bayraq xüsusi maliyyə hesabları: mənfəət mərkəzi kimi müəyyən bir ölçü işarələyə bilərik. Sonra, GP-dəki bu xüsusi hesabların (hər hansı bir modul - borclar, inventarizasiya, maliyyə və s.) istifadə edildiyi zaman əməliyyat mənfəət mərkəzinə daxil ola bilər. Əməliyyatı göndərmək üçün bir istifadəçinin mənfəət mərkəzinin dəyərinə girməsi üçün tələb olunan ölçüləri etməyi təklif edilir. Bir mənfəət mərkəzinin dəyəri artıq lazım deyilsə, asanlıqla hərəkətsiz olaraq yazıla bilər və yeni əməliyyatlar üçün seçiləcək dəyərlər siyahısından yox olur. Müəyyən GP istifadəçilərinin müəyyən ölçü dəyərlərini seçməməsi üçün təhlükəsizlik də mövcuddur.

- Xüsusi hesablar üçün ölçmə kodu ilə girişi müəyyənləşdirir: analitik mühasibat, hər bir ölçmə kodunun yalnız xüsusi GP hesablarına daxil olmaq üçün müəyyənləşdirdiyiniz yerlərdə "hesab girişi" ilə istifadəçi icazələrinin təhlükəsizliyini təmin edir.

- Çox səviyyəli hesabatlar üçün Excel istifadə edilir: asan manipulyasiya, mühasibat uçotu olmayan iş məlumatlarının inteqrasiyası və inkişaf etmiş təqdimat üçün Excel kimi tanış bir vasitədən istifadə edilir. Bir funksiya ilə bütün hesabat və ya bölmə boyunca nə qədər detala baxmaq lazım olduğuna qərar veririk. Ölçülər eyni zamanda idarəetmə hesabatı maliyyə hesabatlarının sətirlərinda, sütunlarında maliyyə hesabının seqmentləri kimi əlavə edilə bilər.
- Maliyyə ödənişlərinə kodlar əlavə edilir: maliyyə xərclərini qiymətləndirərkən ayrı-ayrı müştərilərə analitik mühasibat kodları əlavə etmə digər məşhur xüsusiyyətdir. GP hesabı bir mühasibat sinfi ilə əlaqələndirilərsə, hər fərdi müştəriyə kodlar təyin ediləcəkdir. Hesab bağlı deyilsə, daha sonra bir maliyyə ödənişini qiymətləndirən hər bir müştəri üçün redaktə analiz pəncərəsində kodlar təyin etmək imkanı əldə edəcəyik. (Coddington A., 2017, p.25)

Bu proqramın əlavə üstünlükləri: analitik uçotun bir sıra digər faydalarına idarə olunan məlumat, sadələşdirilmiş naviqasiya, etibarlı kod birləşmələri və qrant büdcəsinin təsdiqlənməsi; hesabatları proqramlara əsaslanan müəssisələrdə iqtisadi təhlükəsizliklə bağlı daha az səhvlərə yol verilməsi və baş verə biləcək iqtisadi təhlükələri aradan qaldırılması;

Uçot-analitik məlumatlar üçün vacib rol oynayan analitik uçot kodu: hal hazırda mühasibat uçotu, əsasən kodlaşdırma sisteminin avtomatik istifadə edilə biləcəyi kompüter mühasibat proqramlarında aparılır. Analitik uçot kodu proqram tərəfindən analitik uçot sistemindəki konkret obyektlərə verilən nömrədir. Hazırda mühasibat uçotunda sintetik və analitik uçot anlayışlarından çox istifadə olunur. Analitik uçot müəyyən bir meyarlara uyğun olaraq sintetik hesabın və ya onun subhesabının ətraflı açıqlamasıdır. (Balasabas R., 2019, p. 3-4)

Uçot-analitik hesabların ən vacib və mühüm hissələrindən danışarkən mütləqdir ki, onun formalaşdırma prinsipinə də toxunaq. Uçot-analitik məlumatlarda formalaşdırma prinsipinə əməl edilərsə:

- müəssisənin bir sıra iqtisadi təhlükələrdən uzaq tutmaq;
- balans hesabatında hesabların dövrləri üzrə qalıqların müəyyənləşdirmək;
- hesabatların uçot-analitik kontekstdə göstərmək;

- müəssisə üçün əhəmiyyəti yüksək olan məlumatların seçib mühasibat hesabatlarından götürmək;
- müəssisəyə kapital və öhdəliklərin hesablanmasın daxil etmək; kimi üstünlüklərə nail ola bilərik.

Göründüyü kimi uçot-analitik məlumatların bu cür şəkildə ciddi və dəqiq prinsiplərə və onların zəruri məlumatlarına diqqət yetirmək lazım gəlir. Bu tip struktur xüsusiyyətlərini öyrənməklə və tətbiq etməklə iqtisadi təhlükəni azalda bilərik. Çünki bütün müəssisələrdə uçot-analitik məlumatlar hazırlanarkən və proqrama tətbiqi zamanı onların hesabat və dövriyyə göstəricilərinə fikir verilir.

Uçot-analitik məlumatların sənədləşdirilməsinə də çox diqqətə alınır. Hətta bu məsələ iqtisadi təhlükəsizlikdə vacib bir prosedur hesab edilir. Bəzən müəssisələrdə uçot-analitik məlumatlar proqramlar vasitəsilə bütün göstəricilərə əsasən düzgün təşkil edilsə də, onların sənədləşdirilməsi zamanı səhvlik yaranır. Bu müəssisə üçün gələcəkdə üzləşə biləcəyimiz bir sıra iqtisadi təhlükələrə səbəb olur. Daha çox turizm sektorunda işlərin fasiləsizliyinin güclənməsi bu hallara şərait yaradır. Çünki sənədləşmənin formalaşması və təşkili zamanı iqtisadi səhvlərə yol verməmək üçün bir sıra məsələlərə önəm vermək lazımdır.

Uçot-analitik məlumatlar iqtisadi təhlükəsizliyin idarəsi üçün mühüm tərkib hissəsidir. O bütün proseslərə lazımi formada reaksiyaya verməyə kömək edir. Yalnız reaksiya verməyə yox, hətta sonradan danışacağımız nəzarət və digər tədbirlərin aparılmasında vacib rola malikdir. Çünki uçot-analitik məlumatlar bir təşkilati sistem kimi izah edilir. Ona görə də uçotla əlaqəli proseslərə verilən reaksiyalar zamanı bu məlumatlardan istifadə təsadüfi hal kimi qiymətləndirilmir.

Hətta son dönəmlərdə uçot-analitik məlumatlardan ibarət yaradılan və təkmilləşdirilən bu sitemin aşağıdakı inkişaf perespektivlərini də qeyd edə bilərik: məlumatların müəssisənin real vəziyyətini nəzərə alaraq daha tez adaptasiya olunması; uçot-analitik məlumatların istifadə edildiyi aktual məsələlərin müqayisəsi; uçot-analitik məlumatlar arasında fərqlərin dəyərləndirilməsi və təhlili; iqtisadi təhlükə yarada biləcək problemlərin gələcəkdə əsaslanacağı konstruktiv nəticələri üçün tövsiyələr irəli sürülməsi;

## 1.3. İqtisadi təhlükəsizliyin təmin edilməsində maliyyə hesabat göstəricilərindən istifadənin beynəlxalq təcrübəsi

Maliyyə hesabatları müəssisənin maliyyə vəziyyəti, onların maliyyə nəticələri və dəyişməsi ilə bağlı olan hesabatları özündə əks etdirir. Qısa şəkildə maliyyə hesabatlarının vacibliyi haqda söz açaq. Bu sənəd beynəlxalq səviyyədə önəmli bir hesabat kimi nəzərdə tutulur.Çünki bir rəhbər öz müəssisəsinin istənilən bir iqtisadi fəaliyyətdə onun inkişafına şərait yaradılmasına nail olmalıdır. Maliyyə hesabatları dedikdə müəssisələr üzrə mühasibat uçotu sənədlərində maliyyə fəaliyyətini, habelə iqtisadi vəziyyəti və bununla yanaşı strukturlaşdırılmış və sistemləşdirilmiş informasiyaları özündə əks etdirən hesabatları nəzərdə tuturuq. Maliyyə hesabatlarında müəssisənin maliyyə fəaliyyətinə aid olan mənfəət və zərər, onların vəziyyəti, pul vəsaitləri və kapitallarda dəyişikliklər üzrə məlumatların hər biri əks etdirilir. (Səbzəliyev S.M., 2018: s.16)

Maliyyə hesabatlarının bu qədər vacib olmasının səbəblərindən biri də onun müəssisənin mühüm göstəricisi və parametri hesab edilən iqtisadi təhlükəsizliklə bağlı olmasıdır. İqtisadi təhlükəsizliyin maliyyə hesabatları ilə əlaqəsi zamanı vətəndaşlara xidmət göstərən hər müəssisə üzrə fərqliliklər mövcud olur. Uzun illərin sınaqları buna dəlalət edir ki, dünya ölkələrinin hər biri dəyişən iqtisadi sistem ərzində istər mühasibat, istərsə də maliyyə hesabatlarında bir neçə fərqli üsullardan istifadə edirdilər. Maliyyə hesabatlarında verilən hər bir göstərici müəyyən prinsipə əsaslanmalıdır. Yalnız bundan sonra həmin anlayışlar tətbiqi praktikada tərtib edilməlidir. Hesabatın təhlükəsizliyinin təşkil edilməsində hər bir prinsip şəffaf olmalı, qarışıqlığa yol verməməlidir. Beynəlxalq praktikada hər ölkədə qəbul edilmiş vahid standart vardır. Həmin ölkənin müəssisələrində də bu standart praktiki olaraq tətbiq edilir və əgər məqbul bir cavab alınırsa, o zaman bu standartın tətbiqinin davam etdirilməsi məsələsi təşkil edilir. İqtisadi tərəqqinin olması, yeni iqtisadi bazar sisteminin mövcudluğu və günbəgün yenilənməsi iqtisadi təhlükəsizliyin maliyyə hesabatlarında tətbiqinə problem yaradan əsas məsələdir. İqtisadi təhlükələrə yol verməmək məqsədilə maliyyə hesabatlarına tətbiq edilən

standartlardan sonra, onlara təkrar baxış nəticəsində dövrün əvvəlinə olan nəticə ilə dövrün sonuna olan nəticələrin müqayisəsi və ya müqayisəli təhlili aparılır.

İtaliya, Fransa, Almaniya, ABŞ kimi inkişaf etmiş, istər mühasibat, istərsə də maliyyə baxımından yüksək təcrübəyə malik olan ölkələrin bank yaxud maliyyə hesabatlarını önə çəkildiyi başqa xidmət müəssisələrində maliyyə hesabatları sisteminin öyrənilməsi, başqa müəssisələr üçün maraq doğurmuşdur. Bu müəssisələrin bəziləri əvvəlcədən təyin edilmiş qanunvericiliklə, bəziləri isə özlərinin təyin etdikləri mühasibat sənədləri ilə maliyyə hesabatlarını təşkil edirlər. İstənilən müəssisə beynəlxalq iqtisadi əlaqələri qurmaq üçün öz maliyyə hesabatlarını MHBS-na uyğun şəkildə tərtib edilməsini təmin etməlidir.

Əlbəttə ki, qloballaşan dünya, iqtisadi sistemin təkmilləşməsi, müəssisələr arasında rəqabətin, əməkdaşlığın artması, investisiya cəlb etmə marağı müəssisələri beynəlxalq maliyyə hesabatları təcrübələrindən, o cümlədən MHBS-dan istifadəyə sövq edir. Çünki hər bir müəssisənin dünya bazarına çıxışı zamanı yaranan əsas problemləri və yaxud maneələri əksər hallarda bunlarla bağlı olur. MHBS-nin müəssisələr üçün ən vacib göstəricisi hesablama və narahatlıq prinsipləridir. Hesablama prinsipi pul axını və ya ondan asılı olmayan fəaliyyətlərdən baş verən fəaliyyətlərin dövrlər üzrə nəzərdə tutulmasıdır. Müəssisənin gələcəkdə də fəaliyyətini davamlı formada təmin etməsi və ya ola biləcək maneələr üçün narahatlıq prinsipi ön plana keçir. (Афаунова Ж.Ч., Хамгоков К.М., 2015: с. 540-543)

Həm yerli, həm də xarici müəssisələr iqtisadi təhlükələrdən qorunmaq üçün U.S.GAAP, MHBS kimi hesabatlardan hansını seçməli olduğunu öyrənməlidirlər. Müəssisə üzrə səhv seçim böyük iqtisadi təhlükəyə səbəb ola bilər. Onlar arasında əsas fərqlər - müəssisənin əldə etdiyi gəlirin tez müəyyən edilməsi və ona sürətli formada məlumat verilməsi; balansda yüksək gəlir axını mövcud olması; tərəqqiyə xərclənən pulun xərc kimi qeyd edilməməsi; ehtiyatlar uçotunda fərqlərin mövcud olması; hesab edilir.

Ölkəmizdə də hər bir yerli müəssisə MHBS-a keçən zaman və ya onun fəaliyyətindən alınan təcrübələrdən praktiki formada istifadə edərkən iqtisadi təhlükələrə yol verməmək üçün aşağıdakı mərhələlərə əməl etməlidir:

- özünəməxsus mühasibat siyasətinin planlaşdırılması;
- əməliyyatlar zamanı istifadə ediləcək valyutaların seçimi;
- əməliyyatlar sonrası qalıqların müəyyən edilməsi və hesablanması;
- transformasiya modelinin təşkil edilməsi;
- müəssisənin əsas tərkib hissələrinin, yəni strukturunun qiymətləndirilməsi;
- yuxarıda saydığımız tələblər üçün lazımi məlumatların toplanması;

•nəhayət sonuncu mərhələdə istifadə etdiyi standartları MHBS-a uyğun formada yenidən təşkil edilməsi;

Artıq son dönəmlərdə də inkişaf etmiş və təkmilləşmiş sığorta və turizm sektoru müəssisələrində maliyyə hesabatlarını tərtib edərkən plan və aparılan əməliyyatlar üzrə digər müəssisələrə nisbətən müstəqil kodlaşdırma aparırlar. Bu kimi müəssisələrdə maliyyə hesabatları ilə bağlı olan uçot məsələləri müasir texniki səviyyənin inkişafı ilə əlaqədar olaraq komputerlərdə yüksək şəkildə kod və kodlar ardıcıllığı ilə tənzimlənir. Həm İEÖ, həm də İEOÖ bu kodlar sisteminə keçərək müəssisələrini gələcəkdə və ya cari dövrdə baş verə biləcək iqtisadi təhlükələrdən qoruyur. Bu təcrübələrin və ya fəaliyyətlərin ölkəmizdəki müəssisələrdə də tətbiq edilməsi zamanı əsas vəzifələr:

➢ hesabatların beynəlxalq standart səviyyəsində aparılmasının təmin edilməsi;

➢ dünya səviyyəsində praktiki şəkildə müvəfəqiyyətlə çıxmış standartları harmonizasiya edib əsas istiqamətlərini əlaqələndirilməsi;

➢ bu standartların tətbiqi zamanı ölkələrdə fəaliyyət göstərən və hesabatların beynəlxalq səviyyədə qurulmasına kömək edən təşkilatlara metodiki şəkildə yardım edilməsi; (Səbzəliyev S.M., 2018: s.23)

Üçüncü prinsipə daha çox fikir verək. Çünki bu bizim tədqiq etdiyimiz iqtisadi təhlükəsizlik anlayışına daha çox yaxındır. Beynəlxalq təcrübələrin maliyyə hesabatı kimi mühüm bir sənəddə tətbiqi yaxşıdır. Lakin onu bəzən İEÖ-də, daha çox isə İEOÖ-də fəaliyyət göstərən müəssisələr tərəfindən ya əksik, ya da optimal şəkildə tətbiq edilmir. Bununla da maliyyə hesabatı sənədlərində ya struktur baxımından tərkibindəki göstəricilər, ya da sənədlərdəki hesablamalarda problemlər yaranır.

Beləliklə də, müəssisə ciddi şəkildə iqtisadi təhlükə ilə üz-üzə qalır. Bu tip iqtisadi təhlükələrə yol verməmək üçün həmin beynəlxalq səviyyənin düzgün şəkildə tətbiqinə fikir verilməlidir. Buna görə müəssisələr tərəfindən maliyyə hesabatları aşağıdakı mütləq prinsipləri nəzərə alırlar: anlaşıqlılıq, etibarlılıq əhəmiyyətlilik münasiblik, mahiyyətin formadan üstünlüyü, düzgün təqdimat, neytrallıq, ehtiyatlılıq, müqayisəlilik.

Ümumilikdə yuxarıdakı prinsipləri iqtisadi təhlükəsizliklə əlaqələndirək. Beynəlxalq səviyyədə maliyyə hesabatlarında təcrübələr tətbiq edilir. Bu da öz növbəsində iqtisadi və digər baxımdan bir sıra təhlükələrə yol açır. Prinsiplərin düzgün şəkildə icrasının aparılması həmin prinsiplərdən istifadə edən və maliyyə hesabatlarına tətbiq edən müəssisələr üçün iqtisadi baxımdan təhlükələrin yaranmasını azaldır. Bununla da müəssisə beynəlxalq səviyyədə hüquqi və qanuni cəhətdən fəaliyyət göstərir və gələcək üzrə inkişafda olan bir müəssisə rolunu oynayır. Çünki bu hesablar beynəlxalq şəkildə standartlara uyğun və qiymətləndirmə metodları ilə təsdiq edilmiş keyfiyyətli bir sənəddir. Maliyyə hesabatları prinsiplərinin mürəkkəb olması və bir sıra iqtisadi təhlükələrə məruz qalmasının səbəblərindən biri də onda yalnız pul vəsaitləri və keçmiş dövrə aid edilən iqtisadi əməliyyatlar yox, hətta pul vəsaitləri üzrə gələcək də ödənilməsi ilə bağlı olan öhdəliklər təşkil edilir. Beynəlxalq təcrübələrin yerli bank və digər xidmət müəssisələrimizdəki maliyyə hesabatlarına tətbiqi zamanı aşağıdakı prinsiplərə fikir verilməlidir:

- normativ standartın sistemləşdirilməsi; metodiki təşkiletmənin hansı üsullarla, metodlarla tətbiqinin izah edilməsi;
- beynəlxalq təcrübənin tətbiqi zamanı kömək edən kadrların təminatı;
- beynəlxalq əməkdaşlıq;

Müəssisə rəhbərləri hesabatlarla əlaqəli beynəlxalq təcrübələri müəssisələrində tətbiq edərkən bu təcrübələrin lazımi səviyyədə tətbiqi, etibarlılığı, düzgün təşkili üçün müstəqil fəaliyyət göstərən əcnəbi auditorlardan da kömək istəməsi məqsədəuyğun hesab edilir. Sınanmış və müsbət rəy almış təcrübələr müəssisə rəhbərində ona qarşı inam yaratmaqdan əlavə, habelə müəssisənin idarəetmə

sektorunun və xidmət fəaliyyətinin təkmilləşdirilməsinə də kömək edir. Beynəlxalq təcrübələrin maliyyə hesabatlarında tətbiqi müəssisələr üçün gələcəkdə bir sıra perespektivlər və ya digər yeni imkanlar üçün şərait yaradır. (Крылова Т.Б., 2008: s. 66)

Müəssisələrdə beynəlxalq təcrübələrin tətbiq edilməsi maliyyə hesabatları və ona uyğun standartlardan istifadə zamanı yuxarıda qeyd etdiyimiz üstünlüklərdən başqa bir sıra müsbət cəhətlər də yaradır:

❖ köhnə standartlara və şərtlərə nisbətən aparılan təhlillərin həqiqətə tam uyğunluğu;

❖ təhlillər zamanı əvvəlkinə nisbətən aşağı xərclər;

❖ sistemdə daxili və xarici mühasibat əməliyyatları zamanı qarışıqlıq yaranmır;

❖ müəssisəyə investisiya axınının güclənməsi;

❖ dəyişən bazar şərtlərinə cəld və çevik formada reaksiya göstərmək;

İqtisadi sistemin dəyişikliyə uğraması, bazar münasibətlərinin yaranması, ölkələr arasında iqtisadi əlaqələrin inkişaf etməsi, bunun da öz növbəsində beynəlxalq və maliyyə münasibətlərinə təsiri və hər bir ölkənin maliyyə hesabatları üçün beynəlxalq səviyyədə standartlara uyğunlaşması mühüm bir məsələ kimi hesab edilir.

Bu sistem dünya ölkələrinin çoxunda sınandığından ona daha çox maraq göstərilir və baş verə biləcək təhlükələrdən nisbətən uzaq olur. Belə əminliklə söyləməyimiz əsas səbəbi ondan ibarətdir ki, dünya ölkələrinin hər birinin maliyyə hesabatlarını müşahidə edə bilərsiniz və sonda görəcəksiniz ki, ölkələrin demək olar hamısı beynəlxalq şəkildə sınanmış standartlara uyğun olaraq maliyyə hesabatlarını qururlar.

Bu müəssisələr sanki həmin təcrübənin gəldiyi ölkələrə ixrac olunmuş kimidirlər. Məsələn, indi haqqında danışacağımız U.S.GAAP hesabat sənədi - mahiyyətinə və uçot standartlarına uyğunluğuna görə qəbul edilmiş bir sıra vacib prinsiplərdən ibarətdir. Bu sistem üç səviyyə və hər birinin alt qrupları olaraq izah edilir.

**Cədvəl 2: U.S.GAAP sisteminin hər səviyyəsi üzrə sənədlər**

| Səviyyə | Sənədlər |
|---|---|
| **A** | • maliyyə uçotu ilə bağlı olan göstərişlər;<br>• interpretasiya;<br>• məsləhət;<br>• maliyyə hesabatlarındakı araşdırma üçün istifadə edilən bülletenlər; |
| **B** | • texniki işlərlə bağlı olan bülletentlər;<br>• hesabatla bağlı olan bir sıra sahə təlimatları;<br>• qeydlər və izahlar; |
| **C** | • müəssisədə işçi qrupu tərəfindən səmərəli qərarlar;<br>• təcrübə hesabına praktiki əhəmiyyətli bülletenlər;<br>• işlərin sona yaxınlaşması zamanı artıq təlimatların sistemə tətbiqi ilə bağlı sənədlər; |

**Mənbə:** Səbzəliyev S.M., (2018), "Maliyyə hesabatı", s.14 istifadə edilərək müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi maliyyə hesabatlarının dəqiq aparılması onun düzgünlüyünə əlverişli bir stimul yaradır. Bəhs etdiyimiz iqtisadi təhlükəsizliyin təmin edilməsi zamanı ABŞ kimi ölkələrin təcrübələrindən istifadə edilməsi daha məqsədəuyğundur. ABŞ üçün maliyyə hesabatı sənədi olan U.S.GAAP-da əsas sənədlər A səviyyəsində qeyd etdiyimiz göstəricilərdir.

Kiçik və orta həcmli bank və digər müəssisələrdə beynəlxalq maliyyə hesabatları zamanı MHBS-dan istifadə etməsi onlara problem yarada bilər. Səbəb son dövrlərdə bu cür şirkətlər üçün differensial hesabat formalarından istifadə edilməsidir. Əslində diferensial hesabat formaları da MHBS-a uyğun olaraq hazırlanır. Hətta İngiltərə, Yeni Zellandiya kimi bir çox ölkələrin müəssisələrində bu cür təcrübələrdən sonra yaranan fikirlər müsbət yöndədir.

Beynəlxalq maliyyə hesabatları təcrübələrinin tətbiqi onu deməyə əsas verir ki, bir sıra kiçik və orta xidmət nüəssisələrində MHBS-dan istifadə edilir. Üstün cəhətləri: müəssisənin inkişafı üçün yeni imkanlar təqdim etməsi; istifadə edən müəssisə personalı və ya rəhbəri üçün geniş məlumatları almasına kömək etməsi; müəssisənin fəaliyyəti zamanı boş yerə gedən vaxtın əhəmiyyətli formada azaldılmasına şərait yaratması; xidmət müəssisəsinin dünya bazarına inteqrasiyası

üçün yeni imkanlar yaratması; görülən işlər zamanı yeni və optimal metodlardan istifadə edilməsi; (Афаунова Ж.Ч., Хамгоков К.М., 2015: с. 541)

Ola bilər ki, müəssisələr tərəfindən maliyyə hesabatları üçün tətbiq edilən bu tip prinsiplər müəssisələr üçün əks təsir versin. Bunu onunla əlaqələndirə bilərik ki, həmin müəssisələr bunu ya düzgün formada tətbiq etməyi bacarmayıblar, ya da tətbiq etmək gücündə deyil. Keçid dövrü yaşayan ölkələrdə və ya İEOÖ-in müəssisələrində bu tip beynəlxalq təcrübələr anidən tətbiq edilə bilməz. Hər cür təhlili və ya standartı öz müəssisəsində tətbiq edən rəhbər onu araşdırmalı və lazım gələrsə dəyişiklik etməlidir. Hətta lazım gələrsə öz ölkəsinin milli hesabatlarını da ona uyğunlaşdırmalıdır. Məhz boş yerə deyilmir ki, əsas təcrübələrdən hesab edilən maliyyə hesabatlarının standartları qloballaşmalıdır. Bu proses illər keçsə belə davam edir. Bundan başqa Qərb müəssisələrinin sınanmış hər hansısa təcrübələrinin kor-koronə formada kopyalamaq da düzgün addım hesab edilmir. Çünki, bu halda aşağıdakı problemlər baş verə bilər.

**Sxem 5: Təcrübələrin tətbiqi zamanı baş verən problemlər**




**Mənbə**: Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Təcrübələrin tətbiqində daimiliyə və fasiləsizliyə önəm verilməlidir. Əgər təcrübələrdən istifadə müəssisə üçün iqtisadi təhlükəyə yol açırsa, o zaman kənarlaşmalar və ya əlavələr edilə bilər. Bazar iqtisadi sistemində maliyyə hesabatlarında iqtisadi təhlükəsizliyin müəssisələrdə konsolidə edilməsi nisbətən

müasir bir anlayış hesab edilir. Müasir dünya təcrübəsinin müəssisələrdə konsolidə edilməsi zamanı belə problemin baş verməsi onlarla bağlı olan elmi araşdırmaların zəif aparılması ilə əlaqədardır. Məsələn, beynəlxalq təcrübənin maliyyə hesabatlarında səhv şəkildə tətbiqi və yaxud tətbiq edilməməsi nəticəsində ola biləcək iqtisadi təhlükəni analiz edə bilərik. Dünyada baş verən iqtisadi böhrana nəzər yetirək. Bunun əsas nüanslarından biri ondan ibarətdır ki, bəzi dünyaca məşhur müəssisələr yaxud transmilli şirkətlər istər müştəri, istərsə də investisiya cəlb etmək üçün öz müəssisələrinin maliyyə hesabatlarının göstəricilərini saxta məlumatlarla idarə edirlər. Əvvəlcədən də izah etdiyimiz kimi beynəlxalq təcrübəyə görə müştəriyə və ya istifadəçiyə verilən məlumatlar tam şəffaf şəkildə olmalıdır. Bundan başqa onlar müştəri cəlb etmək üçün yalan informasiya yox, etibarlı hesab edilən məlumatlar verməlidir. Əks təqdirdə bu tip iqtisadi təhlükələrlə üzbəüz qala bilərlər. Hər halda onu onu deməliyik ki, hesabatların müəssisələr üçün necə əhəmiyyətli olmasını onların müəssisə üzrə təsirlərini və gələcəkdəki dəyişikliklərini proqnozlaşdırarkən izah etmək olar. Hansı hesabat formalarından istifadə edib etməməsindən və hansı beynəlxalq təcrübənin tətbiqindən asılı olmayaraq müəssisələr mütləq şəkildə iqtisadi təhlükəsizliyi göz qabağına gətirir. Buna görə də yuxarıda haqqında danışdığımız yüksək İEÖ-in müəssisələrinin istifadə etdiyi beynəlxalq təcrübənin mühüm prosedurlarından düzgün və ciddi şəkildə istifadə edilməlidir.

Ölkəmizdə ixtisaslı mühasiblərin, peşəkarlıq səviyyəsinin yüksək olan müəssisə rəhbərlərinin olması bu iqtisadi təhlükələrdən beynəlxalq təcrübənin düzgün tətbiqi ilə yan qaça bilərlər. Beləliklə, iqtisadi təhlükələrə yol verməmək üçün beynəlxalq təcrübələrə yiyələnən və onları səmərəli və düzgün aspektdən yanaşan ixtisaslı mühasiblərə və mühasibat təşkilatlarına güvənmək lazım gəlir. Azərbaycan müəssisələrində də MHBS-a çox önəm verilir. Bundan başqa, beynəlxalq standartlara, onların təcrübələrinə yiyələnilir. Yerli bank sektorlar üzrə beynəlxalq standartara əməl edilməsi gələcək fəaliyyət üzrə təhlükəsizliyin təmin edilməsinə şərait yaradır. Ölkəmizdə olan müəssisələrdə də bu standartların tətbiqinə və onun təkmilləşdirilərək milli standart halına salınmasına diqqət yetirilir.

# FƏSİL II. İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ KONTEKSTİNDƏ UÇOT-ANALİTİK MƏLUMATLARIN FORMALAŞDIRILMASI METODİKASI

## 2.1. Müasir şəraitdə sui-istifadə məlumatları və onların qarşısının alınması metodu

İqtisadi sui-istifadə məlumatları və ondan istifadə zamanı yaranan fəaliyyət, qarşı tərəfin önündə güc və nəzarət əldə etmək məqsədilə sui-istifadə edənlərin özünəməxsus ümumi taktikası hesab edilir. İqtisadi sui-istifadə məlumatları zərərçəkəni qəsdən idarə etmək, onu qorxutmaq və ya təhdid etmək üçün bir çox davranışları özündə birləşdirir. Demək olar ki, iqtisadi baxımdan sui-istifadə hər bir fəaliyyətdə mövcuddur. İqtisadi sui-istifadənin özü ilə əlaqədar olan formaları digər sui-istifadələrdən fərqli olaraq, maliyyə istismarı formasında başlayır və genişlənərək kəskinləşir.

Akademiklər – Adrienne A.E., Sullivan C.M., Greeson M.R. müsahibələr zamanı iqtisadi sui-istifadəni şəxslərin iqtisadi ehtiyatları əldə etmək, ondan yararlanmaq və onu öz əlində saxlamaq üçün öz ortaqlarının və ya işçilərinin həssaslığına müdaxiləsi etibarilə qəsdən baş verən idarəetmə nümunəsi kimi müəyyən etmişlər. İqtisadi sui-istifadə anlayışını daha fərqli şəkildə izah etməyə çalışmış və iqtisadi sui-istifadə yerinə “maliyyə istismarı” anlayışını ön plana çəkmişdilər.

Mütəxəssislər Braaf R. və Barrett M. iqtisadi sui-istifadə məlumatlarından istifadə sonrası baş verəcək şəraitin nəticəsi olaraq əmanətlərin məhdudlaşması, bilərəkdən əmlaka zərər vurmaq, icarə və ipoteka ilə bağlı olan ödənişləri etməmək, iqtisadi təhlükəsizliyə səbəb olmaq, işçi qüvvəsinə ziyan vurmaq kimi məsələləri nəzərdə tutdular. Breckenridge J., Walden İ. və Flax G.-ın fikrincə isə bu tip münaqişələr gücləndirilmiş bir versiyasından əmələ gələrək iqtisadi sui-istifadə forması olan iş təxribatı halları ətrafında yaranan sualları əhatə edir. İqtisadi sui-istifadənin adını çəkməmələrinə baxmayaraq, bu tədqiqatın keyfiyyət hissəsi

məşğulluq təxribatı, iqtisadi istismar və iqtisadi nəzarət kimi başa düşülə biləcək halları izah edirlər.

Yerli xidmət sferası müəssisələrinin fəaliyyəti zamanı baş verə biləcək sui-istifadə halları aşağıdakı təsirlər hesabına yarana bilər: mühit hesabına görə daxili və xarici; meydana gəlmə formasına görə maliyyə və texnoloji; yaranma dövrünə görə real və potensial; istismar etdiyi obyektə görə işçi heyəti və işgüzar nüfuz; proqnozlaşdırma mümkünlüyünə görə proqnozlaşan və gözlənilməyən; vurduğu ziyanın miqdarına görə əhəmiyyətli və əhəmiyyətsiz;

İstər ölkəmizdə, istərsə də ölkədən kənardakı turizm, ticarət və s. xidmət müəssisələri rəhbərlərinin və yüksək vəzifə tutan şəxslərin müəssisə fəaliyyətində aşağıdakı qanunsuz hərəkətləri zamanı işdən sui-istifadə halları yaranır: maliyyə sektorunda cinayət - çirkli pulların yuyulması, maliyyə saxtakarlığı, vergidən yayınma, mübadilə məhdudiyyətlərini görməzdən gəlmək, uydurma maliyyə alətlərinin satışı, qeyri-maliyyə qurumlarının mənimsənilməsi, səhmdar manipulyasiyası;

Beynəlxalq təqdiqatlar, araşdırmalar respublikamız daxilindəki və ya dünya ölkələrinin hər bir xidmət müəssisəsinin rəhbərini və ya işçisini aşağıdakı sui-istifadə hallarından qaçınmağa çağırır. Bunlara daxildir: zərərçəkənə işlə məşğul olmağı qadağan etməsi nəticəsində işini itirən şəxsin işlə və məşğulluqla bağlı imkanlarının təxirə salınması; iş üzrə təşkil edilən təlimlərdə və ya bunun kimi pilot layihələrdə iştirakdan çəkindirmək; istismar etdiyi şəxsi investisiya və ya bank layihələri üzrə verilən qərarlara daxil etməmək; zərərçəkənin şəxsi bank hesabına girməsini qadağan etmək; onu səhv hesabatlar yazmağa və ya yanlış vergi bəyannamələrini təqdim etməyə məcbur etmək; müəssisə daxilindəki aktivləri gizlətmək; zərərçəkənin şəxsiyyətini, əmlakını ondan xəbərsiz oğurlamaq və ya məcburi istəmək; uçot-analitik məlumatların oğurlaması; özünəməxsus olan ödənişlərdən imtina edərək, onun zərərçəkən tərəfindən ödənilməsini təmin etmək; istismar etdiyi şəxsin ictimai faydalarını təhvil verməyə məcbur etmək; həqiqəti əks etdirməyən sığorta tələblərinin verilməsi; (Postmus J.L., Plummer S.B., 2017, p.692-703)

Beləliklə bu proses zərərçəkənin istismarçıdan iqtisadi cəhətdən asılı vəziyyətə salmasına gətirib çıxarır. Bununla da həmin şəxsin sui-istifadə fəaliyyətindən yayınmağı və təhlükəsizlik imkanlarından istifadə edərək özünü qorumağı məhdudlaşdırılır. İqtisadi sui-istifadə fəaliyyəti hər hansı şəxsin müəssisədə ona yaxın olan tərəfdaşının iqtisadi sistemə çıxışını öz nəzarəti altına alması kimidir. Bu, zərərçəkmiş şəxsin özünə gördüyü iş üzrə motivasiya vermək yaxud dəstəkləmək imkanını azaldır və istismarçıdan maddi cəhətdən asılı vəziyyətə düşməyə məcbur edir. Məhz günümüzdə də yerli və xarici mətbuatda eşitdiyimiz və ya rastlaşdığımız bu kimi hallar - şəxsin müəssisənin əmlakını, mühasibatlıqla bağlı analitik informasiyalarını, maddi cəhətdən pulunu, hətta bununla əlaqədar qiymətli əşyalarını heç bir qanuna və icazəyə uyğun olmadan ələ keçirməsi, çox hallarda saxtakarlıq etməklə hakimiyyəti ələ keçirməsi kimi hallar iqtisadi sui-istifadəsi ilə əlaqədardır.

Sui-istifadə halları zərərçəkmiş şəxsin maliyyə və gəlir əldə etməsinə nəzarət etməyi də əhatə edə bilər. Məsələn, bank müdirlərinin və vəzifəli şəxslərinin zərərçəkənlərə bank hesabına daxil olmaq və məlumatları əldə etmək imkanlarını məhdudlaşdıra bilər. Zərərçəkmiş şəxsin gəlir əldə edə bilmədiyi hallarda, məsələn, zərərçəkmiş şəxsin maddi dəstək verməsini tələb edən müəssisə rəhbəri viza aldıqda, həmin vizanı qanunsuz yolla mənimsədiyi halları bura aiddir. (Adrienne A.E., 2008: p. 14)

İqtisadi sui-istifadə 'maddi sui-istifadə' anlayışından daha genişdir, çünki burada ərzaq, geyim və ya nəqliyyat kimi zəruri mənbələrə girişin məhdudlaşdırılması və şəxsin iqtisadi vəziyyətinin yaxşılaşdırılması vasitələrindən (məsələn, məşğulluq, təhsil yaxud digər vasitələrlə) imtina edilməsi də ola bilər. İqtisadi sui-istifadədən xilas olan şəxslər onu bu cür təsvir edirlər: İqtisadi sui-istifadə iqtisadi qeyri-sabitliyi gücləndirmək və ya yaratmaq üçün hazırlanmışdır. “The Domuse Abuse Report”-un 2019-da bildirildiyi kimi: sui-istifadə edən şəxslə münasibət qurmuş zərərçəkənlərin 56.1%-i sui-istifadənin onların iş qabiliyyətlərinə təsir etdiyini və bütün respondentlərin beşdə ikisindən çoxunun onların uzunmüddətli iş perspektivlərinə və qazanclarına mənfi təsir etdiyini hiss etdi.

Əgər siz hər hansısa şəxslə birlikdə xidmət sektoru müəssisəsinin rəhbərisinizsə və ya müəssisədə istənilən işi bir yerdə edirsinizsə iqtisadi sui-istifadə zamanı ortağınız sizə:

- ödənişlərin vaxtından əvvəl təhvili üçün məcbur edir;
- hər hansısa bir işi götürməkdən çəkindirir və gördüyünüz işə mane olur;
- müəssisəyə məxsus kredit kartını, gizli saxlanılan uçot-analitik məlumatların və ya büdcədəki pulu icazəniz olmadan istifadə edir, sizə məlumat vermədən ləğv edir;
- iqtisadi hesablara, analitik məlumat mənbələrinə və ya maliyyə mənbələrinə daxil olmağınıza birbaşa nəzarət edir;
- özünüzə dəstək olmaq qabiliyyətinizi zəiflətməyə çalışır;
- ən əsası sizi maddi cəhətdən zəiflədərək özündən asılı hala gətirir, beləliklə sanki maddi müstəqilliyinizi əlinizdən alır; kimi hallar edə bilər.

Ümumilikdə iqtisadi sui-istifadə və maliyyə sui-istifadə anlayışlarının bir-birilə tez-tez qarşılıqlı işləndiyinə fikir vermişik. İqtisadi və maliyyə sui-istifadə arasındakı əsas fərq, maliyyə sui-istifadəsinin iqtisadi sui-istifadənin daxilində olması və çox vaxt eyni funksiyaları yerinə yetirdiyini deyə bilərik. Həmçinin maliyyə sui-istifadə iqtisadi ehtiyatlara deyil, şəxsi qazanca istiqamətlənir.

İqtisadi sui-istifadədə əsas məsələ vacib uçot-analitik və digər iqtisadi məlumatlardan istifadə edilərək maliyyə ehtiyatları, daha dəqiq maliyyə mənbələri üzərində nəzarəti ələ keçirmək, müəssisə daxilində başqalarının puldan istifadə bacarıqlarını məhdudlaşdırmaq və sanki bunların nəticəsi kimi şəxsləri özündən asılı hala salaraq onda maliyyə asılılığı yaratmaqdır.

Bəzən bu zərərçəkənlərə o dərəcədə pis təsir edir ki, onlar yoxsulluq və əmlaklarını yəni, ev və maşınlarını itirmək arasında seçim belə etmək məcburiyyətində qala bilərlər. Ona görə də iqtisadi sui-istifadə zamanı zərərçəkənlərin qarşı tərəf sayəsində təhqiramiz münasibətlərdə olması tez-tez baş verə biləcək bir nəticə kimidir.

İstər yerli, istərsə də başqa ölkələrin sığorta, bank kimi xidmət müəssisəsi üzrə vacib, lazımi iqtisadi məlumatları və uçot-analitik informasiyaları ələ keçirib ondan

sui-istifadə edən şəxslər müəssisə rəhbəri olan və ya hər hansısa vəzifəni yerinə yetirən sizə aşağıdakı sui-istifadə hallarını edə bilər:

- qazandığınız yaxud saxladığınız vəsaitdən istifadənizə, ona girişinizə nəzarət etməyə çalışmaq;
- aktivlərinizi sizdən icazə almadan və ya soruşmadan şəxsi imkanları üçün istifadə etmək;
- müəssisədə tərəfdaşlar üzrə maliyyə istismarı etmək;
- adınıza ödəniş etmək, faktura ödəmək məqsədi iddia etmək, lakin həmin vədi yerinə yetirməmək;
- məlumat verilmədən müəssisə adına borc almaq, bu yetməzmiş kimi həmin borcu qaytarmamaq;
- işçilərin maaşını, parollarını və kartlarını təhvil verməyinizi tələb etmək;
- büdcə ilə bağlı məsələlərdə və maliyyə qərarlarınızda sizə yaxından kömək etmək bəhanəsiylə səhv təkliflər irəli sürmək;
- gizli maliyyə qeydlərinizi, uçot-analitik informasiyaları ələ keçirmək və ya açmaq;
- məmurlara səhv məlumat vermək, yalan danışmaq və "aldatdığınız, sui-istifadə etdiyiniz" iddiası ilə təhdid;
- sizin təklifiniz və tövsiyələriniz olmadan böyük maliyyə qərarları vermək;
- maliyyə ilə əlaqədar mövzuda əməkdaşlıqdan imtina etmək;
- istər müəssisənin büdcəsindən, istərsə də rəhbərliyin vəsaitini xəbərsiz götürmək və xüsusi hesaba qoymaq;
- gələcək üzrə proqnozlaşdırılan investisiya məlumatları kimi maliyyə və uçot-analitik məlumatlarının tutulması fəaliyyətlərini həyata keçirmək; (Stylianou A.M., Postmus J.L., 2013, p.3186-3204)

Beynəlxalq baxımdan olsa da iqtisadi məlumatları, bura uçot-analitik məlumatlar da aiddir ki, əldə edərək ondan sui-istifadəni "iqtisadi zorakılıq" adlandırırlar və özləri üçün əsas hesab edilən dörd kateqoriya və onların nəticələrini bir arada qeyd edərək bir-biri ilə əlaqəli olduğunu vurğulayırlar.

**Sxem 6: İqtisadi sui-istifadə hallarının kateqoriyalar üzrə bölünməsi və əlaqəsi**




**Mənbə:** Cameron P., *"Relationship Problems and Money: Talk about Financial Abuse Research Report"*, 2014: p.6 istifadə edilərək müəllif tərəfindən hazırlanmışdır.

İqtisadi sui-istifadə zərərçəkənləri bu münasibətləri tərk etdikləri hallarda, günahkarın iqtisadi cəhətdən pis davranışları nəticəsində uzunmüddətli borc və xərcləri üçün qanuni məsuliyyətlərini davam etdirə bilərlər. Bu tərəfdaşın maddi təhlükəsizliyini və gələcək imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdıra bilər.

Bundan əlavə, beynəlxalq miqyasda ölçülən yolları sistematik şəkildə nəzərdən keçirməyə çalışan heç bir tədqiqat aparılmamışdır. Bu tədqiqatın məqsədi məruzə olunan qlobal ədəbiyyatın iqtisadi və ya maliyyə istismarını necə müəyyənləşdirdiyini və ölçməsini daha aydın formada təmin etmək idi. Bəzən tərəfdaşlar pul, maliyyə və uçot-analitik məlumatların ələ keçirilməsi baxımından üzərində nəzarəti əldə edərək təhlükəli yaxud sağlam olmayan bir əlaqəni tərk etməkdən çəkindirmək üçün iqtisadi taktikalardan istifadə edirlər. Sizdən ayrılmamaq məqsədilə sizi onlardan asılı vəziyyətə salmaq üçün qorxutma və gücdən istifadə edirlər.

Zərərçəkənin məşğulluğunu sabotaj edən davranışlar iqtisadi sui-istifadə fəaliyyəti ola bilər. Bu formada olan davranışlar onların işini itirməsinə, hətta işə

müraciət edə bilməməsinə gətirib çıxara bilər. Məsələn, günahkar istismar etdiyi şəxsin iş və onunla bağlı görüşmələri üçün evdən çıxmasına belə mane ola bilər və ya iş yerindəcə vəzifəsinə xitam verə bilər. Bundan başqa işlərinin dayandırılmasına və iş saatlarının azalmasına da səbəb ola bilər. (Littwin A.K., 2012: p. 100 )

İqtisadi sui-istifadə hər zaman faciəvi bir hal deyil. İqtisadi sui-istifadə əvvəldə də deyildiyi kimi bir neçə formada olma ehtimalı var. Konsolidə kreditin prezidenti Gary Hermanın infoqrafiyasında, iqtisadi sui-istifadədə zərərçəkənlərin fiziki və maliyyə üzrə müstəqilliklərini əldə etmək üçün bu vəziyyətlər barədə tövsiyələr təqdim edilir. İnfoqrafiyadan göründüyü kimi, iqtisadi sui-istifadə sayılan geniş tədbirlər spektri mövcuddur. Gary Herman bu cür vəziyyətdən əziyyət çəkən hər kəsi kömək istəməyə çağırır. Hətta ehtiyacı olan zərərçəkənlərə maddi dəstək təklif edən qeyri-kommersiya təşkilatları belə var.

Əvvəldə də verildiyi kimi xidmət fəaliyyəti ilə məşğul olan yerli bank, sığorta kimi təşkilatlarda iqtisadi sui istifadənin, daha çox uçot-analitik məlumatlar üzrə pozuntuların qarşısının alınması üçün bir sıra tədbirlər həyat keçirilməlidir. Onlara aşağıdakıları misal göstərə bilərik:

- ❖ tərəfdaşının aldığı hər bir vəsaitə və uçot məlumatlarına diktə edilməsi;
- ❖ tərəfdaşından öz gördüyü işə görə müavinət istəməsi;
- ❖ qəbzlərinin mütləq yoxlanılmasının həyata keçirilməsi;
- ❖ tərəfdaşının pul xərclədiyi gündəliyi nəzarət altında saxlanması;
- ❖ müəssisə üzrə edilən hər bir alışın yazılmasını təmin etmək;
- ❖ telefon və digər vasitələrin istifadəsinə nəzarət;
- ❖ iqtisadi və maliyyə üzrə yaranan uçot-analitik informasiyaların mütləq şəkildə gizlədilməsi;

Sui-istifadə hallarının qarşısını almaq üçün əsas tədqiqat üsulu ABŞ iqtisadçılarının təcrübəsinə əsaslanan iqtisadi və riyazi modelləşdirmə, iqtisadi və kriminoloji tədqiqat metodlarının tətbiqidir. Kommersiya və ya bank sirlərini təşkil edən analitik uçot məlumatların qanunsuz alınması və açıqlanması, saxta pul, qiymətli kağızların istehsalı və satışının, saxta kredit, debet kartlarının hazırlanması və ya satışının qarşısını almaq üçün müxtəlif aktlar, təlimatlar, əmrlər hazırlanır.

İqtisadi sui-istifadəyə dair uçot-analitik fəaliyyət və proqnoz müəyyən edilir. Bu tip proqnozlar əsasında qanun layihələri hazırlanır. Mübarizə ən təsirli strategiya təyin edilir.

İqtisadi sui-istifadə və iqtisadi mənbələrin yaradılması proqramının nəticələri" araşdırmalarına görə bəzən günahkarlar zərərçəkənin pulundan istifadə edə bilər, hətta onu borc götürməyə məcbur edə bilər. Buna misal olaraq müəssisə rəhbərlərinin özü və ya müəssisənin xeyrinə istismar edilən şəxsə onun adından kredit götürməyə məcbur edilməsi, zərərçəkmişi günahkarın üzərindən qeyri-real olan iqtisadi sənədləri imzalamaq və ya göstəricilərə daxil olmaq üçün məcbur etmək kimi halları deyə bilərik. (Sanders C.K., 2007: p. 37)

Buna gorə də məsələn bir sıra pərakəndə fəaliyyət göstərən yüksək səviyyəli ticarət müəssisələri, turizm şirkətləri, bank və onlar kimi vətəndaşlara xidmət göstərməyə çalışan müəssisələrdə iqtisadi sui-istifadə hallarının səbəbləri və şərtlərini aradan qaldıraraq qabaqlayıcı tədbirlərə üstünlük verilir:

- ⇨ təqiblər üzrə ediləcək tədbirlər;
- ⇨ iqtisadi cinayət, daha konkret şəkildə desək iqtisadi sui-istifadə halları ilə əlaqədar mübarizə strategiyasının hazırlanması;
- ⇨ hər bir müəssisənin və onun strukturlarunun uçot məlumatlarının sui-istifadəyə qarşı nəzəri və praktiki proqramının yaradılması;
- ⇨ iqtisadi sui-istifadənin baş verməməsi üçün qanun layihələrinin tətbiqi;
- ⇨ hüquq mühafizə orqanlarının sui-istifadə ilə mübarizədə fəaliyyətlərinin təşkili;
- ⇨ iqtisadi sui-istifadəyə qarşı elmi tədqiqatların təşkili və sui-istifadəni edən şəxsin cəzasının qaçılmazlığını təmin etmək;
- ⇨ iqtisadi sui-istifadəyə qarşı əməliyyatların bütün müəssisələr tərəfindən həyata keçirilməsi;
- ⇨ qanuni formada profilaktik tədbirlərin tətbiqi və ya mümkündürsə texniki cəhətdən sui - istifadəni qabaqlamaq, onun haqqında məlumat əldə etmək;
- ⇨ qeyd etdiyimiz profilaktik sahədə beynəlxalq təcrübələrə yiyələnərək, onun həyata keçirilməsinin təmini;

## 2.2. İqtisadi təhlükəsizliyin təmin olunması şərtlərindən asılı olaraq uçot məlumatlarının ümumiləşdirilməsi metodu

Uçot məlumatlarının ümumiləşdirilməsi üçün bütün müəssisə və təşkilatlar üzrə uçotun qrafik cədvəlinə uyğun olaraq vahid, əvvəlcədən qurulmuş hesablar sisteminə uyğun aparılması lazımdır. Burada əsas məqsəd mühasibat uçotu üzrə məlumatların təhlükəsiz formada ümumiləşdirməkdir. Prosesdə müəssisə üzrə dövriyyənin "yumşaq" bir qiymətləndirmə və idarəetmə şəklində bərpasını, sənədləşdirilməsini və inkişaf etdirilməsini təmin etmək nəzərdə tutulur. Pərakəndə ticarət etməklə və ya turizm sahəsi kimi hər bir müəssisə üzrə fəaliyyətin əsasını təmin edən iqtisadi mexanizm modeli, əsasını vergi təşkil edən mənfəətin, xidmət sferası üzrə fəaliyyət göstərən müəssisələrdə ümumiləşdirilmiş maliyyə fəaliyyətinin ən optimal göstəricisi olan qazancı özündə birləşdirir.

Uçotunun ən vacib hissəsi iyerarxik sistemə malik olan uçot məlumatlarının ümumiləşdirilməsidir:

**Sxem 7: Ümumiləşdirilmiş uçot məlumatları sistemi**




**Mənbə:** Палий В.Ф., (2010), "Управленческий учет", с. 323

Uçot-analitik məlumatlar balans hesabları səviyyəsində bütün məlumatları təmin edir. Qalıq hesabları analitik uçot obyektləri səviyyəsində olan tələbləri, müəyyən edilmiş hesabatların verilməsi üzrə bütün məlumatları özündə birləşdirir.

Analitik uçot və tərkibi müəyyən edilmiş hesabatların verilməsinə şərait yaradır. Analitik uçotda verilən informasiyalar sintetik hesabda göstərilən informasiyaları açıqlayır və təfərrüatlı şəkildə izah edir. Uçot-analitik məlumatlar ilkin sənədlərdə verilən iqtisadi prosesləri dərindən anlamaq üçün imkan yaradır. Qruplaşdırmada göstəricilər inventar, nomenklatura və personal sayını analitik uçot obyektləri səviyyəsində təmin edir.

Beləliklə, iqtisadi məlumatlar üzrə aparılan ümumiləşdirilmə üsulu hər bir kapital və öhdəlik, mühasibat hesabları, sintetik yaxud analitik hesablar üzrə bölünür. İşə nəzarət və idarəetməni təmin etmək, mühasibatlıqda göstərilə biləcək subyektin etibarlılığı üzrə yaradılan ümumiləşdirilmiş məlumatların uçotu aparılan işin həqiqətə uyğunluğunu göstərir. Belə ümumiləşdirilmənin aparılması xərclərin həcminin azalmasına, səmərəliliyə, investisiya dövrlərinin düzgün əks olunmasına, gəlirlərin yaradılması üzrə mərhələlərin düzgün sıralanmasına, onun tərkibi, obyektlərin maddi mövcudluğu, hərəkəti, fəaliyyəti haqqında ətraflı informasiyaya sahib olmağa, hər hansısa bir obyektin tədqiqi və istifadəsinə şərait yaradır.

Uçot məlumatlarının müəssisə üzrə vacibliyini nəzərə alarsaq onun optimal formada təşkili məsələsi müəssisə səviyyəsində yüksək qitymətləndirilir. Aşağıdakı uçot məlumatlarını optimal formada hissələrə ayrılması və bir-birilə əlaqəsi buna əyani sübutdur.

**Sxem 8: Optimal uçot ümumiləşdirilməsi aspektlərinin bir-birilə əlaqəsi**




**Mənbə:** Палий В.Ф., (2010), с. 322 istifadə edilərək müəllif tərəfindən hazırlanmışdır.

Daha çox bank sektorunda mühasibat uçotu üzrə hesabatlarda aparılan işlər zamanı əsas diqqət həmin iqtisadi məlumatların ümumiləşdirilməsi hesab edilir. Əlbəttə ki, bunun da bir sıra özunəməxsus şərtləri mövcuddur: birinci müəyyən ardıcıllıqla, ikincisi isə ardıcıllıqla əlaqəli yazılma üsulları ilə digər mühasibat uçotu registrlərinin təşkili və istifadəsi qeyd edilir. Müxtəlif mühasibat uçotu registrlərinin birləşməsi, uçotun ardıcıllığı və texnologiyası mühasibat uçotunun formasını müəyyənləşdirir.

Mühasibat uçotunun fərdi formalarının xüsusiyyətləri təşkilat haqqında hərtərəfli məlumat əldə etmək üçün kompüter texnologiyasından istifadə etməklə etimadnamələrin saxlanması, axtarışı, işlənməsi və ümumiləşdirilməsinin xronoloji, sistematik, analitik və sintetik uçot metodlarının əlaqələrinin xarakteri ilə izah edilir. Başqa sözlə, ona mühasibat uçotunun hər hansı bir formasına giriş mərhələləri, məlumatların çevrilməsi və yayılması proseslərini özündə birləşdirən bir sistem kimi baxılır.

Uçot məlumatları üzrə ümumiləşdirilmədən danışdığımız zaman burada əsas diqqət məlumatların dəqiqliyə və etibarlılığa cavab verməsi hesab edilməsidir. Etibarlı məlumatları emal edərkən və ya hesablayarkən, edilən hesablamalarda səhvlər istisna edilir, buna səbəb isə bütün hesablamaların daxili alqoritmlərə əsaslanmasıdır. Səhvlər yalnız məlumatları daxil edərkən və ya müəssisədəki kompüter sistemini işlətdiyimiz zaman düzgün texnologiyadan istifadə edərsək görünə bilər. Bununla bərabər, hesabat dövrü ərzində mənbə məlumatlarına düzəlişlər etmək çətin deyil, çünki hesabat dövründəki bütün məlumatlar düzəliş üçün hazırdır, nəticələr istənilən və ya lazım olduğu dövr üzrə yenidən hesablana bilər. Qoyulan məhdudiyyətlər isə yalnız bu düzəlişləri həyata keçirən vəzifəli şəxslərin səlahiyyətlərinə tətbiq edilir. (Палий В.Ф., 2010: с. 51)

Sintetik yaxud analitik uçot registrləri subhesablar, hesablar, analitik uçot obyektləri haqqında ümumiləşdirilmiş məlumatları özündə birləşdirir. Buna görə də, onlar meydana gəldikdə, hər hansı bir avtomatlaşdırılmış mühasibat sistemi etimadnamələrin ümumiləşdirilməsi üçün xüsusi bir prosedur təmin edir.

Ümumiləşdirlmiş uçot məlumatları üzrə göstərilən etimadnamədə toplama aparılır:

- obyekt əsaslı əsas vəsaitlərin uçotu,
- subyektlərin uçotu, maddi dəyərlər üzrə verilən kəmiyyət uçotu,
- hesablamalar zamanı qruplaşdırmada olan göstəricilərin inventarı,
- nomenklatura və personal sayı və
- analitik uçot obyektləri səviyyəsində tələblər,
- sintetik və analitik uçot və tərkibi,
- müəyyən edilmiş hesabatların verilməsi kimi bütün məlumatları təmin edir.

Ümumiləşmənin yaradılması - bu dövriyyənin xülasəsidir və hesablarda subhesablar və analitik hesablardakı qalıqları özündə birləşdirir. Bunun üçün analitik uçot layihələri və onunla bağlı prosedurlar da bu cür hesablanır. Əgər haqqında danışdığımız bu sistem valyuta uçotunun ümumiləşdirməsini aparırsa, o zaman: həm xarici valyuta vahidində, həm də ekvivalentdə milli valyuta işlənilir. Bu sənədləri ümumiləşdirmək hesablarda, subhesablarda və analitik hesablarda dövriyyə və qalıqların nəticələrinin əldə edilməsidir. Kəmiyyət uçotunun verildiyi analitik uçot obyektləri üçün qalıqların nəticələri də mütləq hesablanır.

Avtomatlaşdırılmış sistemlər üzrə əldə edilən məlumatlarda mühasibat uçotu ilə bağlı olan qeydlər tam standart şəklində təqdim edilir. Bu hesabat dövrü ərzində mühasibə bir sıra imkanlar verir: müxtəlif bölmələrdə məlumatların təhlil edilməsi; səhvləri axtarmaq; tez bir zamanda müəssisəni maraqlandıran məsələni tapıb formalaşdırmaq; uçot aparılma prosesinə nəzarət etmək kimi fəaliyyətləri həyata keçirmək;

Rasional şəkildə qurulmuş mühasibat uçotunda ümumiləşdirmənin əsas vəzifələri:

▪ ilkin sənədlərin yoxlanılması;

▪ qruplaşdırılma və qeydiyyat əsasında fəaliyyət haqqında zəruri məlumatların əldə edilməsi;

▪ ilkin məlumatların hazırlanması;

▪ uçot registrlərində işləmənin zəruriliyi;

▪ uçot sənədlərində göstərilən işçilərin məhsuldarlığının artırılmasına yönəlik işlərin aparılması;

▪ uçot və ümumiləşdirmə zamanı qəsdən yaxud bilərəkdən əmələ gələn səhvlərin sayını azaltmaq; hesab edilir.

Mühasibat uçotu üzrə danışdığımız vaxt mövcud olan uçot məlumatlarından istifadə zamanı ümumiləşdirilmə proqramının əsas mühasibat proqramı olmasına nail oluruq.

Müasir dövrdə bank və digər xidmət müəssisələrində avtomatlaşdırılmış məlumat uçot sistemləri (AUMS) proqramının yaradılması, quruluşu və fəaliyyət xüsusiyyətləri, təhlil və audit prinsipləri nəzərdən keçirilir. AUMS proqram alətlərinin qurulması anlayışlarında fərqlər açıqlanır, təsnifat verilir. Kompüter mühitində mühasibat uçotunun təşkili və texnologiyası, AUMS-də mühasibat sisteminin modelləri, sənədlərin idarə edilməsi və sənədlərin işlənməsi sxemləri, işgüzar əməliyyatlar üçün mühasibat uçotu sənədlərinin yaradılması və uçot məlumatlarının ümumiləşdirilməsi, çıxış məlumatlarının xüsusiyyətləri, hesabat dövrünün bağlanması və hesabat dövrü məsələlərinə (daxili struktur prosesləri) çox diqqət yetirilmişdir.

Bu proqram əsasında çox istifadəçili sistemlərin yaradılması və istismarı qaydaları açıqlanıb. Ümumiləşdirilmiş məlumatlar mühasibat, təhlil, auditin avtomatlaşdırılması üçün proqram məhsullarının geniş bazasının təhlilinə əsaslanır. Proqram vasitəsilə işini davam etdirən istifadəçi çox az bir müddət ərzində mühasibat məlumatlarını ümumiləşdirə və istənilən bir sənəddə göstərmək imkanına malikdir.

AUMS-nin informasiya prosesində, məlumatın konvertasiyası üçün müəyyən prosedurlar da daxil olmaqla üç mərhələyə ayrılır:

1. Birinci mərhələdə məlumatların məcmusu, qeydiyyatı, emala verilməsi, saxlanması, yığılması və işləməyə hazırlanması həyata keçirilir. Bu mərhələ iş əməliyyatının sənədləşdirilməsi və maşın məlumat bazasının yaradılması adlanır.

2. İkinci mərhələdə hesabat sənədlərinin işlənib hazırlanması, hesabat dövrü üzrə onların sistemləşdirilməsi, bundan başqa analitik və sintetik uçot registrlərinin formalaşdırılması, habelə mühasibə müəssisəyə məxsus əmlaka nəzarət etmək və müəssisənin xidmət və maliyyə fəaliyyətlərinin uçotunu dəqiq əks etdirməyə imkan verən proseslər üzrə tərtiblər daxildir. Bu mərhələ etimadnamələrin ümumiləşməsi və uçot registrlərinin formalaşması adlanır. Burada müəsssisə üçün vacib məlumatların axtarışı, kateqoriyaya bölünməsi və qruplaşması, onların hesablar üzrə işlənməsi, görüntülənməsi və təkrarlanması prosedurları yerinə yetirilir.

3. Üçüncü mərhələdə etimadnamə ilə işləmə fəaliyyəti həyata keçirilir. Bu prinsiplər dövr üzrə ayın sonu yaxud hesabat dövrü ərzində, şirkətin maliyyə vəziyyəti, hesabat dövrü üçün mühasibat nəticələri haqqında istənilən bir fikir əldə etməyə imkan verən tənzimlənən və mühasibat hesabatlarının formalaşdırılması ilə əlaqələndirilir. Bundan başqa, bu mərhələdə statistik hesabat, vergi və büdcədənkənar fondlar üzrə hesabat tərtib olunur. Üçüncü mərhələ hesabat dövrünün sonu, uçot və digər xarici hesabatların formalaşması adlanır. Məhz bu mərhələ xüsusilə müəssisədə illik maliyyə hesabatlarını və onu təhlil edən, müəssisənin işi, maliyyə sabitliyi və ödəmə qabiliyyəti ilə əlaqədar nəticə çıxaran əcnəbi istifadəçilər üçün vacib məlumat mənbəyidir. Məlumatlar onu təhlil və ifadə edən mühasibat işçilərindən əlavə daxili istifadəçilər üçün də mövcuddur.

Ümumiləşdirilmə aşağıdakı aspektlər əsasında tərtib olunur: sənədləşdirmə; inventar; qiymətləndirmələr; maya dəyəri; hesablar; ikili yazış; maliyyə hesabatı; maliyyə vəziyyəti haqqında hesabat;

• Sənədləşdirmə danışdığımız prosesin başlanğıcı hesab edilir.

• İnventarizasiya uçot məlumatları daxilindəki vəsaitləri, aktivləri və onların qalıqlarını müəyyənləşdirir, sayır, ölçür və qiymətləndirir.

• Qiymətləndirmə hesabına uçot məlumatlarında qeyd edilən vəsaitlərin alınması və bərpası üzrə faktiki xərcləri görə bilərik.

• Maya dəyəri xərclənən vəsaitin pul şəklində göstərilməsidir.

• Hesablar iqtisadi amillər sayəsində mühasibat uçotu vəsaitlərində baş verə biləcək hansısa dəyişikliyi əks etdirən müşahidə obyektlərinin iqtisadi üsulu kimi izah edilir.

• İkili yazılışın iş fəaliyyətinin əsas vəzifəsi fəaliyyət zamanı əməliyyatlarda ikili əks olunmaqdır: hesab üzrə həm debet, həm kredit baxımından.

• Maliyyə vəziyyəti haqqında hesabat hesablar və ikili yazılış metodları vasitəsilə məlumatların ümumiləşdirilməsi və onların növünə görə tərkibini müəyyyən edən üsuldur.

• Maliyyə hesabatı - maliyyə vəziyyəti haqqında hesabatdan, mənfəət və zərərin məcmu hesabatından, pul vəsaitlərinin hərəkəti hesabatı, kapitaldakı dəyişikliklər haqqında hesabat, alınan vəsaitlərin məqsədli istifadəsi haqqında hesabat və izahlı qeyddən, habelə təşkilatın maliyyə hesabatlarının düzgünlüyünü təsdiqləmiş audit hesabatından ibarətdir.

Uçot sənədlərini ümumiləşdirmək subhesablarda, hesablarda və analitik hesablarda dövriyyə və qalıqların nəticələrinin əldə edilməsidir. Altsistemə aid olan məlumat bazasında yerləşən uçotun sistemləşməsi və ümumiləşdirilməsi avtomatik şəkildə mütləq olaraq kompüterdə aparılır və çıxış sənədində göstərilir. Eyni zamanda, sistematik və xronoloji qeydlərin uyğunluğuna avtomatik formada nəzarət təmin edilir. Buna görə də hazırlanan cədvəllərdə planın tətbiqi zamanı dövri mühasibat məlumatlarının yazılması ümumiləşdirilmənin dövri hesabatı adlanır. (Палий В.Ф., 2010: с. 89)

Banklarda və digər sırf mühasibatlıq üzrə fəaliyyət göstərən xidmət müəssisələrində mühasibat uçotunun mərkəzləşdirilməsi ilə mühasibat uçotu məlumatlarının ümumiləşdirilməsi, müasir mühasibat uçotunun mexanizasiyası və avtomatlaşdırılması vasitələrindən istifadə etməklə mühasibat işçilərinin işini səmərəli təşkil etməyə imkan verən əsas uçot şöbəsində baş verir. Mühasibat uçotunun mərkəzləşdirilməsi kiçik, orta və hətta böyük təşkilatlarda da istifadə olunur.

Uçot məlumatlarının ümumiləşdirilməsinin bir sistem daxilində olması, ona yerinə yetirilməsi vacib olan mühüm vəzifələr verir:

**Sxem 9: Optimal təşkil olunmuş ümumiləşdirmənin vəzifələri**




**Mənbə:** Палий В.Ф., (2010), c. 22 istifadə edilərək müəllif tərəfindən hazırlanmışdır.

Ümumiləşdirilmənin hər səviyyəsinin vəzifəsi hər bir göstərici ilə əlaqəli çıxış vərəqələrinin siyahısını yaratmaq, hesabat proqramlarında göstərilən kateqoriyaların ciddi formada unifikasiyası və tənzimlənməsini təmin etməkdir. Ümumilikdə hesabat proqramlarında bu cür sənədlərin ümumiləşdirilməsi zamanı düzgünlüyü müəyyənləşdirmək üçün ən vacib nəzarət metodu: hesabat məlumatlarının kəmiyyət baxımından ümumi cəminin, yoxlama siyahısının və ya onu əvəzləməyə qadir digər idarəetmə aspektlərinin yaranması prosesində əldə edilən nəticə arasında uyğunluğu tapmaqdır. Nəzarət aparıldıqdan sonra ortaya çıxan nəticələr əl ilə yaxud avtomatik yoxlanılmış nəzarət poqramlarının nəticələrinə əsasən yaradılır. Yoxlama jurnallarının məzmunu və formaları yoxlanılacaq kateqoriyalar üzrə ümumi nəzarət məlumatlarının toplanmasını nəzərə alınmaqla hazırlanır.

Mühasibat uçotu üzrə ümumiləşdirilmənin formaları daim təkmilləşdirilir. Müasir proqressiv forma müəssisənin idarəsi məqsədilə iqtisadi göstəricilərin yerində və tam şəkildə alınmasını təmin edən, ilkin məlumatların emalında mühasiblərin məhsuldarlığını artıran, uçot məlumatlarının qeydiyyatı və ümumiləşdirilməsindəki səhvlərin sayını azaldan belə bir forma hesab olunur. Bununla bərabər daxilində minimum əmək və mühasibat xərcləri təmin edilir.

## 2.3. Xidmət sferasında iqtisadi təhlükəsizliyin idarə edilməsi üçün xüsusi bölmənin təşkili

Biz müəssisə üzrə baş verə biləcək iqtisadi təhlükəsizlik və bu prosesin idarə edilməsi məsələlərinə toxunduq. Amma bu məsələlərdən danışarkən ən vacib hissəni təşkil edən idarəedici və ya təşkiledici hesab edilən xüsusi bölmə, yəni şöbə haqqında məlumat verməmişdik. Müəssisə üzrə təmin edilən iqtisadi təhlükəsizlik və onunla əlaqədar olan proseslər bəhs edəcəyimiz bu şöbədə baş verir. Bu şöbə həm nəzəri fikirlərin, həm də praktiki məsələlərin həlli üzrə fəaliyyət göstərir. Xüsusi şöbənin fəaliyyəti, vəzifələri, hüquqları və gələcək üzrə planlaşdırılmış işləri haqqında danışaq.

İlk öncə onu deməyimiz yerinə düşər ki, əvvəldə də dediyimiz kimi iqtisadi təhlükəsizlik fəaliyyətində baş verə biləcək hər hansı səhvin olması nəticəsində böyük problemlərə yol açıldığından, bu şöbədə hər bir məsələ qanun çərçivəsində həyata keçirilir. Təbii, bu kimi halları nəzərə alaraq müəssisələrə, onların bölgələr üzrə yerləşən filiallarına, təşkilatlara qərarlar, qanunlar və göstərişlər verilir.

Fəaliyyətinin mürəkkəbliyinə görə digər bölmələrdən fərqlənən, idarəetmə üzrə xüsusi bölmənin əsas prinsipi müəssisə üçün nəzarət predmeti və onunla əlaqəli olan bir neçə səviyyənin təşkilidir. Xüsusi bölmə bir-birilə qarşılıqlı əlaqədə olan xüsusi komponentləri özündə birləşdirir. Daha sonra ona oxşar alt sistemlər gələcək səviyyələrdən müəyyən bir səviyyəyə qədər fəaliyyətini davam etdirir. Bununla da, idarəetmə sistemi bir neçə səviyyədən ibarət olur və sistemli iyerarxiya formasında təşkil edilir.

Hər bir müəssisə üzrə idarəetmə bölmələri eyni quruluşa malik olur, ancaq onlar arasındakı əsas fərq müəssisənin gələcək üzrə qarşısına qoyduğu hədəf, nəticə və onların funksionallığıdır. Müasir dövrümüzdə idarəetmə bölməsinə üzrə iki yanaşma mövcuddur.

Əsas xarakterik xüsusiyyətləri isə mürəkkəblik, düzgünlük, dinamizm, hadisələrin baş vermə ehtimalının müəyyənləşdirilməsi amili, özünütəşkil etmək qabiliyyəti, qərar qəbul etmək səlahiyyətinə qadir olan alt sistemlərlə qarşılıqlı əlaqənin bərpası, hesab edilir.

**Cədvəl 3: Funksional-modul və obyektyönümlü yanaşmalar, onların xarakteristikaları**

| *Prinsiplər* | *Müsbət cəhətlər* | *Mənfi cəhətlər* |
|---|---|---|
| *Funksional-modul* | Müəssisə üzrə baş verə biləcək risk və ya təhdidləri proqnozlaşdıra və qarşısını almaq üçün bir sıra şərtlər irəli sürə bilər. | İdarəetmə sisteminin işlənməsi zamanı eyni prinsipli sistemlərdən ibarət olduğundan tez-tez baş verən təşkilati təsir ona müdaxilə edə bilər. Bu sistemdə nəzarət optimal işləmir. |
| *Obyektyönümlü* | Xüsusi bölmə müstəqil formada fəaliyyət göstərir. Müəssisədə əməliyyatların dinamikasını və tənzimlənməsini təşkil edir. | Hər bir struktur elementi sərbəst işləməsinə baxmayaraq idarəetmə mərkəzi tərəfindən izlənilir, lazım gəldikdə fəaliyyəti məhdudlaşdırılır. |

**Mənbə:** Мясникович М.В., Полоник С.С. və Пузиков В.В., (2006), "Управление системой обеспечения экономической безопасности", с. 77

Hər iki idarəetmə prinsipi xüsusi bölmə üzrə aşağıdakı əməliyyatları yerini yetirir:

- ❖ qarşıya qoyulan məqsədə çatmaq;
- ❖ inteqrasiya prosesləri üzrə prioritetlərin müəyyənləşdirilməsi;
- ❖ sistemin düzgünlüyünün və stabilliyinin xarakterizə edilməsi;
- ❖ situasiyalı yanaşma ilə vaxtdan və məkandan lazımı formada istifadə;

Xüsusi bölmənin idarəetmə fəaliyyəti üzrə vəzifələri idarəetmənin ümumi məqsədini göstərərək iqtisadi təhlükəsizliyi zəiflədən mənfi tendensiyaları müəyyənləşdirmək, müəssisənin iqtisadi təhlükəsizliyinə təhdidlərin baş verməsini müəyyən edən amillərin monitorinq sistemini yaratmaq və saxlamaq, müəssisə iqtisadiyyatının sabitliyini və təhlükəsizliyini azaldacaq amillərin təsirini aradan qaldırmaq üçün tövsiyələr hazırlamaqdır. (Мясникович М.В., Полоник С.С. və Пузиков В.В., 2005: с. 78)

Yerli banklarda iqtisadi təhlükəsizliyin xüsusi bölməsinin təşkili zamanı əsas funksiyalar:

- ◆ müəssisənin iqtisadi təhlükəsizliyinin səmərəli fəaliyyətinin təmini üçün daxili prioritet sahələrin müəyyən edilməsi;
- ◆ müəssisənin iqtisadi təhlükəsizliyi üzrə mövcud şəraitin qiymətləndirilməsi;
- ◆ gələcək üçün proqnozlaşdırılan potensial təhdidlərin təhlili;

◆ iqtisadi təhlükəsizliyi təşkil edən vasitələrin hazırlığının daimi müddətdə qorunması;

◆ iqtisadi təhlükəsizliyin metodiki, təşkilati və digər fəaliyyətlərinin təşkili; hesab edilir.

Müəssisə rəhbərliyinin iqtisadi təhlükələrə qarşı təşkil edilən idarəetmə bölməsinə aşağıdakı tələblərə əməl etmək irəli sürülür:

- təhlükələrin səviyyəsinin, xarakterinin və intensivliyinin müəyyən edilməsi;
- təhlükələrə qarşı qorunmanın təşkilindən və effektivliyindən asılı olaraq mövcud iqtisadi təhlükəsizliyin təmin edilməsi;
- potensial və real təhlükələr barəsində tam və etibarlı informasiyalarla bağlı qərarların qəbul edilməsi;
- iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədilə taktika və strategiya hazırlamaq;
- məlumat çatışmazlığı olsa belə optimal qərarvermə qabiliyyətinə malik olmaq;
- idarə və nəzarət kimi altsistemləri özündə birləşdirməsi və ümumiləşdirilmiş bir sistem yaratması;
- mərkəzləşdirilmiş və müstəqil bir sistem olduğundan fəaliyyət ilə bağlı funksiyalarını yerinə yetirdikdən sonra rəhbərliyə hesabat verilməsi; (Мясникович М.В., Полоник С.С. və Пузиков В.В., 2005: c.137)

İdarəetmə üzrə xüsusi bölmənin əsas hədəfi müəssisənin iqtisadi təhlükəylə bağlı proplemlərinin qarşısını almaqdır. İdarəetmə bölməsi üçün hədəflər heç vaxt tükənmir. Əsas məsələ hər baş verən prosesi keyfiyyətli şəkildə sona çatdırmaqdır. Xidmət müəssisələri isə həmin idarəetmə bölməsi üçün iqtisadi və dinamik maraqları mütərəqqi formada təmin edirlər.

Buna görə də bölmə risk və təhdidlərlə bağlı müəssisə rəhbərlərinə tam və etibarlı informasiyalar verir, vəziyyətlə bağlı dəyişikliklərə effektiv uyğunlaşır. İdarə və nəzarət kimi altsistemləri özündə birləşdirməsi onun ümumiləşdirilmiş bir sistem olmasına gətirib çıxarır.

Banklarda və digər müəssisələrdə xüsusi bölmənin idarəetmə fəaliyyəti xidmət sferasındakı müəssisənin iqtisadi təhlükəsizliklə əlaqədar bir sıra vəzifələri özündə birləşdirir.

**Sxem 10: Xüsusi bölmənin müəssisədaxili və müəssisəxarici vəzifələri**




**Mənbə:** Вахруков С.А., (2018), "Об управлении экономической безопасности Правительства области ", с.9 istifadə edilərək müəllif tərəfindən hazırlanmışdır.

Ölkəmizdəki yerli və xarici bankların xüsusi bölməsi kapital və öhdəliklərin, habelə istiqraz kreditlərinin verilməsi, öhdəliklərin lazımi şəkildə yerinə yetirilməsinin təmini, işgüzar şirkətlərin nizamnamə kapitalı üzrə müqavilələrini, o cümlədən bu müqavilələrə dəyişikliklər edilməsi barədə əlavə sazişləri bilavasitə izləyir. Xüsusi bölmənin yalnız müəssisə üçün yox, hətta bölgə üçün önəmli fəaliyyətini vurğuladıq. Belə ki, xüsusi bölmə bölgə iqtisadiyyatı üçün strateji müəssisələrin, dövlət müəssisələrinin, müqavilə əlaqələri olan kommersiya banklarının iqtisadi vəziyyətinin ilkin qiymətləndirilməsi və sonrakı monitorinqinin aparılması kimi işləri görür. Bundan əlavə onun idarəetmə səlahiyyətləri sahəsində lisenziyalaşdırma fəaliyyətinin, hüquq-mühafizə, nəzarət və nəzarətin inkişafı xərcləri baxımından müəssisə büdcəsinin formalaşdırılması və tətbiqi ilə əlaqədar təkliflərin hazırlanması kimi fəaliyyəti də mövcuddur.

İqtisadi təhlükələrə yol verməmək üçün xidmət sferası müəssisələrinin xüsusi bölməsinin tədqiqat və təhlil üzrə işləri aşağıdakılardan ibarətdir:

◆ müəssisənin yenidən qurulması, nizamnamə kapitalının həcmi ilə bağlı dəyişikliklər, işçi heyətinin tərkibi, təşkilati struktur, idarəetmə orqanlarının aktları,

təsis sənədlərinin məzmunu, daxili və xarici münasibətlər, payları (nizamnamə kapitalındakı paylar) ilə bağlı ziddiyyətlər və mübahisələr, müəssisə iqtisadiyyatının vəziyyətinə əhəmiyyətli səviyyədə təsir göstərə bilən digər müəssisələr haqqında məlumatların hər birini özündə birləşdirməsi;

◆ işçi heyətinin müəssisədə iqtisadi fəaliyyətini həyata keçirən zaman problemlər qarşısında istifadə etdikləri qeyri-qanuni metodlar haqqında müəssisə rəhbərliyini məlumatlandırmaq;

◆ korporativ qarşıdurmanın xarakterik xüsusiyyətlərinin müəyyənləşdirilməsi və digər təşkilatlarla münasibətdə onların mövcudluğunun araşdırılması;

◆ müəssisə iqtisadiyyatına mənfi formada təsir göstərmə ehtimalı ola biləcək korporativ qarşıdurmalar haqqında müəssisə rəhərliyinə məlumat vermək;

◆ iqtisadi təhlükə ehtimalının qarşısını almaq üçün qabaqlayıcı iqtisadi, təşkilati, məlumatlandırma, məsləhət, hüquqi və bu tip digər tədbirlər toplusu işlənib hazırlanması;

◆ iqtisadi təhlükənin müəyyən vəziyyətə uyğun həll edilməsi üçün elementlər sisteminin işlənməsi və həlli üzrə fəaliyyət planının hazırlanmasında iştirakı;

◆ müəssisədə işini layiqincə yerinə yetirə bilməyən işçilərin hərəkət və qərarlarının təsdiq edilmiş fəaliyyət planından yayınmasına, habelə qanunvericiliyin və digər normativ aktların, müəyyən edilmiş fəaliyyət sahəsindəki münasibətlərin iqtisadi maraqları tənzimləyən qanuni sənədlərin tələblərinə və uyğunluğuna nəzarət etmək; (Вахруков С.А., 2018: с.10)

Fəaliyyəti sığorta, turizm, otelçilik ilə bağlı olan yerli xidmət sferası müəssisələrimizdə xüsusi bölmənin investisiya fəaliyyətinə nəzarət və tənzimləmə sahəsində ona həvalə edilmiş funksiyaları həyata keçirmək əməliyyatı ilə bağlı aşağıdakılara diqqət yetirilməlidir: potensial investisiya layihələri üzrə şərtlərin müəssisənin iqtisadi maraqlarına uyğunluğu; müəssisənin potensial investisiya layihələrinin həyata keçirilməsi zamanı iqtisadi maraqların optimal uçotu və qorunması baxımından, o cümlədən büdcə vəsaitlərinin formalaşması və xərclənməsi baxımından iştirakının məqsədəuyğunluğu; müəssisənin investisiya layihələrinə mərkəzləşdirilməmiş xarici maliyyələşdirmə mənbələrinin cəlb

edilməsinin hüquqi, iqtisadi, və digər riskləri, habelə belə cəlb edilmə zamanı gözlənildiyi şərtlər;

Xüsusi bölmə iqtisadi təhlükəsizlik sahəsində təyin edilmiş funksiyaları həyata keçirmək üçün bir sıra idarəetmə üsullarından istifadə edir. Bu üsullar hesabına xüsusi bölməyə aşağıdakı hüquqlar verilir:

- təqdimat sənədlərinin, idarəetmə orqanları aktlarının, təşkilati quruluşun, daxili və xarici münasibətlərin, xidmət sferası müəssisələrində nizamnamə kapitalındakı paylara münasibətdə ziddiyyət və mübahisələrin mövcudluğu üzrə təhlilin aparılması fəaliyyəti;
- problemlərin həlli üçün təsdiq edilmiş tədbirlər planının, qanunvericiliyin və digər normativ aktların tələblərinin göstərilən fəaliyyət sahəsindəki münasibətlər ilə uyğunluğunu təmin etməklə bağlı fəaliyyəti;
- nizamnamə kapitalındakı dəyişikliklər, təsis sənədlərinin məzmunu, şirkətlərin idarəetmə orqanlarının strukturu və səlahiyyətləri, səhmlərinin tənzimlənməsi məsələlərini araşdırılması üzrə fəaliyyəti;

İqtisadi təhlükələrə şərait yaratmamaq üçün ölkəmizdəki müəssisə rəhbərlərinin öz şirkətləri daxilində yer alan xüsusi bölməsinin aşağıdakı qaydalara əməl etməsi vacibdir:

- ➢ tədbirlərinin növləri, müddəti, tətbiqi qaydaları barədə qərar layihələrini hazırlamaq;
- ➢ qaydaya uyğun olaraq səlahiyyətlərinə və gördükləri işlərə aid əməl edəcəkləri qanun layihələrini oxumaq və onları tətbiq etmək;
- ➢ öz səlahiyyətləri daxilində təlimat, tövsiyə və qeyri-normativ xarakterli digər sənədlərin, şöbənin işini tənzimləyən daxili sənədlərin hazırlanması və dərc edilməsi;
- ➢ idarənin səlahiyyətlərinə aid məsələlərə dair qanunun tələblərinə uyğunluğunun yoxlanılması üçün həmin orqanlara təklif göndərmək;
- ➢ səlahiyyətlərinin lazımi dərəcədə yerinə yetirilməməsi səbəbindən müəssisənin iqtisadi təhlükəsizliyinə təhdid olduqda, o cümlədən korrupsiya

əlamətləri, vəzifəli şəxslərin vəzifələrindən sui-istifadə halları olduqda icra hakimiyyəti və ayrı-ayrı vəzifəli şəxslərə təkliflər vermək;

- verilən səlahiyyətlərə uyğun olaraq və müəyyən edilmiş qaydada müəssisənin maraqlarını məhkəmədə təmsil etmək;
- əvvəlcədən razılaşdırılaraq rəhbərliyin səlahiyyətlərinə aid olan mövzularda iclasların, konfransların, seminarların təşkili;

Əksər hallarda sığorta kimi müəssisələrdə iqtisadi təhlükəsizlik üçün xüsusi bölmə idarəetmə səlahiyyətlərinə aid problemlərin həlli üçün ekspert və məsləhətçi işçi komissiyalarının, qrupların yaradılmasına önəm verir. Bölmənin işində digər dövlət orqanlarının mütəxəssislərinin, habelə bələdiyyələrin yerli özünüidarəetmə orqanlarının mütəxəssislərinin iştirakına şərait yaradılır. Xüsusi bölmənin məlumat bazalarında, o cümlədən elektron və kağız mediada və tətbiq olunan qanunla nəzərdə tutulmuş hallarda istifadə üçün müvafiq icazə mövcuddur. Belə ki, idarəetmə səlahiyyətlərinə aid məsələlər üzrə məlumat sistemi yaradılmışdır. İdarəetmə səlahiyyətlərinə aid problemləri həll etmək üçün könüllü və ya müqavilə əsasında mütəxəssislər, elm adamlarının və digər müstəqil mütəxəssislər cəlb edilir. Bu da iqtisadi təhlükəsizliyin təşkili üçün çox vacib amildir. Xüsusi bölmə iqtisadi təhlükələri nəzərə alaraq müəssisə üzrə sənədlərin etibarlılığına, onların saxlanma müddətinə əməl olunmasına, iş üzrə təşkil edilən sənədlərin vaxtında hazırlanmasına və müəyyən edilmiş qaydada arxiv orqanlarına təhvil verilməsinə cavabdehdir. İdarəetmə işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, intizam tənbehlərinin tətbiq edilməsi və bu barədə təkliflər verilməsində əsas səlahiyyətə malik bir bölmədir. Xüsusi bölmə hətta idarə rəhbərliyində işçilərin gündəlik qaydalarının, iş qaydalarının, ofis sənədləri ilə işləmə qaydalarının yerinə yetirilməsini təmin edir. Xüsusi bölmələrimiz idarəetmə səlahiyyətlərinə aid olan məsələləri rəhbərliyin hazırladığı tövsiyələri, metodiki və digər sənədləri təsdiq edir.

Ölkəmizin müəssisələri qanuni aktlara uyğun olaraq xüsusi bölmənin idarəetmə funksiyalarını yerinə yetirmək üçün lazım olan səlahiyyətləri həyata keçirir. O cümlədən kadr ehtiyatının formalaşdırılması, kadrların seçilməsi, yerləşdirilməsi, yenidən hazırlanması və ixtisasartırma təhsili ilə bağlı məsələləri həll edir.

# FƏSİL III. İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNDƏ İDARƏETMƏ QƏRARLARININ QƏBUL OLUNMASI ÜZRƏ UÇOT-ANALİTİK MƏLUMATLARIN FORMALAŞDIRILMASI METODİKASININ İNKİŞAFI

## 3.1. İqtisadi təhlükəsizliyin təmin edilməsinin tədbirlər sistemində idarəetmə uçotu

İqtisadi təhlükəsizlikdə idarəetmə uçotunun əsas prinsipi müəssisə rəhbərinin düzgün qərar verməsi üçün ona məlumat bazasını təqdim edilməsi hesab edilir. İdarəetmə uçotunu fərqləndirən əsas xüsusiyyət onun müəssisədaxili fəaliyyət üçün nəzərdə tutulmasıdır. Xidmət müəssisəsi idarəetmə uçotu məlumatları hesabına daxili işin planlaşdırılmasını, müəyyən qərarlar qəbul edilməsini və optimal fəaliyyəti təmin edir. Belə ki, idarəetmə uçotu hesabına müəssisə baş verə biləcək gələcək fəaliyyətlər üzrə proqnoz xarakterli məlumatlar vermə qabiliyyətinə malikdir. İqtisadi təhlükəsizlik üçün doğruluğu böyük önəm kəsb edən maya dəyərinin hesablanması, daxili kontekstlə əlaqədar qərar verilməsi, büdcə ilə bağlı proqnozların təqdim edilməsi idarəetmə uçotunun əsas aspektləri hesab edilir. İdarəetmə uçotu idarəetmə prosesləri ilə bağlıdır. (Səbzəliyev S.M, Quliyev V.M., s. 35, 2018)

İqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından idarəetmə uçotunun böyük rol oynamasının əsas səbəbi onun mövzu ilə əlaqədar olan məlumatların əldə edilərək qərarların verilməsi məsələlərini özündə birləşdirməsidir. İdarəetmə uçotu üzrə tədbirlərin aparılması iqtisadi təhlükəsizlikdə planlama, uçot, tənzimləmə və təhlil işləri baxımından önəm daşıyır. Ona görə də ölkə daxilindəki bank sektoru müəssisələrində iqtisadi təhlükəsizliyin təmin edilməsi zamanı idarəetmə uçotu üzrə aşağıda qeyd edilən funksiyaları yerinə yetirməyə çalışılmalıdır: müəssisənin göstərdiyi xidmətlərdə əldə etdiyi gəlirlər və xərclərin müəyyən edilməsi; müəssisə balansı üzrə strukturun hesablanması; müəssisənin xidmət fəaliyyəti ilə bağlı son nəticə üzrə təhlilin aparılması; proqnozlaşdırılan və cari məlumatlar arasındakı müqayisənin aparılması;

Bank və digər mühasibatlıqla əlaqəli xidmət fəaliyyətləri zamanı iqtisadi təhlükəsizliyin idarəetmə uçotu ilə bağlı aparılan bu cür tədbirləri üç istiqamət üzrə qruplaşdırmaq mümkündür:

1. xidmətlərin göstərilməsi ilə əlaqədar dəyərin hesablanması, səmərəli idarəetmə, fəaliyyət üzrə starategiyaların və taktikaların formalaşması məsələləri;

2. müəssisənin fəaliyyəti üzrə əsas tədbirlər sisteminə daxil olan və müəssisədə uçotu, maliyyələşmə prinsiplərini, daha dəqiq müəssisənin mənfəətinin idarəsi məsələsini özündə ehtiva edən idarəertmə nəzarətinin formalaşması;

3. tədbirlərlə bağlı olan vacib qərarların qəbul edilməsi, bu qərarlar hesabına iqtisadi planın qurulması, büdcənin formalaşması və məqsədə çatması məsələləri;

Müəssisənin iqtisadi təhlükəsizliyindən danışdığımız zaman idarəetmə uçotu ilə bağlı olan tədbirlərə böyük diqqət ayrılır. Çünki idarəetməyə təsir göstərən tədbirlər düzgün formada təşkil edilərsə müəssisəni bir sıra təhdidlərdən, o cümlədən idarəetmə stabilliyini pozan mənfi tendensiyalardan qoruyur. Biz iqtisadi təhlükələrin tənzimlənməsini birbaşa idarəetmə fəaliyyəti ilə əlaqələndiririk. Buna görə də təhlükələrin səviyyəsini azaltmaq üçün vacibdir ki, idarəetmə uçotunun tədbirləri məqsədəuyğun şəkildə təşkil edilsin.

Azərbaycandakı otel şəbəkəsi, turizm sektoru üzrə fəaliyyətini davam etdirən müəssisələr üçün idarəetmə ilə əlaqəli gələcək və cari dövr üçün tədbirlərin siyahısını aşağıdakı şəkildə vermək mümkündür: müəssisədə iqtisadi təhlükəsizlik sisteminin vəziyyətinin yoxlanılması, bir sıra təklif və tövsiyələrin hazırlanması, fəaliyyət prinsipləri üzrə optimallığın yüksək səviyyəyə çatması üçün tədbirlərin təşkil edilməsi; idarəetmə uçotu hesabına aparılan tədbirlərin müəssisənin siyasəti üzrə effektivliyi, kadrların və digər əlaqəli şəxslərin şirkətə bağlılığının və əlaqəsinin yoxlanması; müəssisəni iqtisadi təhlükəsizlik üzrə vahid sisteminin yoxlanılması və risklərin azaldılması ilə bağlı tədbirlər; müəssisənin fəaliyyəti zamanı yaranan borcun struktur baxımından qiymətləndirilməsi və onların sistemli şəkildə, yəni səmərəli formada toplanması üçün tədbirlərin həyata keçirilməsi; xidmət sektoru müəssisələrinin fəaliyyəti zamanı ikiqat diqqət ayırdıqları məlumatların gizliliyinin qorunması və ona icazəsiz girişin qarşısının alınması üçün görülən tədbirlər; iqtisadi

təhlükəsizliyin təmin edilməsi zamanı idarəetmədə keçirilən hər bir tədbir qanunauyğun şəkildə tənzimləndiyindən, hüquq-mühafizə orqanları ilə əlaqəli fəaliyyətin yaranması; (Корзаева Н.Н., 2017, с. 104 )

Müəssisənin iqtisadi təhlükəsizlik sisteminin idarəedilməsi zamanı idarəetmə uçotunun ən vacib tədbirlər siyahısına müəssisə rəhbərliyinin təşkil etdiyi monitorinq spektrini əlavə etməliyik. Belə ki, monitorinq sistemi hesabına iqtisadi təhlükəsizlikdə sektorlararası idarəetmədə disbalans, maliyyə çatışmazlığı, yüksək mobillik və qeyri-sabitliyi aradan qaldırılması üçün işlər görülür.

Monitorinq tədbirinə müəssisədə bəzən statistik müşahidə də deyilir ki, bu da onun idarəetmə sahəsinin mürəkkəb strukturunun daha dərin, əhatəli, optimal şəkildə təhlil etməsi, artan tələbləri ödəməsi hesabına olmasıdır. Monitorinq sisteminin bu qədər dəqiq fəaliyyətinin səbəbi onun işə başlamazdan qabaq müəssisədə idarəetmə uçotu ilə birbaşa əlaqəli olan informasiya və təşkilati mənbə hesabına baza yaratmasıdır.

İdarəetmə uçotu tədbirləri bank, sığorta və başqa xidmət müəssisələrinin göstərdiyi xidmətlər, onların dinamikası və təşkili, baş verə biləcək təsirlərə uyğunlaşma, elmi-texniki vəziyyəti, kapital qoyuluşları, kredit və büdcə məsələlərinə və s. diqqət ayırır. Müəssisənin idarəedilməsi zamanı bir sıra iqtisadi təhlükələr meydana çıxır. Təhlükələri aradan qaldırmaq üçün tədbirlər həyata keçirilməsi vacibdir.

Bu tədbirlərə aşağıdakıları misal göstərə bilərik:

- müəssisənin gələcək üçün planlaşdırdığı təhlükənin və dəyən zərərin həddən çox olması nəticəsində onu təhlükəli şəraitdən çıxarmaq üçün hərtərəfli tədbirlər görülməsi;
- büdcə konsepsiyasının təmin edilməsi tədbirləri;
- idarəetmə uçotu ilə bağlı təhlükələrin hüquqi və normativ qanunvericilik aktları ilə tənzimlənməsi;
- tədbirlərin tətbiq edilməsi ilə bağlı qəbul edilmiş qərarların yenidən ekspertizasının təşkili;

**Cədvəl 4: Müəssisədə iqtisadi təhükəsizliyin təmin edilməsi üçün tədbirlər**

| Əsas tədbirlər | Nəzarət səviyyələri | |
|---|---|---|
| | Müəssisə və dövlətin müəssisəyə yardımları səviyyəsində | |
| Məlumat və analitik tədbirlər | | |
| İqtisadi təhdidlərin dəqiqliklə izlənilməsi monitorinqi | İqtisadi təhdidlərə qarşı aparılan tədbirlərin monitorinqi | Müəssisələrin iqtisadi təhdidlər sonrası inkişaf səviyyələri üzrə monitorinq |
| İqtisadi inkişafın cari və proqnostik qiymətləndirmələri | Cari dövr ərzində iqtisadi inkişafı dəyərləndirmək üçün göstəricilər sistemi | Proqnozlaşdırılmış iqtisadi inkişafı dəyərləndirmək üçün göstəricilər sistemi |
| Tənzimləmə tədbirləri | | |
| Tənzimləmə bazasının və institusional islahatların təkmilləşdirilməsi | Tədbirlər üzrə prezidentin qərarlarının qəbulu | Qanunverici və icraedici orqanların qərarlarının qəbulu |
| Böhran meyllərinin aradan qaldırılması | Ayrı-ayrı müəssiələr üzrə | Bölgədəki müəssisələr üzrə |
| Birbaşa fəaliyyət tədbirləri | | |
| Böhran sonrası bərpa proqramları | Vahid müəssisələr üzrə | Bölgədəki müəssisələr üzrə |
| İnkişaf üzrə dövlət tənzimlənməsi | Məqsədli proqramların hazırlanması və təşkili | Bir sıra fondların yardım məqsədilə cəlb edilməsi |
| Dövlət tərəfindən müəssisələrdə təhdid ola biləcək əməliyyatlara qarşı mübarizə | Maliyyə sisteminin təkmilləşdirilməsi və müəssisənin iqtisadi inkişafa yüksək həddə uyğunlaşdırılması | İqtisadi idarəetmənin optimallığının artırılması |

**Mənbə:** Ильин В.Н., *“Экономическая безопасность в системе национальной безопасности”*, 2016: с.50

Bank kimi xidmət müəssisələrində yarana biləcək iqtisadi təhlükələri daxili idarəçiliklə əlaqələndirməyimiz heç də təsadüfi bir hal hesab olunmamalıdır. Çünki biz iqtisadi təhlükələrin xarici və daxili təsir hesabına yarandığını dediyimiz zaman daxili spektrə böyük yer veririk. Bunun əsas göstəricisi ondan ibarətdir ki, müəssisənin daxili idarəetməsi düzgün və səmərəli formada təşkil olunarsa, o zaman xaricdən də gələ biləcək mənfi tendensiyalar ya müəssisəyə təsir etməz, ya da az təsiri olar. Deməli iqtisadi təhlükəsizliyin təmini zamanı daxili struktura aid

idarəetmə uçotu üzrə tədbirlər planının hazırlanması müəssisənin həm daxili, həm də xarici təsirlərdən qorumaq imkanına malikdir.

Belə ki, ölkəmizdə adını çəkdiyimiz hər bir xidmət müəssisəsinin daxili idarəetməsi tərəfindən təşkil edilməsi lazım gələn tədbirlərinə aşağıdakıları göstərə bilərik: baş verən iqtisadi böhran zamanı onun müəssisəyə vurduğu zərəri aradan qaldırmaq üçün vacib tədbirlərin görülməsi; müəssisələr tərəfindən öz aralarında apardıqları rəqabət zamanı dəyən ziyanın qarşısını almaq üçün təkliflər; iqtisadi çəkişmələr zamanı dəyən zərərlərin qarşısını almaq üçün görülən tədbirlər; bazar iqtisadiyyatına keçid və ya bazar iqtisadiyyatı dövründə yaranan iqtisadi çətinliklər, problemlər zamanı optimal mexanizmin təşkili üçün tədbirlərin aparılması; yuxarıda qeyd edilən xarici təsirlər nəticəsində müəssisədəki innovativ inkişafının aparılması; qoyulan investisiyalar üzrə fəaliyyətin sabitliyi üçün tədbirlərin axsamadan aparılması; Müasir dövrdə Azərbaycanda da texnologiyanın inkişafı, baş verən iqtisadi manevrlər müəssisənin iqtisadi təhlükəsizliyinə bir sıra təhdidlər yaradır. Təhdidlərə: bazar sektorlarında baş verən cinayətlər; müəssisənin işçiləri arasında qanunsuz cinayət təhriflərinə yol vermək; müəssisənin büdcəsi ilə əlaqədar maliyyə fırıldaqçılığı; müəssisənin idarəçiliyi zamanı edilən səhv hesablamalar; zəif qanunvericilik fəaliyyəti zamanı yaranan problemlər; müəssisədə korrupsiya; maliyyə münaqişələri; ortaqların məsuliyyətsizliyi; misal göstərilir.

İqtisadi təhlükəsizlik zamanı beynəlxalq baxımdan inkişaf etmiş xidmət sektoru üzrə fəaliyyət göstərən şirkətlər müasir tədbirlərə daha çox üstünlük verirlər. Belə ki, bu tip ölkələrin yüksək inkişaf etmiş müəssisələri zəiflik və təhdidlər zamanı analitik informasiya monitorinqinin aparılmasına üstünlük verirlər. Bundan əlavə baş verən böhranlar və bu kimi hadisələr zamanı onun qarşısını almaq üçün mövcud vəziyyət nəzərə alınaraq proqnostik və cari dəyərləndirilmə aparılır. Belə hadisələrin bir daha müəssisəyə təsir etməməsi üçün təkliflər hazırlanır. Kənardan müəssisənin idarəetməsi ilə əlaqəli yaranan təhdiləri zərərsizləşdirilməsi və lokallaşdırılması işlərinə önəm verilir. Müəssisə üzə böhran və sanksiya meyllərinin aradan qaldırılması vacib sayılır və yaranacaq vəziyyətə nəzarət etmək üçün bir sıra proqramlar həyata keçirilir.

Müəssisədə idarəetmə uçotu üzrə tədbirlərin rolunun gücləndirilməsinə böyük diqqət ayrılır. Tədbirlərin əsas məqsədi müəssisənin səhv idarəçiliyə təhrik edən təhdidlərin aradan qaldırılmasıdır. Buna görə də hər bir təhdidin baş vermə səbəbi və strukturu müəyyən edilərək iqtisadi təhlükələr hesabına diaqnoz aparılır. Düzdür müəssisələrdə iqtisadi təhlükələr barəsində bir sıra tədqiqatlar aparıla bilər, amma bu tam formada sistemli, daha dəqiq təşkil edilməsi üçün altsistemlərə ayrılan, standart spekulyasiyaya malik olan tədbirlərin yerinə keçə bilməz. (Алиева М.З., 2020: c.16)

İdarəetmə uçotu ilə bağlı olan bir sıra tədbirlər metodu vardır.

**Cədvəl 5: Müəlliflərin metodlar barədə fikirləri**

| Alimlər | Fikirləri |
|---|---|
| Vasiltsev T. | İdarəetmə tədbirləri zamanı qiymətləndirmə, müşahidə, fəaliyyətin analizi, optimallaşdırma metodlarının istifadəsi vacibdir |
| Mişçenko S. | Təhdidlərdən asılılığı müəyyən edilməsi üçün ekstrapolyasiya, sorğu, morfoloji analiz metodlarından istifadəyə üstünlük verilməlidir. |
| Dovbnya S., Gichova N. | Hərtərəfli qiymətləndirməni aparmaq üçün iflasın proqnozlaşdırılması, diskriminant modellər, çoxfaktorlu xətti modellərdən istifadəni ön plana çəkilməlidir. |

**Mənbə:** Сорокина И.В., (2009), “Теоретико-методологические аспекты формирования системы экономической безопасности предприятия”, с. 114-122

Qiymətləndirmə metodları vasitəsilə hazırlanan tədbirlər gələcəkdəki təhdidləri dəyərləndirməyə imkan verir. Bu metodla təşkil edilən idarəetmə tədbirlərində qərar verilməsi zamanı subyektivliyin ön plana çəkilməsi onun əsas çatışmazlığıdır. Səmərəli tədbirlərin hazırlanması zamanı ən münasib metod kimi optimallaşdırma metodu hesab edilir. Bu metod hesabına hər bir mümkün variantı xarakterizə edib dəqiq və düzgün qərarlar verilə bilər. Hər bir şirkət aparılan tədbirlər zamanı gələcək üçün yalnız inkişafı hədəfləyir. Ona görə də tədbirlərin görülməsi, zamanı ekstrapolyasiya metodundan istifadəyə az imkan verirlər. Ekstrapolyasiya metodu müəssisənin bir düz xətt üzrə sabit inkişafını hədəfləyir. Böhran zamanı isə iflasın proqnozlaşdırılması metodundan istifadəyə üsünlük verlir.

Yekun formada onu demək olar ki, hər bir müəllifin tövsiyə etdiyi metodlar münasibdir, sadəcə ilk növbədə ondan müəssisə üçün ən sərfəli olanı seçmək və düzgün formada tətbiq etməyə ehtiyac vardır.

Müəssisə tədbirləri tətbiq etməyə başlamazdan öncə bir sıra göstəricilərə əməl etməsi labüd hesab olunur. Bu göstəricilər onun strukturu ilə bağlıdır.

**Sxem 11: İqtisadi təhlükəsizlik tədbirlərinin təşkili üzrə əməl edilən struktur**




**Mənbə**: Колпаков П.А., *"Система экономической безопасности фирмы"*, 2013, с. 43

Rəhbərlik müəssisədə qərarların təşkili zamanı subyekt kimi çıxış etməlidir. Səmərəli təşkil etmə üçün asan metodlardan istifadə edilməlidir. Təhdidlər barədə məlumatların toplanması fasiləsizlik prinsipinə əsaslanmalıdır. Müəssisənin işi sistemli formaya əsaslanmalıdır. Hər bir işçinin gördüyü iş vahid verilənlər bazasına daxil edilməlidir. Sistem mürəkkəb olduğundan altsistemlərə bölünməsi məqsədəuyğun hesab edilir. Fəaliyyət zamanı əvvəlcədən təyin edilən məqsəd izlənilməlidir..

İstər turizm, istər xidməti ticarət, istərsə də sığorta təşkilatlarının iqtisadi təhlükəsizliyinin təmin edilməsi zamanı aparılan tədbirlər üzrə aşağıda yazdığımız vəzifələr vardır: müəssisənin idarəetməsinin əsasını təşkil edən tədbirlərin ayrı-ayrılıqda təşkili, bununla da tədbirlərin daha tez təsir etməsi və uğurla nəticələnməsinə şərait yaratmaq; edilən tədbirlərin və qərarların müəssisə daxilindəki təsiretmə dairəsi, müəssisənin fəaliyyətini necə əhatə etməsinə diqqət

ayırmaq; Tədbirlər müəssisədə göstərilən xidmətlərin optimalaşdırılması və sərfəli qərarın verilməsinə kömək edir. Gələcəkdəki qiymət siyasətinin formalaşmasını müəyyən edir və bu haqda müəssisə rəhbərliyinə məlumat verir. Tədbirlərin aparılması müəssisə üçün çox vacib amil hesab edilən maliyyə tarazlığına, onun qazandığı mənfəətin həcminə, mövcud şəraitlə əlaqədar qəbul edəcəyi risk fəaliyyətinə toxuna bilər.Yuxarıda da qeyd etdiyimiz kimi, idarəetmə uçotu daxili proseslərlə bağlı olduğundan müəssisənin təşkilati quruluşu, işçilər heyəti və onların malik olduğu bacarıqlar, idarəetmə ilə əlaqədar aparılan işin səviyyəsi və metodları, xidmət bazasının şəraiti kimi məsələlərə böyük önəm verir. Dediyimiz kimi göstərilən bu amillər də idarəetmə uçotunun əsasını təşkil edir və müəssisənin daxili strukturuna əsaslanır. İzah etdiyimiz kimi iqtisadi təhlükəsizlik bir müəssisə üçün nə qədər vacibdirsə, iqtisadi təhlükələri önləmək üçün təşkil edilən qərarlar və tədbirlər də bir o qədər vacib məsələ hesab edilir. Bu barədə aparılan tədbirlər, verilən qərarlar, söylənən tövsiyələr, fikirlər hər biri önəmli xarakter daşıyır. Ancaq iqtisadi təhlükələrin qarşısını almaq üçün edilən tədbirlər hər hansısa bir şəxsin beyninin məhsulu deyil. Təşkil edilən tədbirlər çox ciddi məsələ olduğundan müəssisənin idarəetməsilə bilavasitə əlaqəli olan şəxslər və ya kənardan gətirilən təcrübəli idarəçilər tərəfindən aparılır.

Belə ki, yüksək formada inkişafda olan dünyanın ən öndə gedən xidmət fəaliyyəti ilə məşğul olan şirkətlər bu tip hallarla qarşılaşdığı zaman əvvəlcə komissiya yaradırlar. Azərbaycanda da hər bir müəssisə tərəfindən qərarların, tədbirlərin aparılması birbaşa komissiyaya həvalə edilməsinə başlanılır. Komissiya aşağıdakı fəaliyyəti və prinsipləri özündə birləşdirir: müəssisənin idarəçiliyinə maneə yaradan təhlükələri müəyyənləşdirib, aradan qaldırılması üzrə işlər görür; baş verən hər bir təhlükəyə, müəssisənin problemli əməliyyatlar aparmasına operativ formada reaksiya verir; mərhələli şəkildə baş verən hadisələrə təkliflər verir; sistemli fəaliyyət göstərən təşkilati bir kompleks rolunu oynayır; müəssisənin təhlükəsizlik üzrə idarəetmə qoruyucusu hesab edilir; qorumanın keyfiyyətli təşkili üçün qanunvericiliyə əsaslanır; tədbirlərin davamlı formada icrasını təşkil edir; fikir mübadiləsi apararaq gələcəkdə baş verə biləcək təhlükələrdən müəssisəni xilas

etmək barədə mülahizələr aparır; müəssisənin hərtərəfli fəaliyyəti zamanı sanki onun üçün dəstək mexanizmi rolunu oynayır;

Tədbirlər planı xidmət müəssisələrinin iqtisadi təhlükəsizliyi üçün rəsmi formada status daşıyır. Onun fəaliyyətini təşkil edilməsi müəssisənin əməliyyatlarının hər bir mərhələsində və şöbəsi üzrə sənədlərlə təsdiqlənir. İdarəetmə müəssisənin geniş şəkildə fəaliyyətinin təşkilidir. Ona görə də burada baş verən hər hansısa hadisənin müəssisəyə ciddi və ya geniş formada təsir etməsi normal hal kimi qarşılanır. Əlbəttə ki, bu anlayışı idarəçiliklə məşğul olan şəxslər daha yaxşı anlayırlar. Ona görə də saydığımız tədbirləri hazırlayarkən müəssisə üzvləri hər bir göstəricini nəzərə alırlar. Belə ki, onlar təhlükənin yarandığı şəraiti, xarakteristikalarını, spesifik göstəricilərini, potensialını, müəssisənin ona verdiyi reaksiyasını müşahidə edib, təhlilinə başlayırlar. (Мамаева Л. Н., 2015: с. 59 )

İdarəetmə uçotu üzrə iqtisadi təhlükələrdən qorunmaq üçün aparılan tədbirlərin altsistemləri kəmiyyət qiymətləndirilməsi baxımından təhlükələrin sayı və obyektə vurulan ziyanın həcmini, keyfiyyət qiymətləndirilməsi zamanı iqtisadi təhlükələrin və dəyən zərərin xarakteristikasını, strateji baxımdan qiymətləndirilməsində təşkilati aspektlərini, təhlükələrin müəssisə səviyyəsində yayılma sürəti və təsir etdiyi dövrü, əlavə effektləri və intensivliyi kimi xüsusiyyətlərini özündə birləşdirir.

Ölkəmizdə idarəetmə uçotu səviyyəsində həyata keçirilən tədbirlərin müəssisəyə xeyirli nəticə verməsi üçün aşağıda göstərdiyimiz tələblərə mütləq şəkildə əməl edilməsi lazımdır: tədbirlər hazırlayan şəxs müstəqil düşünməli və heç kimin təsir dairəsinə düşməməlidirlər; tədbirlər yalnız indiki problemləri yox, dövr üzrə proqnozlaşdırılmış gələcəkdəki təhlükələrə də qarşı olmalıdır; qərarlar müəssisənin işinə ciddi mənada zərər vurmamalıdır; verilən qərarlar müəssisənin elmi-texniki işləri ilə paralel formada aparılmalıdır; təklif və tövsiyələri hazırlayan şəxslər onu yüksək şəkildə etmək üçün mütləqdir ki, savadlı və təcrübəli kadrlardan təşkil olmalıdır; iqtisadi mühitin standartlarına uyğun formada təşkil olunmalıdır; hüquqi baxımdan tənzimlənməsinə riayət olunmalı, qanundan kənara çıxılmamalıdır; tədbirlər hazırlanarkən onun təşkilində istifadə edilən, müəssisəyə məxsus məlumatların gizliliyinə fikir verilməlidir;

### 3.2. İqtisadi təhlükəsizliyin təmin edilməsinin tədbirlər sistemində vergi uçotu

İqtisadi təhlükəsizliyin təmin edilməsi zamanı müəssisələrdə aparılan tədbirlər planından danışdıq. Həmin planda əsas vurğulayacağımız tədbirlərdən biri də vergi uçotu üzrə aparılır. Vergi uçotu üzrə əməliyyatlarının əsas məqsədi vergi ilə əlaqəli prosedurları düzgün və etibarlı formada təşkil etməkdir. Vergi uçotu müəssisənin dəyişilməz bir hissəsi kimi hesab edilir. Vergi uçotu ilə əlaqədar olan əməliyyatların yüksək effektivliyinə nail olmaq üçün onunla bağlı olan tədbirləri və vergi planlaşdırılması kimi məsələləri düzgün formada həyata keçirmək lazım gəlir. Vergi uçotu vergi ödəyicisi tərəfindən təşkil edilən, göstərilən vergi üzrə bazanı əmələ gətirən gəlir və xərclərin meydana gəlməsi ilə əlaqədar olan əməliyyatların sənədlərdə qeydiyyatı və sistemləşdirilməsi prinsipidir. Vergi uçotu məlumatları müəssisənin iqtisadi təhlükəsizliyinin rəsmiləşdirilməsi baxımından çox vacibdir. Belə ki, bu tip məlumatlar xüsusi vergi cədvəllərində, müəssisəyə məxsus mühasibat hesabatlarında və digər sənədlərdə əks etdirilir.

Azərbaycanda və digər xarici ölkələrin bir sıra böyük şirkətlərində, o cümlədən turizm, otelçilik və digər xidmətlərlə məşğul olan müəssisələrində idarəçilik zamanı vergi əməliyyatlarının tənzimlənməsi üçün əsas üç göstəricini vurğulayırlar. İlk olaraq vergi uçotu üzrə əldə edilən və ya əldə edilməsi gözlənilən informasiyaların formalaşmasıdır. Bu zaman tədbirlərin təşkili daha az vaxt alır və tez icra edilir. İkinci yanaşma vergi uçotu daxilində hesablama əməliyyatlarının təşkili, üçüncü göstərici isə qarışıqlığa yol verməmək üçün müəssisədə yalnız vergi uçotuna aid edilən uçotun aparılmasıdır. Ümumilikdə müəssisənin vergi uçotunu təşkil edərkən aşağıdakılara əməl edilməlidir: iqtisadi fəaliyyət üzrə məlumatların dəyərləndirilməsi; vergi ilə bağlı əməliyyatların təsnifatı; vergi əməliyyatlarının baş verdiyi tarixlərin müəyyən edilməsi;

İqtisadi təhlükəsizliyin təmin edilməsi vaxtı vergi əməliyyatlarında əməl ediləcək əsas tədbirlər planı da vergi uçotu və nəzarət sistemi əsasında aparılır. Bu iki göstərici tədbirlərin hazırlanması üçün sanki vacib bünövrə rolunu oynayır. İqtisadi təhlükələrə təkan verən və vergi uçotu ilə bağlı olan təhriflərin yaranma vəziyyətlərindən biri də müəssisənin vergi üzrə öhdəlikləri və ya apardığı

əməliyyatları zamanı şirkətin büdcəsində yanlış əks etdirilməsidir. Hətta bu hal son dövrlərdə tədbirlər zamanı yer verilən vacib və aktual məsələlərdən biridir. Ona görə də müəssisə rəhbərindən və ya daxili idarəçilik tərəfindən büdcə üzrə tənzimləmə kontekstində təkliflər verilir. Təkliflər vergilərin büdcədə qiymətləndirilməsi – məbləği və düzgün hesablanması kimi məsələlərdir.

Vergi uçotu üzrə səhvlər bir sıra iqtisadi təhlükələrə şərait yaratdığından, mütəxəssislər vergi uçotunun idarəsi məsələsinə daha həssas yanaşırlar. Əslində bu cür problemlərin baş vermə prinsiplərindən biri də son dövrlərdə iqtisadi proseslərin artması ilə əlaqədar vergi uçotunun mürəkkəbləşməsidir. Buna görə də vergi uçotu tədbirlərində vergi normalarının, strukturunun məhz uçot prinsipləri əsasında öyrənilməsi və ən əsası vergi uçotunun sadələşdirilməsini məqsədəuyğun hesab edirlər. (Майбурова Ю.Б., Иванова М., 2016, 134 с.)

Vergi uçotu tədbirləri aparılmazdan öncə onun baş vermə səbəbləri və onların xarakteristikaları araşdırılmalıdır. Həmin baş vermə proseslərinə və onların izahlarına aşağıdakıları misal göstərə bilərik.

**Sxem 12: Vergi uçotu üzrə müəssisə daxilində iqtisadi təhlükələrin baş vermə prinsipləri:**




**Mənbə:** Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllifin hesablamaları

Əvvəldə iqtisadi təhlükəsizliyi dövrlərlə əlaqələndirirdik. Vergi uçotunda da baş verən təhlükələri və onları dayandırmaq üçün aparılan tədbirlər də dövrlə əlaqəlidir. Belə ki, bir sıra tədbirlər hadisələri, daha dəqiq təhlükələri qabaqcadan önləmək üçün aparılır.Bu cür tədbirlər profilaktik istiqamətdə aparılan tədbirlərdir. Bəziləri müəssisənin indiki dövrü ilə bağlı olanlardır. Onlar maliyyə fəaliyyətinə aid edilir və davamlı olaraq aparılır. Digərləri isə müəssisənin dövr üzrə fəaliyyətlərinin sonunda aparılır. Bu hallar isə əsasən vergi ilə əlaqədar məlumatların

sənədləşdirilməsi zamanı olur. İqtisadi təhlükəsizlik haqqında danışdığımız zaman xronoloji ardıcıllıq haqqında müəyyən fikirlər səsləndirmişdik. Bu fikirləri iqtisadi təhlükəsizlik üzrə vergi uçotunda qeyd etmək yerinə düşər. Belə ki, vergi uçotunda hesabat dövrləri ərzində həmin xronoloji ardıcıllığa önəm verilir.

Ölkəmizdə də pərakəndə fəaliyyət göstərən ticarət müəssisəsi, sığorta təşkilatları və başqalarında vergi uçotu üzrə aparılan hər bir tədbir mütləqdir ki, vergi qanunvericiliyi maddələrinə uyğun formada həyata keçirsin. Tədbirlərin təşkili zamanı əsas istifadə edilən metodlar arasında dövr üzrə qiymətləndirilmənin aparılması üçün taktiki və starateji dövrün planlaşdırma metodlarından yararlanırlar. Ancaq bununla bərabər, bir sıra böyük şirkətlər vergi uçotu tədbirləri apararkən bu metodlardan əlavə təşkilati metodlara da üstünlük verirlər.

Tədbirlər aparılan zaman metodların hansı prinsiplər üzrə tətbiqinə fikir verilir. Çünki vergi uçotu mühasibatın bir hissəsidir və bu aspekt üzrə aparılan siyasət ildən-ilə dəyişə bilər. Ona görə də vergi uçotu aparılan şəraitdə hər hansısa bir göstərici kəskin formada dəyişikliyə uğrayarsa, o zaman tədbirlərdə və metodlarda dəyişiklik etmək labüd hesab edilir. Ümumilikdə qəbul edilən qərarlarla əlaqəli olan bu tipli dəyişikliklər optimal vergi tənzimləməsinə, onun vahidlik göstəricisinə və stabil idarəetmə prinsipinə təsir edə bilər. Bu da onun rasionallıq prinsipi əsasında baş verir. (Вершинин Ю.Б., Ермишина О.Ф., 2014: с. 50-51)

**Sxem 13: Vergi uçotu tədbirləri üzrə məlumatların qarşılıqlı əlaqəsi**




**Mənbə:** Вершинин Ю.Б., Ермишина О.Ф., (2014), "Экономическая безопасность специализация", с. 50-51 istifadə edilərək müəllif tərəfindən hazırlanmışdır.

Belə ki, ilk öncə vergi əsaslı məlumatların alınması, onların qanuna uyğun formada öyrənilməsi, tətbiqi, onun əsasında pozuntuların və sui-istifadənin araşdırılması və ən sonda optimal bir vergi sisteminin yaradılması lazım gəlir.

Vergi fəaliyyətini tədqiq etmək üçün araşdırdığımız hər bir müəssisənin özünə məxsus startegiya və taktikaları vardır. İqtisadi təhlükələrə yol aça bilən problemləri aradan qaldırmaq üçün əsas tədbirlər planından biri də müəssisənin nəzarət prosesidir. Belə ki, vergi uçotu və tədbirlərinin daxili idarəçilik sisteminə necə təsir etdiyini bilirik. Ona görə də həyata keçirilən hər bir tədbir müəssisənin vergi fəaliyyətindən başqa onun büdcə məsələləri üzrədə aparılır. Buna səbəb isə vergi uçotundakı demək olar ki, hər bir dəyişikliyin birbaşa büdcə ilə əlaqəli olmasıdır. Müəssisənin həm büdcəyə, həm də ondan əmələ gələn vergi xərclərinə mütləq nəzarət etməsi bir məcburiyyət hesab edilir. Vergi uçotu üzrə aparılan hər bir tədbir nəzarət funksiyası hesabına baş verir. Nəzarət funksiyası sayəsində müəssisədə tədbirlərin oriyentasiyası bilinməli, vergi cinayətləri və ya qanun pozuntusu edən şəxslərin qanuni formada cəzalandırılmalı, məqsədəuyğunluq və ədalətlilik məsələlərinə əməl edilməlidir.

Azərbaycanda otel şəbəkələrinə və ya turizm şirkətlərinə malik olan rəhbərlər öz müəssisələrində vergi idarəetməsi üzrə tədbirlər planına monitorinqi də aid etməlidirlər. Vergi monitorinqi adlanan bu sistem məlumatların təhlili, vergi idarəetməsi, qərarların təsdiqi kimi fəaliyyətləri görür. Elmi dildə desək sanki müəssisənin virtual sferasını təşkil edir. Vergi monitorinqi bu əməliyyatlarla əlaqədar iş proseslərini, iş planını, ən əsası vergi konsepsiyasının təmin edilməsi məsələlərinə yardımçı olur.

Hətta müasir dövrdə qərarların verilməsi zamanı elektron formada olan vergi monitorinqi də aparılır. Vergi monitorinqinə üstünlük verilməsinin əsas səbəbləri aşağıdakılardır:

- Müəssisənin riskli əməliyyatlarını açığa çıxardır;
- Rəqəmsallaşdırma fəaliyyəti vasitəsilə nəzarəti təmin edir;
- Təşkil edilən proseslərin vergi məlumatları üzrə inteqrasiyasını uyğun formada təmin edir;

○ Vergi yoxlamalarının optimallığını yüksəldir;

○ Digər aparılan tədbirlərdən fərqli olaraq vergi monitorinqi zamanı daha az inzibati xərclərə yol verilir;

○ Qərarlar az və ya sıfır səhvlə təşkil edilir;

Bunun bariz nümunəsidir ki, vergi monitorinqindən istifadə edən şirkətlərin sayı son illərdə altı dəfəyə qədər artmışdır. Monitorinqlər yalnız tədbirlərin görülməsi və qərarların verilməsi üzrə yox, hətta sürətli koordinasiya etmək bacarığına da malik olduğundan aparılan əməliyyatlara fikir, rəy və ya məsləhət vermək xüsusiyyətinə malikdir.

Elektron monitorinqin davamlı şəkildə müəssisələrdə tətbiq edilməsi son dönəmlərdə yatay monitorinq anlayışına təkan verir. Yatay monitorinq hesabına tədbirlər zamanı genişləndirilmiş məlumatlardan istifadə edilir, nəzarət sistemini təşkilati formada təşkili yaranır. İlk tətbiqetmələr zamanı artıq bütün vergi riskləri barəsində məlumat əldə edilir, hətta müəssisələri vergiylə əlaqəli olan yanlış nəticələrdən çəkinməyi belə məsləhət görülür.

Yuxarıda vergi uçotu üzrə tədbirlərdən və onları hansı metodlar vasitəsilə tətbiq etməyimizdən danışdıq. Tədbirlərin keyfiyyətini artırmaq üçün planlaşdırılma üzrə işlər aparılır. Bu həmin tədbirlərin təsirediciliyini yüksəltmək məqsədilə edilir. Planlaşdırmanı aşağıdakı cədvəl üzrə göstərə bilərik:

**Cədvəl 6: Vergi uçotu tədbirlərinin planlaşdırılması üzrə prinsiplər və onların tərkibi**

| Prinsipləri | Qanunvericilik | Operativlik | Optimallıq |
|---|---|---|---|
| Tərkibi | 1.vergi ödəmələri məbləğinin real qiymətlərinin təyini;<br>2.vergi ödəmələrinin qanuni yolla minimuma endirilməsi;<br>3.vergi ödəmələrinin qanunla müəyyən edilmiş vaxtda təhvil verilməsi; | 1.cari dövrdə vergi uçotunun dəyişikliyi;<br>2. maliyyə siyasətinin vergi uçotu üzrə əsas istiqamətləri;<br>2.vergi uçotunun yeni şərtlər daxilində proqnozlaşdırılması;<br>3.vergi uçotu riskinin qiymətləndirilməsi; | 1.vergi uçotunun strateji üstünlüyünün prioritet məsələsinin tənzimlənməsi;<br>2.qiymətə uyğun olaraq məqsədli planın yeni üsulla tətbiqi;<br>3.vergi və başqa nəzarət orqanları tərəfindən hüquqi ödəmələrin azaldılmasının qanuni cəhətdən həqiqətə uyğunluğu; |

**Mənbə:** Барулин С.В., (2010), “Налоговый менеджмент”, с. 92

Yuxarıdakı cədvəlin daxilində qeyd edildiyi kimi hər bir prinsipin özünəməxsus xüsusiyyətləri vardır. Vergi uçotu məsələlərində tədbirlər və ya müəssisə üçün lazımi qərarlar verilərkən ilk öncə təcrübələr aparılır, məlumatlar toplanılır, qruplaşdırılır, hesabatlar öyrənilir, vergi üzrə analitik məlumatların strukturu təmin edilir, bundan sonra isə tədbirlərin və ya veriləcək qərarların kiçik nümunəsi, modeli qurulur. Əgər qaneedici olarsa o vaxt artıq onun müəssisədə təşkili üçün heç bir şübhə yeri qalmır.

Vergi uçotu tədbirlərini apararkən verilən tələblərə baxaq: müəssisənin vergiylə bağlı rəsmi sənədlərinin tələb edilməsi; vergi əməliyyatları zamanı onu həyata keçirən şəxsdən izahat tələb etmək; vergi əməliyyatlarının mahiyyətini qarşı tərəfə çatdırmaq üçün bildirişlər verilməsi; vergilərin həqiqətə uyğun əks olunduğu hesabatlardan istifadə; sənədli sübutlardan istifadəyə üstünlük verilməsi; təcili olarsa tədbirləri yerindəcə aparmaq; dəlil əldə etmək üçün vacib məlumatların tələbi; müqayisəli məlumatların öyrənilməsi üçün inventar fəaliyyətin təmin edilməsi; (Вершинин Ю.Б., Ермишина О.Ф., 2014: с. 44-49)

İqtisadi təhlükəsizlik zamanı əsas təhlükə yaradan aspektlərdən biri də vergi uçotu üzrə aparılan hesabların düzgün əks etdirilməsidir. Belə ki, vergi uçotu üzrə aparılan tədbirlər zaman artıq əvvəlki kimi səhvlərə yol verilmir. Çünki indiki dövrdə kağız və elektron şəkildə aparılan əməliyyatlar vergi dəftərlərində bir neçə səviyyəli quruluşa malik olurlar. Müasir dövrdə aparılan tədbirlər hesabına vergi uçotunda səhvləri azaltmaq üçün üç səviyyəli: 1) vergi uçotu hesablamaları; 2) gəlir və xərclər göstəricilərinin analitik formada qeydi; 3) gəlir və xərclər üzrə məlumatların konsolidasiyası üzrə qeydi; formalarında göstərilir.

İqtisadi təhlükələrə yol açmamaq üçün müəssisə daxilində vergi uçotunun idarəsi isə bağlı bir sıra aparılması vacib olan tədbirlər vardır. Vergi uçotu üzrə həyata keçirilən tədbirlərə:

⇒ Vergilərin tam vaxtında və dəqiq hesablanması, ödənilməsi məsələləri;

⇒ Vergi qanunvericiliyinə əsasən vergi bəyannamələrinin müəssisəyə aid etdikləri öhdəliklərə əməl edilməsi;

⇒ Vergilərin ödənilməsi ilə bağlı müəssisənin etibarlılıq prinsipinə əməl etməsi;

⇒ Müəssisənin vergiləri ödəməsini qanunauyğunluq üzrə optimal fasiləsizliyinin təşkili;

⇒ Müəssisədə təhlükə yarada biləcək vergi risklərinin səviyyəsinin azaltmaq məqsədilə qanunla müəyyən edilmiş metodlardan istifadə edilməsi; aiddir. (Антошина О.А, 2009: с. 6-9)

Yerli turizm, sığorta, bank kimi təşkilatlar vergi uçotu üzrə aparılan əməliyyatlarda aşağıdakı nüanslara fikir verməlidir: müəssisənin vergi uçotu əməliyyatlarında və onların sənədləşdirilməsi zamanı əsas fərqləri göstərməsi, vergi uçotu reyestrləri, gəlir və xərclərin stabilləşdirilməsi; Bu tip halları aradan qaldırmaq üçün vergi uçotu üzrə tədbirlər aparılır. Həmin tədbirlər: müəssisədə vergi uçotunun təşkili zamanı metodologiyanı xarakterizə edir; vergi uçotu reyestrinin göstəricilərini müəyyən edir; uçotun iyerarxik quruluşunu təşkil edir; vergi uçotu məlumatlarının bir-biri ilə bağlı olması üzrə fəaliyyətlərini araşdırır; vergi bəyannamələri üzrə müəssisələrdə tətbiq ediləcək prinsipləri izah edir;

Vergi uçotunun bir sistem olduğunu və yanlış idarəsi zamanı iqtisadi təhlükələrə səbəb olmasını bilirik. Deməli, bu təhlükələri də aradan qaldırmaq üçün təşkil edilən tədbirlər də bir sistem fomasında olmalıdır. Bu fikri nəzərə alan şirkətlər vergi uçotu tədbirlərini sistematik modellər üzrə qururlar. Belə olduğu zaman haqqında danışdığımız tədbirlər planı vergi bazasının, onun mexanizminin daha səmərəli vəziyyətdə olmasına təkan verir. Bununla da yaranan və ya yaranacaq təhlükələrin qarşısı alınır, daha sadə və anlaşılan struktur təşkil edilir.

Vergi uçotu idarəedilməsində uçotla əlaqəli bir sıra pozuntular yaranır. Bu kimi yanlışlıqları aradan qaldırmaq üçün göstərilən tədbirlər məqsədəuyğundur: müəssisəyə aid edilən hər bir vergi növünün dərəcəsi dəqiq göstərilməklə; vergi uçotuna təsir edə biləcək və ya onunla əlaqəli vergi yayınmaların qarşısını almaq; müəssisədə yalnız vergi uçotunun yox, vergi siyasətinin təkmilləşdirilməsi məsələlərini həyata keçirmək;

İqtisadi fəaliyyət üzrə də hər hansısa bir dəyişiklik vergi uçotuna təsir edə bilər. Bu cür hadisələr zamanı aşağıdakı dəyişmələri və ona uyğun tədbirləri göstərə bilərik:

• qanunvericiliklə əlaqəli dəyişiklik üzrə həmin qanunun qüvvəyə minəcəyi vaxtdan;

• iş fəaliyyətilə əlaqəli dəyişiklik üzrə müəssisə daxilində vergi uçotu işi ilə bağlı olan fəaliyyətlərin dəyişdirilməsi zamanı;

• proqnozlaşdırılmayan proseslərlə əlaqəli dəyişiklik üzrə gözlənilməz bir anda vergi uçotuna aid edilən hər hansısa bir prosesin ortaya çıxması zamanı;

• müasir inkişafla əlaqəli dəyişiklik üzrə günü-gündən təkmilləşən müəssisələrdə vergi uçotu ilə bağlı yeni sahələrin yaranması zamanı;

• idarəçiliklə əlaqəli dəyişiklik üzrə müəssisə rəhbəri tərəfindən daxil idarəetmədə dəyişikliyə səbəb olaraq göstərilən əmrlər və ya qərarların tətbiqi vaxtı;

Əvvəldə haqqında danışdığımız xidmət müəssisələrinin təşkil etdiyi tədbirlər ölkədəki müəssisələr üçün aşağıda toxunduğumuz uğurlu nəticələrə gətirib çıxara bilər:

•əvvəlki dövrdən fərqli olaraq vergi uçotu və müəssisənin vergi hesabatlarında göstərilən öhdəliklərin və bununla əlaqəli olan bir sıra lazımi məlumatların dəyərləndirilməsi zamanı ölçmə prinsipinin effektiv olması;

•müəssisənin fəaliyyəti zamanı əməliyyatların eyni uçotda yox, ayrı-ayrı uçotlarda qeyd edilməsi hesabına yaranan dəqiqlik;

•istər problemlərin baş verdiyi zaman dəyən zərərin, istərsə də iqtisadi mərhələlər zamanı müəssisəyə edilən təsirlərin hər biri dövr üzrə göstərilməsi;

Son dönəmlərdə aparılan tədbirlərin müəssisəyə yaxşı yöndə təsir göstərməsi təəccüblü deyil. Çünki demək olar ki, hər müəssisə seçici tədbirlərdən "möhkəm" tədbirlərə keçmişdir. Yəni müəssisə vergi ilə əlaqədar tədbirləri yalnız bir spektr üzrə yox, bütün müəssisə üzrə aparır. Onu da vurğulamağımız vacibdir ki, hər bir vergi mütəxəssisi müəssisədəki vergi fəaliyyəti ilə əlaqəli iqtisadi təhlükəsizlik tədbirlərini dəyərləndirməlidir. Çünki müasir dövrdə kiber cinayətkarların əsas məqsədi vergi ilə bağlı olan informasiyaları oğurlamaq və ən pisi saxta vergi

bəyannamələrindən istifadə etməkdir. Tədbirlər planı hesabına vergi uçotuna aid edilən bir sıra maliyyə prinsipləri, onların təkmilləşdirilməsi, baş verə biləcək və ya artıq baş vermiş bir neçə təhriflərin və onların vurduğu ziyanın qarşısını almaq mümkündür. Əlbəttə vergi uçotu müəssisə üçün nə qədər önəmlidirsə, edilən tədbirlər də onun üçün müsbət bir hal hesab edilir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Beləliklə iqtisadi təhlükəsizlik üzrə əldə etdiyimiz nəticələrdən danışaq. İlk növbədə öncədən də dediyimiz kimi iqtisadi təhlükəsizliyin müəssisə səviyyəsində necə vacib bir amil olduğunun şahidi olduq. Onun müəssisənin həm daxili, həm də xarici siyasətində vacib rolu ön plana çəkildi. İqtisadi təhlükəsizliyin göstəriciləri, əlamətləri müəssisədə müsbət və mənfi tendensiyalar yaradır ki, bu da onun mahiyyəti və xarakterik xüsusiyyətlərini izah edir.

Bundan əlavə müəssisə baxımından uçot-analitik məlumatlar, onun müəssisədə təminatının inkişafı, önəmi haqqında danışdıq. Uçot-analitik informasiyaların hesabına müəssisələr hesabatları, verəcəyi qərarları və bunun kimi onlarla göstərici və fəaliyyəti daha düzgün formada təşkil edirlər. İqtisadi təhlükələrin aradan qaldırılması üçün o məlumatlardan istifadə edilir.

Müəssisədə maliyyə hesabatlarında səhvlərin baş verməsinin, onun da iqtisadi təhlükələrə təkan verməməsi üçün beynəlxalq təcrübələrdən və standartlardan istifadə edirlər.

Müəssisələrdə sui-istifadə hallarının və məlumatlarının yaranması iqtisadi təhlükələrə gətirib çıxarır. Onların özünəməxsus bir sıra göstəriciləri, yaranma səbəbləri, baş verdiyi iqtisadi şəraiti vardır. Sui-istifadə hallarının qarşısının alınması məqsədilə tədbirlər planının aparılması məqsədəuyğun hesab edilir.

İqtisadi təhlükəsizliyin uçot məsələləri ilə sıx əlaqəli olduğundan və həmin məlumatların vacibliyini nəzərə alaraq uçot məlumatlarının ümumiləşdirilməsi metodundan istifadə edilir. Bu metod hesabına uçotla bağlı məlumatların əldə edilməsindən sonra onun lazımi hissələrinin seçilməsi, kateqoriyalara bölünərək cəmlənməsi, qiymətləndirilməsi, idarəetmə əməliyyatlarında tətbiq edilməsi kimi məsələləri özündə birləşdirilir.

İqtisadi təhlükəsizlikdə bütün təşkiletmə və idarəetmə ilə əlaqədar olan fəaliyyətlərin hər biri müəssisələrin daxilində yerləşən və iqtisadi təhlükəsizliklə bilavasitə bağlı olan xüsusi şöbədə aparılır. Xüsusi şöbə vasitəsilə müəssisədə iqtisadi təhlükələrin xarakterizə edilməsi, baş vermə amillərinin öyrənilməsi və onların qarşısının alınması məsələlərinə baxılır.

Müəssisələrdə idarəetmə və vergi uçotu üzrə yaranan iqtisadi təhlükələrin qarşısını almaq üçün bir sıra tədbirlər görülür. Bu tədbirlər idarəetmə və vergi uçotu ilə bağlı olduğundan onun vasitəsilə baş verən iqtisadi təhdidlərdən və problemlərdən yan keçmək və onların müəssisəyə təsirlərini minimum rəqəmə qədər azaltmaq olar. Bu tədbirləri həyata keçirmək üçün bir sıra metodlardan istifadə edilir.

Mövzu ilə əlaqədar olaraq sonda bir sıra təklif və tövsiyələrimiz yaranır. Onlara misal olaraq aşağıdakıları göstərə bilərik:

1. İqtisadi təhlükələrə yol verməmək üçün maliyyə hesabatlarının düzgün təşkili zamanı beynəlxalq baxımdan məqsədəuyğun hesab edilən təcrübələrin müəssisədə tətbiqinə şərait yaratmaq;

2. Əhəmiyyətli hesab edilən uçot-analitik məlumatların doğruluğunun mütləq formada yoxlanılması;

3. Uçot-analitik məlumatlar hesabına fəaliyyətin təkmilləşdirilməsi üçün MİCROSOFT Dynamics GP proqramından istifadə edilməsi;

4. İqtisadi sui-istifadə hallarının azaldılması üçün profilaktik tədbirlərin aparılması, praktiki və nəzəri proqramların istifadəsi, nəzarətin təşkil edilməsinin gücləndirilməsi, qanun layihələrinin tətbiqi;

5. Müəssisəyə məxsus uçot və digər iqtisadi məlumatların gizli və sirr olaraq saxlanmasına önəm verilməsi və bunun üçün tədbirlər görülməsi;

6. Uçot məlumatlarının ümumiləşdirilməsini yüksək səviyyəyə çatdırmaq məqsədilə avtomatlaşdırılmış proqramlardan – AUMS-dən istifadə edilməsi;

7. Müəssisələrdə iqtisadi təhlükəsizliyi təmin edərkən iqtisadi şəraitə və müəssisənn vəziyyətinə uyğun olaraq lazımi metodlardan istifadə;

8. Xüsusi şöbənin işini daha da təkmil etmək üçün veriləcək qərarların müəssisənin fasiləsizliyinə təsiri nəzərə alınması və onun mütləq şəkildə qanun çərçivəsində təşkili;

9. Daha peşəkar və gələcək vəd edən kadrların işə götürülməsi, müəssisədəki işçilərin maarifləndirilməsi;

10. İqtisadi təhlükələr qarşısında bir sədd yaratmaq üçün idarəetmə uçotu daxilində tədbirlər planı üzrə - analitik, tənzimləmə, birbaşa fəaliyyətlərin görülməsi, monitorinqin (elektron, yatay) aparılması, komissiyaların təşkil edilməsi;

11. Xarici ekspertlərin və ya müəssisələrin iqtisadi təhlükələrə qarşı uğurlu strategiyalarının və taktikalarının düzgün formada öyrənib, təkmilləşdirdikdən sonra yerli müəssisələrdə tətbiq edilməsi;

12. Vergi uçotu üzrə səhvlərin yol açdığı iqtisadi təhlükələrin qarşısını almaq üçün onunla bağlı sənədləşdirmənin elektron formada aparılması;

13. Vergi yayınmalarını aradan qaldırmaq üçün elektron vergi monitorinqinin aparılması;

Yuxarıdakı təkliflərimiz müəssisələrdə iqtisadi təhlükəsizliyin hər bir aspektini həm ayrı-ayrılıqda, həm də sistem formasında öyrənilməsinə istiqamətlənir. Bu təkliflərin müəssisənin iqtisadi təhlükəsizliyini yüksək səviyyədə təmin edəcəyinə ümid edə bilərik.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Bərxudarov M.İ, Məmmədov N.M, (2006), "İqtisadi Təhlükəsizlik", Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 452 səh.

2. Məmmədov N.M., (2009), "Ölkənin iqtisadi təhlükəsizliyi", Bakı: "Elm", 43 səh.

3. Səbzəliyev S.M., Quliyev V.M., (2014), "İdarəetmə uçotu" dərslik, Bakı: "Elm və təhsil" nəşriyyatı, 524 səh.

4. Səbzəliyev S.M., (2018), "Maliyyə hesabatı" dərslik, "İqtisad Universiteti" nəşriyyatı, 258 səh.

## Rus dilində

1. Алиева М.З., "Экономическая безопасность региона: подходы к назначению", "Вестник Алтайской академии экономики и права", 2020, 11-18 с.

2. Антошина О.А., "Организация налогового учета и налогового планирования на предприятии", "Экономико-правовой бюллетень", 2009, 11 с.

3. Афаунова Ж.Ч., Хамгоков К.М. Международные стандарты финансовой отчетности (МСФО) для малых и средних предприятий (МСП), журнал: Фундаментальные исследования, 2015, №11, 540-543 с.

4. Барулин С.В., (2010), "Налоговый менеджмент", 167 с.

5. Вахруков С.А., (2018), "Об управлении экономической безопасности Правительства области", 25 с.

6. Вершинин Ю.Б., Ермишина О.Ф, Методические указания по выполнению и оформлению курсовых работ по Экономическая безопасность для студентов специальности "Экономическая безопасность специализация", 2013, 21 с.

7. Гапоненко В.Ф., (2008), "Экономическая безопасность предприятия: подходы и принципы", "Ось-89", 208 с.

8. Гончаренко Л.П., (2020), "Экономическая безопасность : учебник для вузов", Москва : "Издательство Юрайт", 340 с.

9. Заремба Е.М., "Учетно-аналитическое обеспечение интегрированного бухгалтерского учета денежных потоков предприятия", журнал : Экономика, финансы, менеджмент: актуальные вопросы науки и практики, 2015, №2, с. 46–52

10. Иванов Е.А., "Сущностные характеристики и концептуальная модель учетно-аналитической системы", "Вестник Волгоградского института бизнеса", 2014, 162–165 с.

11. Ильин В.Н., "Экономическая безопасность в системе национальной безопасности", журнал : Экономические науки, 2016, №50, с.11-14

12. Касперович С.А., Дербинская Е.А., (2016), "Экономическая безопасность предприятия: сущность, цели и направления обеспечения", "Труды БГТУ", 278-280 с.

13. Киселева И.А., Симонович Н.Е., Косенко И.С., "Экономическая безопасность предприятия: особенности, виды, критерии оценки", "Вестник Воронежского государственного университета инженерных технологий", 2018, 415-423 с.

14. Колпаков П.А. "Система экономической безопасности фирмы", журнал : Экономика и менеджмент инновационных технологий, 2013, №1, с. 36-45 с.

15. Корзаева Н.Н., (2017), "Основы экономической безопасности", 276 с.

16. Крылова Т.Б., "Первые итоги внедрения МСФО за рубежом", журнал: Международный бухгалтерский учет, 2008, № 3, с.64-69

17. Майбурова Ю.Б., Иванова М., (2016), "Энциклопедия теоретических основ налогообложения", 503 с.

18. Мамаева Л.Н., Плеханов.Г.В., (2015), "Экономическая безопасность предприятия: учебник", Саратовский социально-экономический институт, "РЭУ им.", 111 с.

19. Моденов А.К., Белякова Е.И. və Власов М. П., (2019), “Экономическая безопасность предприятия” : моногр., “СПбГАСУ”, 550 с.

20. Мясникович М.В, Полоник С.С. və Пузиков В.В., (2006), “Управление системой обеспечения экономической безопасности”, Москва: “Право и экономика”, 380 с.

21. Палий В.Ф., (2010), “Управленческий учет”, Москва:”Инфра-М”, 463 с.

22. Сенчагов В.К., (2015), “Экономическая безопасность”, Москва: “Дело”, 896 с.

23. Сергеев А.А., (2020), “Экономическая безопасность предприятия: учебник и практикум для вузов”, Москва : “Издательство Юрайт”, 273 с.

24. Сергеева И.А., (2017), “Интегрированная система экономической безопасности предприятия: учебник”, Пензенский государственный университет (ПГУ), “Пенза: Изд-во ПГУ”, 122 с.

25. Сорокина И.В., (2009), “Теоретико-методологические аспекты формирования системы экономической безопасности предприятия”, 114-122 с.

26. Ширко Л.М., “К вопросу о сущности экономической безопасности предприятия”, журнал: Международных экономических отношений, 2020, №4, с.1555-1564

**İngilis dilində**

1. Adams A.E., Greeson M.R, “Development of the Scale of Economic Abuse”, Journal of Violence against women, 2018, vol.14, p.563-588

2. Balasabas R., (2019), “Analytical Accounting in GP for Fixed Assets”, 3-4 p.

3. Cameron P., “Relationship Problems and Money: Talk about Financial Abuse Research Report”, Journal of WIRE women's information, 2014, vol.4, p.3-12 p.

4. Coddington A., “5 Benefits of Analytical Accounting Dynamics GP”, 2017, 48 p.

5. Hartman D., (2018), “The Advantages & Disadvantages of Financial Accounting”, 14 p.

6. Littwin A.K., “Coerced Debt: The Role of Consumer Credit in Violence”, Journal of California Law Review, 2012, vol.100, p.951-959

7. Postmus, J.L., Plummer, S.B., “Measuring economic abuse in the lives of survivors: Revising the Scale of Economic Abuse”, Journal of Violence Against Women, 2016, vol.27, p.692-703

8. Sanders C.K., (2007), “Economic Abuse and Implications of a Program for Building Economic Resources”, “Washington University in St. Louis” ,104 p.

9. Stylianou A.M., Postmus J.L., “Measuring abusive behaviors: Is economic abuse a unique form of abuse?”, Journal of Interpersonal Violence, 2013, vol.28, p. 3186-3204

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Müəssisənin iqtisadi təhlükəsizliyinə yanaşmalar....................................13
**Cədvəl 2:** U.S.GAAP sisteminin hər səviyyəsi üzrə sənədlər..................................34
**Cədvəl 3:** Funksional-modul və obyektyönümlü yanaşmalar, onların xarakteristikaları.......................................................................................................54
**Cədvəl 4:** Müəssisədə iqtisadi təhükəsizliyin təmin edilməsi üçün tədbirlər...........63
**Cədvəl 5:** Müəlliflərin metodlar barədə fikirləri....................................................65
**Cədvəl 6:** Vergi uçotu tədbirlərinin planlaşdırılması üzrə prinsiplər və onların tərkibi...........................................................................................................73

## Sxemlərin siyahısı

**Sxem 1:** Müəssisənin iqtisadi təhlükəsizliyinin kriterial qiymətinin prinsipi...........15
**Sxem 2:** Müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin istiqamətləri.....18
**Sxem 3:** İqtisadi təhlükəsizliyin uçot-analitik hesablarının növləri.........................22
**Sxem 4:** İqtisadi təhlükəsizliyin inkişafının uçot-analitik məlumatlarda rolu..........24
**Sxem 5:** Təcrübələrin tətbiqi zamanı baş verən problemlər.....................................35
**Sxem 6:** İqtisadi sui-istifadə hallarının kateqoriyalar üzrə bölünməsi və əlaqəsi.....42
**Sxem 7:** Ümumiləşdirilmiş uçot məlumatları sistemi.............................................45
**Sxem 8:** Optimal uçot ümumiləşdirilməsi aspektlərinin bir-birilə əlaqəsi...............46
**Sxem 9:** Optimal təşkil olunmuş ümumiləşdirmənin vəzifələri..............................52
**Sxem 10:** Xüsusi bölmənin müəssisədaxili və müəssisəxarici vəzifələri.................56
**Sxem 11:** İqtisadi təhlükəsizlik tədbirlərinin təşkili üzrə əməl edilən struktur.........66
**Sxem 12:** Vergi uçotu üzrə müəssisə daxilində iqtisadi təhlükələrin baş vermə prinsipləri...................................................................................................70
**Sxem 13:** Vergi uçotu tədbirləri üzrə məlumatların qarşılıqlı əlaqəsi......................71